www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 fevral 2016-cı il Cümə axşamı № 38 (6359) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda vətəndaş yol polisinin avtomobilini çəkiclə yararsız hala saldı

yazısı səh.14-də

**Gündəm**

### Azərbaycan prezidenti: "O ölkələrin bərpası bundan sonra mümkün olmayacaq"



İlham Əliyev Gəncədə mühüm açıqlamalar verdi: "Heç bir ölkəyə imkan verməyəcəyik ki, daxili işlərimizə qarışsın"

yazısı səh.5-də

### Müxalifətin "xalq özü ayağa qalxacaq" ümidi...

yazısı səh.3-də

### Özəl mühafizə xidmətlərinə nəzarətin gücləndirilməsinin pərdəarxası

yazısı səh.7-də

### Müstəqilliyə gedən yolda 19 fevral tarixi

yazısı səh.4-də

### Rəsul Quliyevin videosu aranı qarışdırdı...

yazısı səh.3-də

### "Eldar Mahmudovun qaynı Rasim Salmanovun biznesinə havadarlıq edib"

yazısı səh.10-da

*Vahid Əhmədov:*

### "İnşaat sektorunda şəffaflığın artırılmasına çox böyük ehtiyac var"

yazısı səh.12-də

### Binəqədinin icra başçısının müavini postu 170 min manata "satılırmış"..

yazısı səh.10-da

### Texnologiya Universitetinin sabiq baş mühasibi İnterpol xətti ilə axtarışa verildi

yazısı səh.2-də

### Uşaq evlərində böyüyən məşhurlar

yazısı səh.15-də

### Ölüm ayağında olan Qarabağ qazisinin ürək dağlayan müraciəti...

yazısı səh.10-da

**Türkiyənin 1 nömrəli bortunun marşrut dəyişikliyinin pərdəarxası**

# ƏRDOĞANIN AZƏRBAYCAN SƏFƏRİNƏ RUSİYA TƏHLÜKƏSİ - İLGİNC GƏLİŞMƏ

Türkiyə liderinin Azərbaycan səfərinə "dumanlı Gəncə" əngəli; onun ikinci paytaxta getməsini əngəlləyən səbəblər arasında təhlükəsizlik məsələlərinin olduğu istisna edilmir; TC prezidentinin ölkəmizdən dünyaya verəcəyi mesajlar səbirsizliklə gözlənilir; Moskva ilə barışıq məsələsinə səfərin həlledici təsiri ola bilər...




yazısı səh.8-də

## Tiflis və Tehrandan Bakıya qaz xəyanəti - gözlənilən oldu

Azərbaycan prezidentinin İran səfəri ərəfəsində Tehranın təbii qazı Gürcüstana Ermənistan üzərindən satacağı açıqlandı; izolyasiyada olan işğalçı ölkənin tranzit ölkə rolu güclənir, ona indi Tiflis də "nəfəs verəcək"...

yazısı səh.7-də



*Əli Həsənov:*

### "Çox təəssüf ki, bəşəriyyət qanlı Xocalı faciəsinə şahidlik etdi və susdu"

yazısı səh.4-də



### Araz Əzimov ittihamlara cavab verdi

yazısı səh.9-da



*Əhəd Abıyev:*

### "Xətainin icra başçısı ilə aramızı vurmaq istəyirlər"

yazısı səh.2-də

**18 fevral 2016**

## Azərbaycanın İsveçrədəki səfirliyinin sürücüsü təzyiqə məruz qalıb?

### Emin Baxşıyev mühacir kimi İsveçrədə qalmaq üçün bəhanə uydurub?



Emin Baxşıyev

**İki gündür ki, mediada Azərbaycanın İsveçrə Konfederasiyasındakı səfirliyində sürücü işləyən Emin Heydər oğlu Baxşıyevlə bağlı informasiyalar yer alır. O, öz istəyi ilə işdən çıxıb və siyasi mühacir kimi İsveçrə hökumətinə müraciət edib.**

Bu barədə Meydan TV-yə Emin Baxşıyevin özü məlumat verib. 1981-ci il təvəllüdlü E.Baxşıyev Sumqayıt şəhərində anadan olub. 1989-99-cu illərdə həmin şəhərdəki 30 saylı orta məktəbdə təhsil alıb, 2003-cü ildə Gəncə Dövlət Universitetini bakalavr dərəcəsi ilə bitirib. 2006-2010-cu illərdə Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlığı Mərkəzində, 2010-2013-cü illərdə isə Xarici İşlər Nazirliyində fotoqraf kimi çalışıb. 2013-cü ilin oktyabrından Azərbaycanın İsveçrədəki səfirliyində sürücüdür. Ailəlidir, 3 övladı var.

Emin Baxşıyevin sözlərinə görə, atası 1997-ci ildə vəfat edib. Bacısı, qardaşı yoxdur. Azərbaycanda yalnız anası yaşayır.

Səfirlik əməkdaşı facebook səhifəsində Azərbaycanın İsveçrədəki səfirliyinin əməkdaşı olaraq 1 fevral 2016-cı il tarixindən ailəsi ilə birlikdə İsveçrədə sığınacaq istədiyini yazıb. O, "özünə və ailəsinə qarşı təzyiqlərə dözmədiyi" üçün bu addımı atdığını da qeyd edib.

"Yeni Müsavat"ın əldə etdiyi məlumatda isə E.Baxşıyevlə bağlı daha fərqli detallar yer alır. Həmin detallara görə, E.Baxşıyev Azərbaycanın İsveçrə Konfederasiyasındakı səfirliyində 2013-cü ildən etibarən işləməyə başlayıb. Həmin ildə Azərbaycandan İsveçrəyə gələn Eminin xidmət müddəti isə 3 ildir. 2016-cı ildə səfirliklə müqaviləsi başa çatacaq olan E.Baxşıyev Azərbaycana qayıtmaq istəmir, 3 il boyunca yaşadığı İsveçrədə yaşamını sürdürmək niyyətindədir. Bunun ən ideal yolu kimi mühacir statusu əldə etməyi görür.

Mənbənin verdiyi məlumata görə, səfirlikdə sürücü işləyən şəxsə qarşı hər hansı təzyiqin olması isə absurddur. Xüsusən nəzərə alanda ki, Azərbaycanda ancaq anası yaşayır. Sonuncuya qarşı hansısa formada təzyiqin olması isə mümkünsüzdür. Mənbə bildirdi ki, E.Baxşıyevin müqavilə müddəti 2016-cı ilin ortalarında bitəcək. Həmin zaman isə onun avtomatik olaraq Azərbaycana qaytarılması şərtdir. Mənbənin dediyinə görə, sürücü də geri qaytarılmamaq üçün indidən zəmin yaradır, mətbuatda görünmək, özü ilə bağlı rəy yaratmaq və miqrasiya idarəsinə göndərmək üçün materiallar toplayır. Bu materiallardan biri də mediada onun haqqında çıxan məqalələrdir.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevdən mövzu ilə bağlı sualımıza cavab ala bilmədik.

**Mövzunu davam etdirəcəyik.**

**Sevinc TELMANQIZI**

## SOCAR ölən neftçinin xanımının ittihamlarına cavab verdi

SOCAR

**"Günəşli" yatağında baş verən faciə zamanı həlak olan neftçi Tağıyev Fuad Tahir oğlunun xanımı Tağıyeva Humayın ittihamlarına cavab verib.**

SOCAR-dan verilən xəbərdə deyilir: "SOCAR-ın baş ofisinə Fuad Tağıyevin həyat yoldaşı Tağıyeva Humay gəlib və tələb edib ki, onunla rəhbərlik görüşsün. Onunla görüşmək üçün vitse-prezidentlər B.Bədəlov və X.Məmmədov qəbul otağına düşüb və xanımı qəbul ediblər. Humay xanım səbrlə dinlənilib, bütün suallarına ətraflı cavab verilibdir.

"SOCAR bizə niyə kömək etmir" sualına isə rəhmətlik Fuadın ailəsi üçün verilən maddi yardımlar sadalanıb. Bu zaman xanım etiraz edib və deyib ki, siz yalan danışırsınız, onlara o qədər pul verilməyib. Qəbulda olan məsul işçilər məlumat veriblər ki, xanım Fuad Tağıyevin ikinci həyat yoldaşıdır. Fuad rəhmətliyin birinci həyat yoldaşı və ondan bir uşağı var. Təqaüdçü atası Tahir var və qəbulda olan Humay xanımla nikahı olub, ondan da 2 uşağı var. Onlara verilən kömək və sığortanın məbləği haqqında məlumat veriləndə Humay xanım deyib ki, mənə o qədər pul verməyiblər, siz yalan danışırsınız.

Onda məlum olub ki, birinci həyat yoldaşından olan uşağın və atası Tahirin də o puldan almaq hüququ vardır. O, bu fikirlə razılaşmayanda soruşulub ki, sən ərə gedəndə bilmirdin ki, Fuadın başqa övladı var? Bununla bağlı qanunun tələbləri ona izah olunub".

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Əhəd Abıyev haqqında yazılanları təkzib etdi - "Utanmırsınız?!"

### "Xətai rayonunun icra başçısı olacağımla bağlı deyilənlər yalandır"

**Bəzi mətbuat orqanlarında Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevlə bağlı yazı dərc olunub. Yazıda icra başçısı barəsində ciddi iddialar var. Bildirilir ki, Ə.Abıyevin müxtəlif rayonlarda daş karxanaları, istirahət mərkəzləri, hotelləri və bağ evləri var.**

Yazıda o da qeyd olunur ki, icra başçısı "Vüsel" şirkətinin rəhbəri Tahir Hüseynovla birlikdə evlərin dam örtüyünü dəyişmək adı altında 1 milyon manat büdcədən vəsait mənimsəyib. Daha bir iddia da ondan ibarətdir ki, Ə.Abıyev Bakının Xətai rayonuna icra başçısı gəlmək istəyir. Bu xəbərin hazırkı icra başçısı Razim Məmmədovun qulağına çatdığı və onlar arasında narazılıq yarandığı bildirilir.



Əhəd Abıyev



Razim Məmmədov

Barəsindəki iddialarla bağlı Əhəd Abıyevin özü ilə əlaqə saxladıq. O, "Yeni Müsavat"a açıqlamasında yayılan xəbərləri təkzib etdi: "Heç bir əsası olmayan yalan, iftira dolu yazı dərc olunub. Digər saytlar da bu xəbəri bir mənbəyə istinadən veriblər. Xəbəri yayan saytla bağlı məhkəməyə müraciət edəcəm. Haqqımda mənə aidiyyəti olmayan yazı dərc ediblər. Deyirlər ki, Xətaiyə icra başçısı gəlirəm. Razim Məmmədov dostumdur. Həmkar, dost kimi onunla çox yaxınıq. Belə bir şey mümkün deyil. Sadəcə, aranı qarışdırmaq istəyən qüvvələr var. Bəzi dostlarımı məndən narazı salmaq istəyirlər. İcra başçısının dəyişməsi ölkə başçısının səlahiyyətinə aid məsələdi. Oturduğum yerdə qəflətən baxıram ki, barəmdə yazı saytda gedib. Tam qərəzli şəkildə mənimlə Razim Məmmədov arasında inciklik salmağa çalışırlar. Faktiki, onunla əmioğlu kimi yaxın münasibətdəyik. Həmin yazıda bir cümlə belə doğru deyil. İnanırsınız ki, indiyə qədər Qaxda olmamışam?! Yazılanların hamısı böhtandır. Bunu yazanlara, yazdıranlara üzümü tutub soruşuram: Heç utanmırsınız?! Barəmdə belə yazılar yazmaqda marağının nə olduğunu da bilmirəm".

**İcra başçısı lazım gələrsə, xəbəri yayan saytı məhkəməyə verəcəyini də qeyd etdi:** "Əgər lazım gəlsə, məhkəməyə müraciət edəcəm. Əslində mənim mətbuatla, jurnalistlərlə çox yaxşı münasibətim var. Amma bəzi mətbuata üz qarası olan dırnaqarası jurnalistlər təəssüf ki, araqarışdırmaqla məşğuldurlar. Razim Məmmədov və mən dövlətçiliyə xidmət edirik. Onunla münasibətimizi poza bilməzlər. Deyir ki, karxanalarım var. Məhkəməyə müraciət edək, yoxlanılsın. Hardadı karxanam?! Bu xəbərə həm də gülürəm. Kişilikləri, qeyrətləri olsa, bu açıqlamamdan sonra xəbəri saytdan götürərlər. İstinad edən digər saytlar da götürərlər. Belə cəfəngiyyat xəbərlər yaymaq ayıbdır. Ədalətli qəzetlərimiz çoxdur. Bəzi saytlar başqa saytların da hörmətdən salırlar".

**Cavanşir ABBASLI**

## Ölkə müxalifəti yenə toplanır

### Antiböhran masaları yaradılacaq...

**Fevralın 21-də müxalifətin böyük bir hissəsi böhranla əlaqədar yenidən toplaşacaq. Musavat.com xəbər verir ki, tədbir saat 14.00-da ADP-nin qərargahında keçiriləcək.**

Toplantıda müxalifət partiyalarının sədrləri və rəhbərlikdə təmsil olunan siyasilər, tanınmış ekspertlər, ictimai-siyasi xadimlər, vətəndaş cəmiyyəti təmsilçiləri, bir sıra qeyri-hökumət təşkilatları rəhbərləri iştirak edəcəklər. Ölkədəki iqtisadi və siyasi böhranla bağlı son durum, həmçinin ictimai siyasi vəziyyət müzakirə ediləcək.

Qeyd edək ki, müxalifət partiyalarının bir hissəsi yanvarın 24-dən antiböhran tədbirləri keçirərək ölkənin böhranlı vəziyyətini müzakirə etməkdədir. Artıq bu mövzuda bir neçə tədbir keçirilib. Müzakirələr mətbuata qapalıdır. Toplantılarda səslənən fikirlər və təkliflərin hələ müzakirəsi gedir. Bununla bağlı yaradılan İşçi Qrupun çoxsaylı təklifləri müzakirə edərək sonunda hökumətə göndərməsi gözlənilir. Antiböhran kooalisiyasının sonuncu toplantısında ölkədə böhran masalarının yaradılması qərara alınıb.

**RÖYA**




# Texnologiya Universitetinin sabiq baş mühasibi İnterpol xətti ilə axtarışa verilib

**Azərbaycanda daha bir şəxs beynəlxalq axtarışa verilib. APA-nın İnterpolun saytına istinadən verdiyi məlumata görə, 1957-ci il təvəllüdlü Amil Mirzəyev mənimsəmə, israf etmə və vəzifə saxtakarlığında ittiham olunur.**

Azərbaycan hüquq-mühafizə orqanları A. Mirzəyev barəsində dövlətlərarası axtarış elan edib və saxlanılması üçün İnterpola müraciət olunub.

APA-nın əldə etdiyi məlumata görə, A. Mirzəyev Azərbaycan Texnologiya Universitetinin keçmiş baş mühasibi olub. O, 2015-ci ildə Maliyyə Nazirliyi tərəfindən universitetdə aşkar edilən mənimsəmə cinayətində təqsirləndirilir.

Belə ki, Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin 2015-ci ilin birinci yarısında aparılmış maliyyə nəzarəti tədbirlərinin nəticələri barədə yaydığı məlumata görə, Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən risklərin qiymətləndirilməsinin nəticələrinə əsasən tərtib olunmuş iş planına uyğun olaraq 2015-ci ilin birinci yarısında Azərbaycan Texnologiya Universitetinə dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə xərclənməsi işləri yoxlanılıb. Azərbaycan Texnologiya Universitetində aşkar olunmuş nöqsanların ciddiliyi nəzərə alınaraq həmin nəzarət obyektləri üzrə yoxlama materialları hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib.

## Ünvanlı sosial yardım almaq istəyənlərin işi asanlaşdı

**Ünvanlı dövlət sosial yardımının alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi ilə bağlı təsdiq edilən yeni qaydalar bu yardımın alınması üçün vətəndaşlara elektron şəkildə müraciət etmək imkanı verir.**

Bunu virtualaz.org saytına Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Elman Babayev bildirib.

Onun sözlərinə görə, prezidentin 23 fevral, 2015-ci il tarixli fərmanına əsasən, nazirlik tərəfindən ünvanlı dövlət sosial yardımı sisteminin avtomatlaşdırılmış icra mexanizminin yaradılması üçün mükəmməl proqram təminatları əsasında Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) yaradılıb.

Yeni qaydalara əsasən, ailələri təmsil edən şəxslərin ünvanlı dövlət sosial yardımının alınması üçün e-müraciətləri də VEMTAS tərəfindən qəbul ediləcək. Müraciətlərə baxılması üçün ailələrə dair məlumatlar "Elektron hökumət" portalı üzərindən aidiyyəti qurumların informasiya resurslarından elektron qaydada əldə ediləcək və məlumatlar ümumiləşdirilərək təhlil olunduqdan sonra sosial yardımların təyinatı da avtomatlaşdırılmış şəraitdə həyata keçiriləcək.

Bu qaydaların tətbiqi ilə bağlı nazirlik əməkdaşlarına seminarlar keçirilir. Təlim-seminarlardan sonra test tapşırıqları əsasında iştirakçıların bilik və bacarıq səviyyələrinin yoxlanılması işləri aparılıb.

Qeyd edək ki "Ünvanlı dövlət sosial yardımının alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları" Nazirlər Kabinetinin 2016-cı il, 5 fevral tarixli, 37 nömrəli qərarı ilə təsdiq edilib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 38 (6359) 18 fevral 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Müxalifətin "xalq özü ayağa qalxacaq" ümidi...

## "İslahatlar aparılsa, bu, ölkədə tamamilə yeni və əhalinin razı qaldığı situasiyanı yaradacaq"

**Manatın ikinci devalvasiyasından və ölkənin iqtisadi durumunun əvvəlik illərdəkindən aşağı düşməsindən sonra bir sıra müxalifət partiyalarının liderləri əminliklə deyirlər ki, xalq ayağa qalxacaq və böyük dəyişikliklər olacaq. Yəni onlar prosesə siyasi müxalifətin qatılmaması halında xalqla iqtidarın üz-üzə gələcəyini ehtimal edirlər. Bu əminlik və arxayınçılıq üçün əsaslar varmı, varsa, yetərlidirmi?**

**VİP sədri Əli Əliyev** bildirdi ki, belə qiymətləndirməyə birmənalı yanaşmaq olmaz. Ölkənin və regionun daxil olduğu siyasi mərhələ qeyri-standartdır. Odur ki, "xalq qalxacaq, hər iş dəyişəcək" yanaşması ən azı bir neçə səbəbdən düzgün deyil: "Əgər xalq özü vəziyyəti dəyişəcəksə, onda siyasilər bu cəmiyyətdə nəyə lazımdır? Xalqın təşkilatçılıqsız qalxması ölkəni xaosa, dövləti dağılmağa aparar. Ən təhlükəlisi odur ki, mütəşəkkil olmayan, kütləyə bənzər qüvvəni ya hakimiyyət əzəcək, ya da müxtəlif ünsürlər öz məqsədləri üçün istifadə edəcəklər.

Mən cəmiyyəti arxayın salmağın, ona reallığı deyil, eşitmək istədiyini deməyin əleyhinəyəm. Hesab edirəm ki, hər məsələ hakimiyyətin ziyanına birmənalı pis deyil. Əgər iqtidar komandası müxalifətin aşırı arxayınlığından, təkəbbüründən, pərakəndəliyindən kullanma şansı əldə etsə, özünə gəlmək üçün potensialını saxlayır.

Vəziyyəti olduğu kimi dəyərləndirmək mühümdür. Hakimiyyət müəyyən qədər zəifləyib. Bu, həm maliyyə-iqtisadi, sosial-siyasi və beynəlxalq sferalarda açıq nəzərə çarpır. Bütün müşküllər komandanın daxilindəki atmosferə də sirayət edir. Diqqətlə nəzər salınsa, komanda böhranı çox daxilə, hətta qohumluq, dostluq bağlarına təsir göstərib".



**Ə.Əliyev qeyd etdi ki, iqtidar komandası bir iqtisadi üslubdan digərinə transfer etməyə cəhd göstərir:** "Neft bazarında pozitiv dəyişiklik proqnozlaşdırılmır. Ən başlıcası isə iqtidarın 2 nəhəng və əsas lobbistləri-Rusiya və Türkiyə ciddi ikitərəfli münaqişə içində olması ilə yanaşı, dünya ilə də kofrontasiyaya giriblər. Belə şəraitdə müxalifət şəxsi ambisiyalarından imtina etməli, təşkilatlanmalı, hərəkatlaşmalı, hakimiyyəti kənarlaşdırmaq məqsədi ətrafında birləşməlidir. Dövlət müstəqilliyinin bərpası mübarizəsində belə nümunəmiz mövcud olub. Düzdür, şərtlər xeyli dəyişib, lakin ümidsiz də deyil. Düzgün, təcrübə və reallıqlardan törəyən addımlar atılmazsa, müxalifətin qələbəsini görmürəm. Bu kontr-ssenaridə ya hakimiyyət yerini möhkəmləndərəcək, ya da sosial narazılıqlar və xarici təxribatlar nəticəsində dövlətimiz çox böyük təhlükə ilə üz-üzə qala bilər".

**Müstəqil siyasi şərhçi Natiq Miri isə hesab edir ki, ölkədə sosial etirazları ortaya çıxaracaq problemlər var. Bəzi müxalif dairələr, hər halda, buna əsaslanaraq o cür ümidli açıqlamalar verirlər. Lakin unutmaq lazım deyil ki, hakimiyyət tərəfindən də kontur-tədbirlər görülür:** "Ölkə başçısı səviyyəsində bəyan edilib ki, postneft dövrünə uyğun ciddi proseslərə start verilib, islahatlara başlanıb və islahatlar bütün sahələri əhatə edəcək. Bu, yeni bir situasiya deməkdir. Liberal iqtisadi islahatlar aparılması məcburiyyəti yaranıb. Bu, islahatlar narazılıqları azalda bilər. Amma tamamilə aradan qaldırması üçün paralel olaraq ciddi siyasi islahatlar da aparılmalıdır. İqtisadi və siyasi islahatlar paralel aparılsa, müxalifət düşərgəsinin xalqın ayağa qalxacağına ümid etməsi üçün əsas qalmayacaq. Bu ümidlər puç olacaq. Çünki bu islahatlar aparıldığı təqdirdə ölkədə tamamilə yeni və əhalinin razı qaldığı situasiya yaradacaq. Əslində belə situasiyanın yaranması müxalifətin də xeyrinədir. İqtisadi və siyasi islahatlar ciddi şəkildə və paralel olaraq aparılmadığı halda müxalifətin xalqın ayağa qalxacağına ümid etməsi üçün əsaslar yaranacaq. Odur ki, çox şey hakimiyyətin davranışlarından asılı olacaq".

❑ **E.SEYİDAĞA**

# Rəsul Quliyevin yayılan videosu aranı qarışdırdı...

## Sabiq spikerin fikirləri birmənalı qarşılanmayıb; ona qarşı münasibətdə ikitirəlik yaranıb

**ABŞ-da mühacirətdə yaşayan sabiq spiker Rəsul Quliyev sosial şəbəkələr vasitəsilə Azərbaycanda gedən proseslərlə bağlı videosu yayılıb. Video sosial şəbəkə istifadəçilərinin sabiq spikerə ünvanladıqları suallarla başlayır. Quliyev ayrı-ayrılıqda hər bir suala geniş şəkildə cavab verir.**



Rəsul Quliyev

Milli Məclisin keçmiş sədrinin suallara cavablarında səsləndirdiyi bəzi fikirlər geniş müzakirələrə səbəb olub. O bildirib ki, Azərbaycan xalqı üçün gərəkli bir siyasətçidir. Quliyev xalqı arxasınca aparaq liderin olmaması ilə bağlı suala cavab verərkən bildirib ki, lideri xalq müəyyən edir. Xalqın kimin arxasınca gedəcəyini də xalqın özünün müəyyən etdiyini sabiq spiker söyləyib. O, Azərbaycan xalqının ayağa qalxmağı acından ölməkdən üstün tutacağını qeyd edib.

R.Quliyevin tez-tez belə müraciətləri yayılır. Bu heç də cəmiyyət tərəfindən birmənalı qarşılanmır. Ona qarşı münasibətdə də ikitirəlik yaranıb. Bəzi ekspertlər onun liderlik keyfiyyətlərini yüksək dəyərləndirsələr də, bunun əksini düşünənlər də az deyil.

**ADP sədri Sərdar Cəlaloğlu Azərbaycandan kənarda yaşayıb, öz xalqını düşünən hər kəsi alqışladıqlarını bildirdi:** "Amerikada yaşamasına baxmayaraq, Azərbaycanla maraqlanırsa, biz bunu alqışlamalıyıq. O, kiçik adam deyil. Kifayət qədər nüfuzlu şəxsdir. Özünün elektoratı var. Bu elektorata əsasən, istənilən fikri söyləyə bilər. Liderlə bağlı onun fikirləri ilə razıyam. Lider təyin olunmur, o, hərəkatın içərisindən çıxır. Gedən proseslər öz liderini yetişdirir. Kimsə lider etməklə nəyəsə nail olmaq mümkün deyil. Proses olanda elə vəziyyət yaranar ki, lider gözündə gördüyümüz şəxs heç bir iş görə bilməz, tanımadığımız biri lider olar. Proses olandan sonra hər şey öz yerini tutacaq. Hazırda ölkəmizdə xalqı arxasınca apara biləcək çoxlu sayda lider var. Lider yoxdur deyə xalqı başsızlaşdırmaq olmaz. Xalqları öldürmək üçün ya liderlərini öldürürlər, ya da onların liderləri barəsində mənfi fikirlər formalaşdırırlar. Azərbaycanda da hazırda proseslər gedir. Hadisələrin gedişatında lider keyfiyyətləri olanlar önə çıxacaqlar. Heç zaman xalqımızın lider problemi olmayıb".

**Müsavat başqanının müavini Elman Fəttah Rəsul Quliyevin videosu barədə daha sərt danışdı:** "Rəsul Quliyev siyasi səhnədə yoxdur. Onu görmürəm. Allah canını sağ eləsin. Allah ona ömür versin. Onun Azərbaycan haqqında düşünməyinin yeri yoxdur. Rəsul Quliyev Azərbaycana, xalqımıza ziyandır. Ölkəmizdəki siyasi proseslərə də ziyandır. Əgər istəyir ki, xalqımıza kömək eləsin, o zaman buradakı proseslərə münasibət bildirməsin. Ümumiyyətlə, Bakını yadından çıxarsın. O, Azərbaycana zərərli amildir, faydalı adam deyil".

❑ **Cavanşir ABBASLI**

# Ac aslan qədər mərhəmətli olmayana insan deyilməz



**Xalid KAZIMLI**

**İnternet resurslarında heyvanlar aləminə dair populyar videolar var, onlardan biri azı yüz min dəfə paylaşılıb. İbrətamiz videosüjetdir. Kadrlarda bir at balası - körpə qulun görünür, bir yetkin və ac aslan onu bir azca qovub tutur, parçalamaq istəyəndə hələ çox körpə olduğunun fərqinə varır, quluna dəymir, pəncəsi ilə başını sığallayır. Bu əsnada başqa ac aslanlar yaxınlaşırlar və əllərinə düşmüş körpə şikarı yemək istəyirlər. Ancaq mərhəmətli aslan bu təzə-təzə oynaqlayan at balasının didilməsinə imkan vermir, onu müdafiə edir və təhlükəsiz yerə qaçmasını təmin edir.**

Bu videoya baxanda mərhəmət hissinin təkcə insana xas olmadığını anlayırsan. Demək, bu nəcib duyğu şüursuz hesab etdiyimiz heyvanlarda da var. O cür heyvanlara baxanda ali şüura malik insanın yersiz amansızlığı, lüzumsuz qəddarlığı, vəhşiliyi heyrət doğurur.

Necə olur ki, bir heyvan öz növündən, fəsiləsindən olmayan başqa bir heyvanı sırf körpə olduğuna görə bağışlayır, ona şikar gözü ilə baxmır, ancaq ağıllı-kamallı insan öz körpə balasının canına qıyır?

Bunu tibb elmi (psixiatriya) belə izah edə bilməz. Burada artıq nə ali şüurdan, nə nəcib duyğulardan söhbət gedə bilməz. Bu, güman ki, cürbəcür ruhi xəstəliklərin yeni növüdür - nəsə sonradan qazanılmış sindromdur.

Beyləqanda baş verən hadisə - atanın öz körpə oğlunu qətlə yetirməsi həmin sonradan qazanılmış sindromun, hansısa psixi pozğunluğun nəticəsi olmalıdır. Bunu yapan adama heç cür ağıllı, hətta yarımağıllı da demək olmaz. Normal insan öz qatı düşməninin körpə balasına qıya bilmir, o da ola öz canından, qanından olan ciyərparasına əl qaldırsın. Mümkün deyil.

Yəqin ki, uzun illərin içki düşkünlüyü oğul qatilinin beynini o dərəcədə xarab edib, o dərəcədə məhv edib ki, o, anlaqlılığını itirib. Nifrət onun gözünü o qədər tutub, bir damcı qalmış beynini o şəkildə dumanlandırıb ki, o məxluq hiddətini cilovlaya bilməyib və çox amansız bir əmələ qol qoyub.

Düzdür, tarixdə öz övladlarını qətlə yetirən yüzlərlə, minlərlə məşhur və sıravi adamlar olub, günümüzdə də var. Ancaq onların hamısının bir motivi olub, bu vəhşət dolu qətli həyata keçirərkən bəlli bir məqsəd güdüblər. Məsələn, dünənə qədər "adil Osmanlı hökmdarı Qanuni Sultan Süleyman" deyə öyülən padşah sırf varisinin hakimiyyətinin təhlükəsizliyi naminə öz körpə nəvələrini (1-7 yaş arası) boğdurub. Ancaq bu fakt bütün faciəvi detalları ilə geniş ictimaiyyətə məlum olandan sonra ona münasibət xeyli dəyişdi. İndiyədək adamlar bu tarixi fakta statistika prizmasından yanaşırmışlar, amma körpə uşaqları əsir-yesir edilən, edama götürülən şahzadə Bəyazidin yaşantılarının nümayiş etdirilməsi tarixi hadisənin faciəviliyini bariz şəkildə göstərdi. Hətta məşhur filmin yaradıcıları Sultan Süleymanın reputasiyasını xilas etmək üçün onun həyata keçirdiyi bənzər qətllərin, daha pis qəddarlıqlarının üstündən keçdilər.

Bəli, dünya binnət olandan bəri övlad qətli hər zaman lənətlənib - səbəbinin nə olmasından asılı olmayaraq.

Günümüzdə də belədir. Bu gün qardaşın qardaşı, qardaşın bacını qətlə yetirməsinə bu və ya digər şəkildə izah verənlər, haqq qazandıranlar tapılır, amma övladın valideyni, valideynin övladı qətlə yetirməsi bütün hallarda heyrət, hiddət doğurur.

Bəzən belə müdhiş qətllərdən söhbət düşərkən günahkar, cavabdeh axtarışına çıxır, gəlib dövləti, cəmiyyəti məsul tuturlar. Dolayısı ilə bəlkə də bu məsələdə dövlətin, cəmiyyətin, hökumətin məsuliyyət payı var, amma öz iradəsi ilə özünü alkoqolun, narkotik maddələrin quluna çevirmiş, psixikası pozulmuş insanların qarşısını almaq mümkün deyil. Belələri dünyanın ən yüksək rifahlı ölkələrində də var. Məsələn, 77 nəfəri (70-ə yaxını yeniyetmə) yarım saatın içində güllələyib öldürən norveçli Breyvikin vaqiəsini xatırlayaq. Adamın heç bir maddi problemi yox idi, amma o cür qəddarlıq etdi.

İndi çoxları deyir: belə də ata olarmı? Əlbəttə, olmaz. Beyləqanlı qatil nəinki ata, heç insan da adlana bilməz. O, bir canavardır.

İlan başı üzərindən atılan gülləyə necə sıçrayırsa, əsl ata da oğluna atılan güllənin önünə o cür atılmalıdır, bircə saniyə tərəddüd edirsə, demək, ya qorxaqdır, ya da əclafdır.

YENİ MÜSAVAT
N 38 (6359) 18 fevral 2016

# Müstəqilliyə gedən yolda 19 fevral tarixi

## Sabir Rüstəmxanlı: "Həmin gün qarşısıalınmaz birliyin bayramı idi"


Sabir Rüstəmxanlı

**Azərbaycanda milli azadlıq hərəkatının başlandığı günlərdən 28 il ötür. Noyabrın 17-si Milli Dirçəliş Günü kimi ölkəmizdə qeyd olunsa da, əslinə qalsa, proseslər 1988-ci il fevralın 13-də Dağlıq Qarabağ münaqişəsinin başlanması ilə start götürdü. Həmin gün ermənilərin Xankəndində keçirdikləri mitinqlə başlayan proseslər artan xətlə inkişaf etdi.**

Ermənilərin separatçılığına cavab olaraq, 1988-ci il fevralın 19-da Bakıda ilk etiraz mitinqi keçirildi. Nümayiş iştirakçıları "Qarabağ bizimdir!" şüarlarını səsləndirdilər. Məhz bu aksiyanın fonunda Bakıda və Dağlıq Qarabağa yaxın rayonlarda başlayan kütləvi aksiyalar sonda xalq hərəkatına çevrildi. SSRİ rəhbərliyinin ermənilərə dəstək verməsi xalq hərəkatının alovlanmasına və nəticədə Azərbaycanın müstəqil olmasına səbəb oldu.

Fevralın 19-dan sonra hadisələrin yüksək xətlə cərəyan etdiyini görən SSRİ rəhbərliyi ermənilərin də iştirakı ilə Sumqayıt hadisələrini təşkil etdi. Ermənilərin Sumqayıt hadisələrinin azərbaycanlıların tərəfindən törədilməsi cəhdləri heç bir nəticə vermədi. Başlanan xalq hərəkatının qarşısını almaq üçün aparılan siyasət sonda məğlubiyyətlə nəticələndi.

**Həmin dövrdə xalq hərəkatının liderlərindən sayılan VHP sədri Sabir Rüstəmxanlı 28 il öncənin fevral hadisələrini belə xatırlayır:** "19 fevral mitinqi geniş şəkildə qeyd olunmalıdır. Bu aksiya sonrakı dövr proseslərinə ciddi təsir etdi. O vaxt yadıma gəlir ki, Həsən Həsənov Mərkəzi Komitədə ideoloji şöbənin katibi idi. Onunla yaxşı münasibətlərimiz var idi. Tez-tez görüşürdük. Bir dəfə o mənə Almaata hadisələri ilə bağlı dedi ki, Azərbaycana da rus katibi gəlsə, xalq etiraz edər? O zaman geniş əlaqələrim var idi. Zavodlarda, kitablarımın müzakirələrində 1000 nəfərdən çox insanla görüşlərim olurdu. Həsən Həsənova dedim ki, sizi bilmirəm, amma mən 5 min nəfər çıxara bilərəm.

Bakıda birdən-birə bu qədər kütlənin meydana çıxması hamı üçün gözlənilməz oldu. Həmin vaxt Dağlıq Qarabağla bağlı proseslər gedir, Xankəndində tez-tez mitinqlər keçirilirdi. SSRİ rəhbərliyi səviyyəsində, eləcə də rəsmi mətbuatda Qarabağın Ermənistana aid olması ilə bağlı fikirlər səslənirdi. Buna görə də xalqımız çarəsiz qalıb meydanlara çıxmışdı. O mitinqdə bayram əhval-ruhiyyəsi var idi. "Qarabağ bizimdir!", "Qarabağ Azərbaycanındır" kimi çağırışlar səslənirdi. Həmin gün qarşısıalınmaz birliyin bayramı idi. Meydana çoxsaylı kütlə girmişdi. Bir sıra çıxışlardan sonra xalq dağıldı. Nəticə etibarı ilə 19 fevral mitinqi müstəqilliyə gedən yolları açdı".

**S.Rüstəmxanlı Sumqayıt hadisələrinə də toxundu:** "Sumqayıt hadisələri köhnə ssenari ilə törədilmişdi. 1905-1907-ci illərdə Bakıda bu tərzdə erməni-müsəlman davası salınmışdı. 1918-ci ildə də eyni hadisələr təşkil olunmuşdu. Azərbaycan və digər ölkələrdə gedən milli azadlıq mübarizələrinin qarşısını almaq üçün bu siyasətə əl atılmışdı. Rusların silahlandırdıqları ermənilər silahsız azərbaycanlılara qarşı qırğınlar təşkil etmiş, hətta soyqırım törətmişdilər. Bu, böyük dövlətlərin, o cümlədən rusların köhnə siyasətləridir. Mərkəzdəki problemləri həll edə bilməyəndə əyalətlərdəki xalqları bir-birinə qarşı qoyurlar. Sumqayıt hadisələri əvvəlcədən planlaşdırılmış, bu plana uyğun şəkildə həyata keçirilən hadisə idi. Qarabağın Azərbaycan torpağı olması ruslar gələnə qədər heç vaxt sual doğurmayıb. Zəngəzurun özü heç vaxt erməni torpağı olmayıb. İrəvan əhalinin tərkibi baxımından belə erməni şəhəri heç zaman sayılmayıb. Bu münaqişələri bilə-bilə təşkil ediblər. 1923-cü ildə xalqın rəyi alınmadan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Bu, bir neçə ildən sonra törədiləcək münaqişələrin başlanğıcı idi. Qərbi Azərbaycandan köçürülən azərbaycanlılar qəsdən Sumqayıt və Bakıda yerləşdirilirdi. Bilirdilər ki, Sumqayıt hadisələri törədiləcək. Ona görə də qabaqcadan kameralar gətirilmişdi, məqalələr yazılmışdı. Azərbaycanlıların ermənilərə dözümsüz yanaşdıqları barədə dünyaya mesaj vermək üçün belə çirkin oyunlar oynadılar. Bunların üstü sonralar açıldı".

❑ Cavanşir ABBASLI

# "Atəşkəs" filminin təqdimatı keçirildi

## Əli Həsənov: "Çox təəssüf ki, bəşəriyyət qanlı Xocalı faciəsinə şahidlik etdi və susdu"

## Azay Quliyev: "Bu film bir sülh mesajıdır"

**Fevralın 17-də "Nizami" Kino Mərkəzində Qarabağ həqiqətlərindən bəhs edən "Atəşkəs" filminin təqdimatı keçirildi. Təqdimatda prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, millət vəkilləri, ölkəmizdə fəaliyyət göstərən bir sıra səfirliklərin və beynəlxalq təşkilatların nümayəndələri, eləcə də media təmsilçiləri iştirak edib.**



Musavat.com-un verdiyi xəbərə görə, tədbiri giriş sözü ilə Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev açıb. O qeyd edib ki, "Atəşkəs" filmi Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə BAMF və Macar Turan Fondunun həyata keçirdiyi layihə çərçivəsində hazırlanıb. Bildirib ki, filmin əsas qayəsini Qarabağ müharibəsinin törətdiyi acı nəticələr, Xocalı faciəsi təşkil edir.

Çıxışdan sonra tədbir iştirakçıları həlak olanları bir dəqiqəlik sükutla yad edib. Ardınca film təqdim olunub.

Məlumat üçün bildirək ki, sənədli film "İşğalın qurbanı" layihəsi çərçivəsində Macar və Azərbaycan jurnalistlərinin Qarabağ həqiqətlərindən bəhs edən ilk birgə işidir. Filmdə Cənubi Qafqaz regionunda Ermənistanın Azərbaycana qarşı təcavüzünün qeydə alındığı tarixi mərhələlər, Dağlıq Qarabağ münaqişəsinin yaranma tarixi, o cümlədən Azərbaycanın Cənubi Qafqazın aparıcı dövlətlərindən biri kimi tarixi-mədəni irsi, ənənələri yer alıb. Azərbaycanın tarixən üzləşdiyi ədalətsizliklər, erməni qırğınları filmin əsasını, leytmotivini təşkil edir. Ekran əsərində macar, alman, fransız, amerikalı ekspertlərin münaqişənin həlli ilə bağlı fikirləri, rəyləri və münaqişə qurbanlarının, şahidlərin ifadələri əks olunur.

Qarabağ həqiqətlərindən bəhs edən filmdə Azərbaycanın müasir tarixinə dair faktlar, eləcə də torpaqlarımızın işğalı nəticəsində doğma yurdlarından köçkün düşən insanların acı həyatı öz əksini tapıb. Filmdə işğaldan əvvəl Dağlıq Qarabağda azərbaycanlıların həyat tərzi, Şuşada keçirilən toy mərasimindən ilk dəfə olaraq unikal kadrlar da istifadə olunub.

Filmin təqdimatından sonra Macar Turan Fondunun sədri Biro Andras Szolt çıxış edib. O bildirib ki, macarlar olaraq Azərbaycan xalqının faciələrini, həqiqətlərini sənədli filmdə toplayaraq dünyaya çatdırılmasını üzərinə götürdükləri üçün qürur duyur.

**Sonra isə QHT Şurasının sədri, deputat Azay Quliyev çıxış edib:** ""Atəşkəs" filmi sözün bitdiyi yerdir. Deməyə belə söz tapmıram. Çünki film özlüyündə mənim demək istədiklərimi söylədi. Filmdə əməyi olan Macar Turan Fondunun sədri Biro Andras Szolta, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyevə, Prezident Administrasiyasının İctimai-siyasi şöbəsinin müdiri Əli Həsənova təşəkkürlərimi bildirirəm. Filmdə dünya vətəndaşının çağırışını görürəm. Bu film bir sülh mesajıdır. Bu faciənin dünyaya çatdırılmasında ələlxsus bizə kömək olan prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənova minnətdarlığımı bildirirəm. Bu cür faciələrin dünyada tanıdılmasında Əli müəllimin ilk xidməti deyil".











**Daha sonra prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxış edib. O qeyd edib ki, Xocalı faciəsi haqqında həqiqətləri yalnız son illərdə Azərbaycanın öz səyi sayəsində dünyaya çatdırmaq mümkün olub:** "Çox təəssüf ki, bəşəriyyət qanlı Xocalı faciəsinə şahidlik etdi və susdu. Xocalı faciəsi 26 fevral 1992-ci ildə törədilməsinə baxmayaraq, bu haqda həqiqətləri, real faktları, törədilmiş faciənin ümumi əhatəsini, bir xalqa qarşı törədilmiş etnik soyqırımın bütün dəhşətlərini Azərbaycanın səyi, xarici tərəfdaşlarımızın iştirakı ilə yalnız son illərdə dünyaya çatdıra, faciəyə real qiymət verilməsinə nail ola bilmişik".

**Ə. Həsənov bildirib ki, Heydər Əliyev hakimiyyətə qayıdana qədər - 1992-1993-cü illərdə Xocalı, 20 Yanvar qırğınlarına və digər hadisələrə Azərbaycanda siyasi maraqlar çərçivəsində yanaşılıb, baş verənlərə real qiymət verilməyib:** "Bu faciənin əsl səbəbkarlarının adı çəkilməmişdi, hadisəni törədənlərin məqsədi bəşəriyyətə və Azərbaycan xalqına çatdırılmamışdı. Yalnız 1993-cü ildə ümummilli lider hakimiyyətə qayıdandan sonra Azərbaycan xalqına qarşı törədilmiş hadisələr özünün real və hüquqi qiymətini aldı. Eyni zamanda Azərbaycan dövlətinin ixtiyarında olan daxili, xarici resurslar vasitəsilə bu faciə xarici ölkələrə çatdırıldı. Son 5 ildə bu iş daha intensiv həyata keçirilir. Xocalıda yaşananları Azərbaycan prezidentinin xüsusi proqramına uyğun olaraq, Prezident Administrasiyası, Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, diaspora strukturları, o cümlədən Heydər Əliyev Fondu, fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə aparılan "Xocalıya ədalət" kampaniyası çərçivəsində bütün dünyaya çatdırılır. Biz dünyaya 26 fevralda Xocalıda hansı hadisələrin yaşandığını, bunun təməlində nəyin dayandığını çatdırmaq istəyirik.

**Əli Həsənov Azərbaycan prezidenti İlham Əliyevin dəfələrlə beynəlxalq tribunalardan Ermənistan-Azərbaycan münaqişəsi, Dağlıq Qarabağ problemi və onun fəsadlarına qiymət verdiyini xatırladıb:** "Dövlət başçısı Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və sivil dünyaya meydan oxuyaraq bu gün bəşəriyyətin iradəsinə qarşı çıxması tendensiyasını dünyaya çatdırıb.

BMT-nin 4 qətnaməsini Ermənistan neçə illərdir ki, həyata keçirmir. Bu nə deməkdir? Bu o deməkdir ki, BMT və dünya birliyi həqiqət axtarışlarına hələ də lazımi dəstək verə bilmir. Bu o deməkdir ki, BMT hələ də öz funksiyalarını sona qədər yerinə yetirib, xalqların, dövlətlərin, millətlərin bu təşkilata etimad üzərində qurulmuş dünya idarəçilik sistemini lazımi səviyyəyə qaldıra bilmir. Bu o deməkdir ki, BMT-nin də bilavasitə iştirakı ilə yaranmış Minsk Qrupu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə ikili standartlar çərçivəsindən yanaşaraq, haqqı haqq, nahaqqı nahaq kimi dəyərləndirə bilmir. Bütün bunların nəticəsidir ki, 24 ildir biz Dağlıq Qarabağ faciəsinin nəticələrini aradan qaldıra, öz yurd-yuvasından didərgin salınmış Azərbaycan vətəndaşlarını geri qaytara, Cənubi Qafqazda sülhə, barışa nail ola bilmirik. Bunun da fəsadları bölgəni, Avropanı və dünyanı bürüyüb".

Çıxışından sonra Əli Həsənov filmə görə Macar Turan Fondunun sədri Biro Andras Szoltu və Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyevi diplomlarla təltif edib.

Filmin direktoru Qabon Szabo, rejissoru Erik Boqnardır. Film Macar Turan Fondunun sədri Andras Bironun ssenarisi əsasında çəkilib.

"Atəşkəs" filmi ilk olaraq 2015-ci il dekabrın 8-də Macarıstanın paytaxtı Budapeşt şəhərində nümayiş olunub. Yaxın vaxtlarda filmin Avropanın müxtəlif ölkələrində nümayiş olunması planlaşdırılıb.

❑ Xalidə GƏRAY

**Prezident İlham Əliyev fevralın 16-da və 17-də Tovuzda və Gəncədə bir sıra obyektlərin açılışını edib, ictimaiyyət qarşısında çıxış edib. Prezident fevralın 17-də Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanış olub.**





# "O ölkələrin bərpası bundan sonra mümkün olmayacaq"

## Prezident İlham Əliyev Gəncədə mühüm açıqlamalar verdi:

## "Heç bir ölkəyə imkan verməyəcəyik ki, daxili işlərimizə qarışsın"

Dövlət başçısı 2012-ci il yanvarın 21-də Gəncədə olarkən Dövlət Filarmoniyası binasının təməlini qoymuşdu. Məlumat verilib ki, burada 1200 tamaşaçı yeri olan konsert zalı, açıq havada yay kinoteatrı, rəsm qalereyası, urban mərkəzi, baxış qülləsi yaradılacaq. Binada iaşə obyektləri, həmçinin yeraltı qaraj və yardımçı xidməti otaqlar fəaliyyət göstərəcək. Binanın fasadında Azərbaycanın musiqi korifeylərinin heykəlləri qoyulacaq.

İlham Əliyev daha sonra Gəncədə Azərbaycan Dövlət Aqrar Universitetinin tələbə yataqxanasının açılışında iştirak edib.

Bundan başqa, dövlət başçısı Gəncəyə səfəri çərçivəsində 35/6 kV-luq "Nizami" yarımstansiyasının açılışında iştirak edib.

"APA-Economics" xəbər verir ki, ölkə başçısına məlumat verilib ki, Gəncənin böyük bir hissəsinin elektrik təchizatının yaxşılaşdırılması, eləcə də ərazidə elektrik enerjisinə artan tələbatın ödənilməsi, 35 kV-luq elektrik şəbəkələri ilə əlaqələndirilməsi məqsədilə 35/6 kV-luq "Üzgüçülük" yarımstansiyanın yerində müasir tipli tam qapalı 35/6 kV-luq 2x10 MVA gücündə yeni "Nizami" yarımstansiyası tikilib. Yarımstansiyanın tikintisinə 2015-ci ilin aprelində başlanılıb. Yeni yarımstansiya 6 mindən çox abonentin elektrik enerjisi ilə təminatını daha da yaxşılaşdıracaq. Ümumi sahəsi 1700 kvadratmetr olan yarımstansiyada 35/6 kilovoltluq 10 MVA gücündə iki transformator və 35/6 kilovoltluq Almaniya istehsalı olan avadanlıq quraşdırılıb.

Burada həm də Gəncə Şəhər Elektrik Şəbəkəsinin inzibati binası yerləşir. Yarımstansiyada və inzibati binada 80-ə yaxın işçi çalışacaq.

Prezident İlham Əliyev yarımstansiyanı işə salıb.

***

**"Müstəqillik illərində Azərbaycanda yüzlərlə məscid tikilib, bütün dini abidələr yenidən qurulur və dövlət tərəfindən qorunur. Ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənir, cəmiyyətin inkişafı üçün bu münasibətlər böyük əhəmiyyət kəsb edir".**

**APA-nın məlumatına görə, bunu Azərbaycan prezidenti İlham Əliyev Gəncədə "İmamzadə" dini kompleksində ictimaiyyət nümayəndələri və din xadimləri ilə görüşdə deyib.**

**Azərbaycanın müsəlman aləmində həmrəyliyin əldə olunmasına çalışdığını deyən dövlət başçısı son illər dünyada baş verən hadisələrin təəssüf doğurduğunu deyib:** "Əfsuslar olsun ki, müsəlman aləmində vəziyyət son vaxtlar o qədər də ürəkaçan deyil. Ənənəvi ziddiyyətlərə yeni ziddiyyətlər, yeni qarşıdurmalar əlavələr olunub. Bu bizi çox narahat edir. Azərbaycan müstəqillik dövründə həmişə çalışıb ki, müsəlman aləmində birlik, həmrəylik daha da möhkəmlənsin. Bu məqsədlə ölkəmizdə müxtəlif tədbirlər keçirilib. İƏT-in, İSESCO-nun xətti ilə tədbir keçirilib. Bu gün müsəlman aləmində, müsəlman aləminin bütün seqmentlərində Azərbaycan və onun siyasəti çox böyük rəğbətlə qarşılanır. Azərbaycanın dinlərarası münasibətlərdə oynadığı rol bütün müsəlman aləmində yüksək qiymətləndirilir".

**Dövlət başçısı ölkədə bütün dinlərin nümayəndələrinin bir ailə kimi yaşadığını, son illər Bakıda keçirilən beynəlxalq forumların, tədbirlərin dünyada mədəniyyətlərarası və dinlərarası əlaqələrin inkişafında mühüm rol oynadığını bildirib:** "Son illər dünyada, xüsusilə Yaxın Şərqdə xarici müdaxilədən əziyyət çəkən insanlar canlarını qurtarmaq üçün böyük əziyyətlərə qatlaşaraq, təhlükələrlə üzləşərək Avropaya üz tuturlar. Orada isə onlara qarşı bəzi hallarda nalayiq hərəkətlər edilir, şəxsiyyətləri alçaldılır".

Azərbaycanın da ötən əsrin 90-cı illərinin əvvəllərində humanitar fəlakətlə üzləşdiyini, 1 milyona yaxın insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü deyən prezident ölkəmizin bu böhranın öhdəsindən təkbaşına gəldiyini diqqətə çatdırıb.

Dövlət başçısının sözlərinə görə, bu gün müşahidə olunan immiqrant probleminin digər tərəfi Avropada radikal meyllərin artması ilə bağlıdır ki, bu da özlüyündə dinlərarası münasibətlərdə böhrana gətirib çıxara bilər.

**2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edildiyini deyən prezident İlham Əliyev keçən il Bakıda Avropa oyunlarının, gələn il isə İslam Həmrəyliyi Oyunlarının keçiriləcəyini deyib:** "Bütün bunlar bölgədə və dünyada sabitliyə töhfə verib. Biz öz yolumuzla gedirik, başqa ölkələrin daxili işinə qarışmırıq və belə bir fikrimiz də yoxdur. Heç bir ölkəyə imkan vermirik ki, verməyəcəyik ki, daxili işlərimizə qarışsın. Nə qədər bizə təzyiqlər və təhdidlər olsa belə, biz bu yoldan dönməyəcəyik. Ona görə biz öz sözümüzü deyirik. Harada vəziyyətin ağır olduğunu görürük, sözümüzü deyirik, yol göstəririk, öz nümunəmizi təklif edirik. Sadəcə, kimisə tənqid etmək üçün hansısa fikirləri səsləndirmirik. Deyirik ki, baxın, bu məsələ Azərbaycanda necə həll olunub. Niyə Azərbaycanda bu mümkündür? Niyə Azərbaycanda xalq vahid ideya, amal uğrunda birləşə bilir? Niyə başqa ölkələrdə süni səbəblər üzündən bir-birini öldürür, qanını tökürlər? Yaxın Şərqdə vuruşanların əksəriyyəti anlamır, bilmir ki, kimin tərəfində vuruşur, kimin maraqlarını müdafiə edir. Qardaş qanı axıdırlar, şəhərləri dağıdırlar. Elə günə salırlar ki, o şəhərlərin bərpası, o ölkələrin bərpası bundan sonra mümkün olmayacaq. Niyə görə? Çünki təbliğat, xarici təsir və hakimiyyətlərin zəifliyi var. Harada hakimiyyət möhkəmdir, xalqla bir yerdədir, heç bir kənar qüvvə bu hakimiyyətin iradəsinə təsir edə, hakimiyyəti heç bir avantüraya çəkə bilməz. Bir də demək istəyirəm, Azərbaycan o ölkələrdəndir ki, öz sözünü deyir, öz siyasətini aparır. Bizim gücümüzün mənbəyi də Azərbaycan xalqıdır".

### "Sahibkarlığın inkişafı üçün Azərbaycanda bütün şərait var"

**"Sahibkarlığın inkişafı üçün Azərbaycanda bütün şərait var". Bunu prezidenti İlham Əliyev Gəncədəki görüşlərdən öncə Tovuz rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə deyib:** "Dövlət isə öz tərəfindən əlavə tədbirlər görəcəkdir. Xüsusilə xaricə ixrac edilən məhsullara təşviq sistemi tətbiq olunacaq. Məhsulu xaricə satan sahibkar dövlət tərəfindən vəsait alacaqdır ki, bu işə daha da həvəs göstərsin, daha da keyfiyyətli məhsul yetişdirsin və ölkəmizə valyuta gəlsin. Çünki bizim əsas valyuta mənbəyimiz neft və qazdır, bu da azalıbdır. Ona görə biz gərək qeyri-neft sektoru hesabına ölkəmizə valyuta axınını təmin edək və bu sahədə əlbəttə ki, kənd təsərrüfatı birinci yerdədir".

### "Məhsulu xaricə satan sahibkar dövlət tərəfindən vəsait alacaq"



**"Biz neftin qiymətinin minimum səviyyəsi - 25 dollar səviyyəsi ilə lazım olan bütün sosial və investisiya layihələrini icra edəcəyik"**

**Kənd təsərrüfatı neft və qazdan sonra bizim əsas ixrac məhsulumuz olmalıdır və olacaq. İlham Əliyev Tovuzçay su anbarının açılışında Tovuz rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı bildirib ki, su olan yerdə kənd təsərrüfatı da inkişaf edəcək:** "Bizim əsas arzumuz ondan ibarətdir ki, bütün bölgələrdə kənd təsərrüfatı daha da sürətlə inkişaf etsin. Çünki kənd təsərrüfatının inkişafı iş yerlərinin açılması, yerli istehsalın yaradılması deməkdir".

**Dövlət başçısı kənd təsərrüfatının inkişafı üçün iki layihənin - Taxtakörpü və Şəmkirçay su anbarlarının icra edildiyini xatırladaraq, dövlətin bu sahəyə investisiya qoymaqla bir neçə məqsəd güddüyünü vurğulayıb:** "İlk növbədə, bunlar su ehtiyatlarımızdan səmərəli istifadə etmək üçün çox önəmli layihələrdir. Su təhlükəsizliyi məsələləri burada öz həllini tapır. Bu da Azərbaycan kimi xarici su mənbələrindən daha çox asılı olan ölkə üçün xüsusi əhəmiyyət kəsb edir. Biz su ehtiyatlarımızdan maksimum səmərə ilə istifadə etməliyik. Eyni zamanda kənd təsərrüfatının sürətli inkişafı bundan sonra da təmin olunacaq".

"Keçən il kənd təsərrüfatı 6 faizdən çox artıb və ümid edirəm ki, bu il də sürətlə artacaq. Bütün bölgələrdə ixtisaslaşma aparılmalıdır. Tovuz rayonunun ənənəvi kənd təsərrüfatı məhsulları var. Onların inkişafı, yeni əkin sahələrinin yaradılması, xüsusilə üzümçülüyün inkişafı mühüm əhəmiyyət daşıyır. İnsanların yaşayış səviyyəsi yaxşılaşacaq. Biz öz ərzaq təhlükəsizliyimizi təmin edəcəyik. Bizim əsas vəzifəmiz nəinki özümüzü bütün ərzaq məhsulları ilə təmin etməkdir, eyni zamanda, xarici bazarlara da keyfiyyətli məhsulla çıxmaqdır. Bu istiqamətdə önəmli addımlar atılır. Tovuzçay su anbarının istismara verilməsi onların arasında xüsusi yer tutur", deyə prezident qeyd edib.

**Prezident 2016-cı ilin Azərbaycanda sosial-iqtisadi inkişaf baxımından uğurlu il olacağına dair əminliyini ifadə edib:** "Dünya iqtisadiyyatı böhran içindədir, böhran davam edir. Bu ilin əvvəlində iştirak etdiyim beynəlxalq iqtisadi və təhlükəsizlik forumlarında mənim əldə etdiyim nəticə ondan ibarətdir ki, bu böhranın hələ sonu görünmür. Bölgəmizdə iqtisadi böhran, bəzi hallarda hərbi və siyasi böhran yaşanır. Azərbaycan isə sabitlik məkanıdır, inkişaf ölkəsidir. Baxmayaraq ki, gəlirlərimiz əhəmiyyətli dərəcədə azalıb, ancaq biz daha da səmərəli işləməliyik. Əminəm ki, biz xüsusilə aqrar, emal, sənaye sektorlarının inkişafı hesabına iqtisadi yüksəlişə nail olacağıq. Əminəm ki, 2016-cı il ölkəmiz üçün uğurlu olacaq. Büdcəyə dəyişiklik olunacaq və biz neftin qiymətinin minimum səviyyəsi - 25 dollar səviyyəsi ilə lazım olan bütün sosial və investisiya layihələrini icra edəcəyik".

"Neftin qiyməti dörd dəfə düşmüşdür. Əlbəttə ki, bu, neft hasil edən ölkələr üçün böyük sınaqdır. Ancaq təbii resurslara malik olmayan ölkələr də çətinlik çəkir. Çünki onlar üçün ənənəvi bazarlar indi onların məhsulunu əvvəlki illərdəki kimi ala bilmir. Əlbəttə ki, neftin qiymətinin düşməsi təbii resurslarla zəngin olmayan ölkələri də narahat edir. Ona görə, mən hesab edirəm ki, biz artıq öz iqtisadi inkişafımızı ancaq qeyri-neft sektorunun əsasında qururuq və qurmalıyıq.

Belə olan halda biz istənilən böhrandan üzüağ çıxacağıq və ölkəmizin uğurlu, dayanıqlı inkişafı təmin ediləcək. Ona görə indiki dövrdə xüsusilə sahibkarlığın inkişafı, əsaslı islahatların dərinləşməsi prioritet məsələlərdir. Keçən ilin sonundan və bu ilin əvvəlindən müəyyən edilmiş yeni islahatlar, əminəm ki, yaxın zamanlarda öz sözünü deyəcək", deyə İlham Əliyev qeyd edib.

**Dövlət başçısı qeyd edib ki, Azərbaycanda bütün maliyyə, iqtisadi mexanizmlər dünyanın aparıcı ölkələrinin təcrübəsinə əsaslanmalıdır:** "Maliyyə və iqtisadi sektorun inkişafı imkan verəcək ki, biz neftin qiymətindən asılı olmayaq. Bizim əsas vəzifəmiz bundan ibarətdir. Regionların inkişafı, əlbəttə ki, burada əsas rol oynayır. 2004-cü ildə birinci regional inkişaf proqramı qəbul olunanda mən demişdim ki, ölkəmizin inkişafı qeyri-neft sektorundan asılı olmalıdır. Həmin vaxtdan bu günədək bütün bölgələrdə, o cümlədən qərb bölgəsində bir çox önəmli layihələr icra edilib. Əgər biz regional inkişaf proqramlarını qəbul etməsəydik, bu gün vəziyyətimiz çox ağır ola bilərdi. Ona görə, mən əminəm ki, 2016-cı ili biz uğurla başa vurmalıyıq. Buna nail olmaq üçün bütün imkanlar var. Azərbaycanda hökm sürən ictimai-siyasi sabitlik, xalq-iqtidar birliyi, düşünülmüş iqtisadi siyasət və dərinləşən islahatlar, əminəm, imkan verəcək ki, biz bu ili də uğurla başa vuraq. Qarşıya vəzifə qoyulub ki, biz bir neçə ildən sonra neft amilindən asılılığı tamamilə aradan qaldırmalıyıq. Əminəm ki, buna nail olacağıq".

YENİ MÜSAVAT
N 38 (6359) 18 fevral 2016

# "Qızlarımdan "evimiz haradadır" soruşanda "Bakıda" deyirlər"

## Alper Coşqun: "İndi Azərbaycan Bakının xaricindəki bəzi bölgələri də dünya səhnəsinə çıxara bilər"

**Türkiyənin Azərbaycandakı səfiri Alper Coşqun "Yeni Müsavat"a müsahibə verib. Dəyərli diplomatla səmimi söhbətimizin ikinci bölümündə bölgədə baş verənlərlə yanaşı, Azərbaycan və Türkiyənin ortaq turizm imkanları, iş adamlarımızın qarşılıqlı şəkildə hansı işlər görə biləcəyindən danışdıq, həmçinin böyükelçinin şəxsi həyatı ilə bağlı bəzi məsələlərə toxunduq. Alper bəy müsahibə boyu Azərbaycan və Türkyənin dostlarına və düşmənlərinə bir sıra mesajlar da ünvanlayıb, iki qardaş ölkənin inkişafı, əlaqələrinin daha da möhkəmlənməsi üçün diqqətçəkən təkliflər səsləndirib.**



**"Başqa ölkələr bu cür birlikləri qurmağı bacarıb, Türkiyə və Azərbaycan bacarmayacaqmı?"**

*(Əvvəli ötən sayımızda)*

***- Alper bəy, Qərbdə bütün bunlarla bağlı məlumatsızdılarmı, yoxsa məqsədli şəkildə terrorçulara dəstək verilir?***

- Biz ABŞ-ın, Qərbdəki müttəfiqlərimizin, dostlarımızın Türkiyəni zəifləmək kimi bir düşüncə ilə hərəkət edəcəyinə inanmırıq. Bizim əlaqələrimiz inama dayanır, müttəfiqik, belə bir anlayışla hərəkət etməzlər, biz də həmçinin. Suriyada DAEŞ-lə mücadilədə YPG Qərbin əlində bir alət olaraq görülə bilər. Çünki əlində silah var və s. Amma məsələ terrorizm və terror təşkilatı olduqda işlər dəyişir. Türkiyə olaraq bizim bu halda mövqeyimiz qəti, dəqiq və açıqdır. Fikir verin, əgər ölkələr bu vəziyyətdə seçici davranmağa başlasalar, məsələn, "A" terror təşkilatı mənə əsas problem yaradan digər təşkilatla mücadilə aparır. Ona görə də mən "A" terror təşkilatını terror təşkilatı saymıram" deyəcəklər. Belə bir şey ola bilərmi? Terrorla qeydsiz-şərtsiz necə mübarizə apararıq o zaman? Qaldı ki, beynəlxalq hüquqa əsasən, tərəfdaş olduğumuz anlaşmaların kontekstinə uyğun olaraq, bəlkə də hamısından da vacibi məsuliyyətli dövlətlər olaraq qeydsiz-şərtsiz hər bir terrorçu təşkilatla mübarizə aparmaq borcumuzdur. Burada seçim aparmaq mümkün deyil. YPG bu gün xüsusilə Rusiyanın əlində mülayim müxalifəti o bölgədə yox etmək, xüsusilə Əsəd rejimini yaşatmaq üçün bir alət halına gəlib. Bunu Qərbin də görməsi lazımdır.

***- Azərbaycan rəhbərliyi xarici iş adamlarına çağırış edərək onları ölkəmizə yatırım qoymağa çağırıb. Türkiyə və Azərbaycan arasında bununla bağlı hansı gəlişmələr var? Üstəlik, iki qardaş ölkə xüsusilə də Ankara-Moskva münasibətlərindəki gərginlikdən sonra turizmə yeni nəfəs vermək imkanlarını araşdırırmı?***

- Yalnız turizm məsələsi deyil. Cənab prezidentin də vurğuladığı bir sıra məsələlər var, xüsusilə də iqtisadiyyatın çeşidləndirilməsi ilə bağlı. Azərbaycanın böyük potensialı var, bəzi işlər də görülüb. Neftin qiymətlərinin düşməsi səbəbindən bu istiqamətdə işlərin aparılması daha zəruridir. Məsələn, Azərbaycan indi özəlləşdirmədən bəhs edir. Türk yatırımçılarının sərmaye qoyması baxımından Azərbaycanla daha çox ortaq çalışmalar həyata keçirəcəyinə səmimiyyətlə inanıram.

Bizim dövlət yetkililəri olaraq vəzifəmiz bu işlərin çərçivəsini daha güclü şəkildə qurmaqdır. Baxın, Azərbaycanın iş adamları Türkiyəyə, türkiyəli iş adamları da Azərbaycana yatırım qoyur. Enerji sektoruna ölkələrimizin qarşılıqlı önəmli yatırımları var. Amma bu yatırımlar necə gəlir? Biz ortaq millətlərin övladları olsaq da, para ilə əlaqədar qərarlar şirkətlər tərəfindən qəbul edilərkən yatırım ortamına baxılır, hüquq təminatına baxılır və mühasibə ilə qərar verilir. Bu sahələrdə Azərbaycan yatırımlarını Türkiyəyə, Türkiyə yatırımlarını isə Azərbaycana cəlb etmək üçün yaxşı işləmək, iş adamlarımızın rahat ola bilmələri, güvənməsi, bəzi hallarda isə təşviq edilməsi lazımdır. Mənim nəzərimcə, Türkiyənin ən önəmli güc qaynağı insan qaynaqları və iş adamlarıdır. Əgər Türkiyə üçün bir iqtisadi möcüzədən söz açmaq mümkünsə, bunun təməlində böyük sərmayə qruplarından çox, sayları kifayət qədər çox olan orta sahibkarlar dayanır. Türkiyədə sabitliyi saxlayan da onlardır. Əgər orta səviyyəli yatırımçılarımızın və iş adamlarımızın sayı çox olarsa, ölkə dünyadakı iqtisadi dalğalanmalara qarşı daha sabit ola bilir. Türkiyə bunu bacardı. Bu dönəmdə turizm, aqrar sektor çox yaxşı potensiallı olan sahələrdir. Enerji sektoru da həmçinin. Yükdaşıma sahəsini də xüsusi vurğulamaq lazımdır.

***- Üstəlik, Bakı-Tiflis-Qars dəmir yolu kimi nəhəng layihə var...***

- Bakı-Tiflis-Qarsın dövriyyəyə girməsini sırf yükdaşıma kimi düşünməməliyik. Bu, eyni zamanda bəşəri çatdırılma xətti olacaq, yəni insanların mənzilbaşına yetişməsi üçün bir xətt olacaq. Şərq-Qərb dəhlizi, yəni Orta dəhliz kimi tələffüz etsək, hər cür çatdırılmaların artacağını, fərqli yerlərdə toplanış məntəqələrinin qurulacağını, onun həmin bölgələrdə daha böyük iqtisadi hərəkətlilik yaradacağını, təkcə Şərq- Qərbə deyil, eyni zamanda Şimal-Cənuba da fayda verəcəyini düşünmək lazımdır. O səbəbdən Türkiyə və Azərbaycanın, bir çox hallarda Gürcüstanın da iştirakı ilə həyata keçirilən bu layihələrin böyük əhəmiyyəti var. Üstəlik, Bakı-Tiflis-Qars xəttinin Xəzər vasitəsilə tamamlanması, yükdaşımalarının buradan həyata keçirilməsi önəmli fürsətlər yaradacaq. Turizmlə bağlı bir nümunə göstərməli olsaq, Şahdağdakı şəraitə baxanda görürük ki, mükəmməldir. Bənzər işlər Qəbələdə də həyata keçirilib. İndi Azərbaycanın fərqli məkanlarında qolf sahələri tikilir. Bəli, Türkiyədə də bir çox yerlər var. Amma insanlar hər zaman yeni yerlərin axtarışındadır. Artıq Azərbaycan yavaş-yavaş özünün potensialını bazara çıxara biləcək hala gəlib. Bakı illərdir burada keçirilən önəmli toplantılarda bunu bacardı. İndi Azərbaycan Bakının xaricindəki bəzi bölgələri də dünya səhnəsinə çıxara bilər. Qəbələ bu baxımdan üstünlüyü olan məkandır, çünki hava limanı da var, önəmli şəkildə yatırım qoyulub. Şahdağ nümunəsini də söylədim.

***- Turzim sahəsində böyük uğurları olan Türkiyənin təmsilçisi kimi necə hesab edirsiniz, Azərbaycanın turizmi inkişaf etdirməsi üçün nə etməsi lazımdır?***

- Burada bir məsələ də var. Türkiyədə də bu sıxıntını yaşadıq. Təkbaşına təsis və alt yapı yetmir. Xidmət sahəsini yüksək səviyyədə inkişaf etdirmək, qiymətləri rəqabətə uyğunlaşdırmaq lazımdır. Cənab prezidentin də çıxışlarında bu məsələlərə toxunulur, Azərbaycanda müştəriləri təşviq edə biləcək işlər görmək lazımdır. Eyni dili danışırıq, bənzər təcrübələri yaşayırıq, bu məsələlərdə ən böyük dəstəyi Türkiyə verə bilər. İnsan qaynaqları da buna imkan verir. O baxımdan mənim könlümdən, xəyalımdan keçən budur: Türkiyənin də, Azərbaycanın da sərmayənin, malların və insanların qarşılıqlı hərəkətində stabil və liberal siyasət yürüdəcəyinə inanıram. Başqa ölkələr bu cür birlikləri qurmağı bacarıb, Türkiyə və Azərbaycan bacarmayacaqmı? Bu, bizim potensialımızı Azərbaycana, Azərbaycanın potensialını Türkiyəyə daha çox daşıyacaq. Yavaş-yavaş bunlara baxmağımıza gərək var. Bu dönəm çox yaxşı fürsətlər yaradır. Türkiyə və Azərbaycanın üçüncü ölkələrdə ortaq yatırımlar qoyması məsələsinə də baxması lazımdır. Məndən soruşsanız, Türkiyənin səfiri olaraq Azərbaycana baxdığım zaman bizim birlikdə edə biləcəyimiz işlər məndə böyük həyəcan yaradır. Bölgədə bir çox qarışıqlıqlar, sıxıntılar, danışdığımız bir sıra gerçəklər var. Amma onlar bu günün problemləri. Bizim Azərbaycan və Türkiyənin və bölgənin sabahını düşünərək çalışmağımız lazımdır. İki ölkənin çox böyük potensialının olduğuna və bunların həyata keçiriləcəyinə də inanıram. Yetər ki, ortaq iradəmiz beləcə davam etsin və bizdən sonra gələn nəsillər də bu inancla çalışsınlar...

***- Alper bəy, artıq 4-cü ildir ki, Bakıdasınız. Təbii ki, Azərbaycan sizin Vətəninizdir, amma diplomatiyanın da öz qaydaları var. Buradakı missiyanızın tamamından sonrakı dönəmlə bağlı planlarınız, bilgiləriniz varmı?***

- (Gülür) Könlümdən keçəni soruşsanız, biz Azərbaycanda çox xoşbəxtik. Mən də həyat yoldaşım da, uşaqlarım da. Qızlarım hələ balacadır, onlardan hətta Türkiyədə də "evimiz haradadır" soruşanda "Bakıda" deyirlər. Bizim ailədə Azərbaycana münasibət belədir, bu da sizin sayənizdə. Biz burda qalmaqdan, yaşamağa davam etməkdən şad olarıq. Amma bu, bir bayraq yarışı kimidir. 4 ilə yaxın bundan öncə bayrağı mənə ötürdülər. 2012-ci ilin 16 sentyabrında Bakıya gəldik. 4-cü ilə yaxınlaşırıq. Bizim sistemdə müddət çox qətiləşməyib, amma normalda 4-5 ildən bir dəyişikliklər olur, ya mərkəzə gedərsən, ya başqa bir yerə. Mən indiki anda hələ ki bir təlimat almamışam. Ona görə də burada nə qədər qalacağımı, yaxud yaxında ayrılacağımı bilmirəm. Amma 4 ilimizə yaxınlaşdığımız üçün artıq yavaş-yavaş səlahiyyət müddətimin son dönəminə adladığımı deyə bilərəm. Getsək də, könlümüz burda qalacaq.

***- Uşaqlarınızın neçə yaşı var?***

- Hələ çox balacadırlar. İki qız uşağım var. Biri 6 yaşına yeni girib, digərinin isə 5 yaşını tamamlamasına az qalıb.

***- Ailəlikcə ən çox hansı ünvanlara gedir, harada istirahət edirsiniz?***

- Səmimi desəm, əslində Bakı kiçik cocuq sahibi olan bir ailə üçün çox gözəl bir şəhərdir, parkları, gəzinti yerləri kifayət qədərdir. Etiraf edim ki, Ankaraya nisbətən burada uşaqları aparmaq üçün daha çox yer tapa bilirik. Elə bulvarın özü çox gözəl bir yerdir. Ancaq insan bir az da şəhərdən uzaqlaşmaq istəyir. Bakının təbii iqlimi asan deyil. Yazı çox nəmli, isti olur. Amma Bilgəh tərəf çox gözəldir. Yayda uşaqlar həftə sonlarını çox böyük həyəcanla gözləyirdilər, "Bilgəh tərəfə, dənizə, hovuza gedək" deyə. Birlikdə gözəl gəzintilərimiz olur. Uşaqları da götürüb bir neçə dəfə Gəncəyə, Şəkiyə, Qəbələyə, Şahdağa getmişik və uşaqlar çox bəyəniblər, həyat yoldaşım da həmçinin. Azərbaycanın coğrafiyası Türkiyə ilə müqayisədə kiçik olsa da, gəzməli-görməli yerləri çox olan ölkədir. Keçmişlə müqayisədə indi yolları daha yaxşı haldadır. Gəzdiyimiz yerlərdən də çox məmnun qaldıq.

***- Sərbəst gəzməyə üstünlük verirsiniz, yoxsa mühafizənin müşayiəti ilə?***

- Normalda ehtiyac var, amma biz sərbəst olmağa üstünlük veririk.

***- Avtomobili də özünüz idarə edirsiniz?***

- İmkan dairəsində çalışıram özüm sürüm.

***- Bakıda maşın sürmək çətin deyil ki?***

- Amma mən maşın sürməyi İstanbulda öyrənmişəm, bu, yaxşı bir stajdır. (gülürük) Bunu ona görə deyirəm ki, avtomobillərin heç də yaxşı idarə olunduğu yer deyil. Bizdə də çox sərt sürürlər. Yəni orda öyrənən adam burda yaşaya bilir. Yol hərəkəti ilə bağlı sizin də, bizim də biliyimizi artırmağımız lazımdır. Çox cəsuruq, bu da təhlükəlidir. Türkiyədə də var, amma sizdə daha çox qüvvətli, böyük arabalar sürürlər. Bu da insana güc hissi verir, qaza basıb gedir, amma Allah qorusun! Çox diqqət etmək lazımdır.

❑ **Elşad PAŞASOY**
❑ **FOTO: "YM"**

YENİ MÜSAVAT
N 38 (6359) 18 fevral 2016

# Özəl mühafizə xidmətlərinə nəzarətin gücləndirilməsinin pərdəarxası

## Müzəffər Baxış: "Onlar mütəşəkkil, təkmilləşmiş bir qüvvə kimi digər məqsədlərə xidmət edə bilərlər"

**İnzibati Xətalar Məcəlləsinin (İXM) yeni redaktədə qüvvəyə minməsi haqda prezident fərmanı diqqəti özəl mühafizə xidmətlərinin fəaliyyətinə cəmləşdirdi. Belə məlumatlar yayıldı ki, son dəyişikliklər özəl mühafizə xidmətlərinin nəzarətə alınmasına xidmət edir.**



Təhlükəsizlik orqanlarına yaxın mənbə isə iddia edib ki, dəyişikliklər ciddi mətləblərdən xəbər verir: "Son illərdə xaricdən idarə olunan radikal dini cərəyanların üzvləri cidd-cəhdlə orduya, təhlükəsizlik və mühafizə xidmətlərində işə düzəlməyə can atırlar. Məqsəd onların silah əldə etməsi, hansısa məqamda bundan istifadə edərək təxribatlar törətməsidir. Bir neçə il öncə dini radikal cərəyana üzv olan bir ordu zabitinin Qazaxda xidməti silahla yanacaqdoldurma məntəqəsinə basqın etməsi faktı da baş vermişdi. Daha sonra onlar özəl mühafizə xidmətlərinə işə düzəlməyə can atırlar".

İddia olunur ki, qanunun sərtləşdirilməsi özəl mühafizə qurumlarına radikal cərəyanların üzvü olan şəxslərin işə götürülməsinin qarşısını almağa hesablanıb...

Bəzi mətbuat orqanlarında İXM-ə dəyişikliklər DTX-yə yeni vəzifə həvalə olunması kimi təqdim olunub. Bu haqda mətbuatda yayılan məlumatlara Prezident Administrasiyasının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri Şahin Əliyev aydınlıq gətirib. Şöbə müdiri "AzərTAc"a bildirib ki, dəyişiklik edilən bənd İXM-in 597-ci maddəsinə aiddir. Həmin maddədə söhbət qeyri-dövlət, özəl mühafizə fəaliyyəti haqda qanunvericiliyin pozulmasından gedir. Bu maddə xarici hüquqi şəxslər, yaxud əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən təsis edilmiş bütün hüquqi şəxslərə yox, yalnız həmin şəxslər tərəfindən təsis edilmiş özəl mühafizə müəssisələrinə şamil edilir. Ş.Əliyev bu vəzifənin heç də yeni vəzifə olmadığını da diqqətə çatdırıb. Qeyd edib ki, xarici hüquqi şəxslər, yaxud əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən təsis edilmiş və mühafizəçilərinin fiziki qüvvə və xüsusi vasitələrdən istifadə etmək hüququ olan özəl mühafizə müəssisələrinin Azərbaycannın ərazisində fəaliyyətinə DTX tərəfindən nəzarət edilməsi imkanları İnzibati Xətalar Məcəlləsinin əvvəlki redaksiyasında da nəzərdə tutulub.

Martın 1-də qüvvəyə minəcək, hazırda qüvvədə olan İXM-ə əsasən özəl mühafizə müəssisəsinə və ya hüquqi şəxsin mühafizə bölməsinə mühafizəçi vəzifəsinə işə qəbul edilən namizəd barədə işəgötürən tərəfindən 3 gün müddətində müvafiq olaraq DİN və DTX-yə məlumat verilməlidir. Əks halda, fiziki şəxslər 300 manatdan 500 manatadək, vəzifəli şəxslər 1500 manatdan 2 min manatadək, hüquqi şəxslər 4 min manatdan 5 min manatadək məbləğdə cərimə nəzərdə tutulur.

**"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxış deyir ki, qanunla mühafizə xidmətinin kim tərəfindən yaradılması haqda məlumat verilməlidir:** "Sırf nəzarətin təşkili üçün belə bir qayda müəyyən olunub. Belə bir qayda varsa, mühafizə xidməti yaradan hər bir şəxsin, istər Azərbaycan vətəndaşı olsun, istərsə də əcnəbi, bu haqda məlumat verməlidirlər. Nəzarət etməli qurumlar da özəl mühafizə xidməti yaradan şəxslərin məqsədlərinin nədən ibarət olmasını araşdırmalıdırlar. Bu dəyişikliklər nəzarət imkanlarının reallaşması nöqteyi-nəzərindən gerçəkləşib".

**M.Baxış deyib ki, mühafizə xidməti sıradan bir qurum, özəl şirkət deyil:** "Mühafizə xidməti dövlətin təhlükəsizliyi baxımından nəzarətə alınmalıdır. Elə mühafizə xidməti ola bilər ki, orada 500-1000 nəfər qolu güclü, keçmiş hərbçi, daha çox idmançı olan şəxslər bir araya gətirilər. Belə şəxslərin bir araya toplanması gələcəkdə dövlətin təhlükəsizliyi üçün problemlərin ortaya çıxmasına səbəb ola bilər. Ora elə şəxslər yığıla bilər ki, özəl mühafizə şirkəti təhlükə mənbəyinə çevrilə bilər. Mütəşəkkil, təkmilləşmiş bir qüvvə kimi digər məqsədlərə xidmət edə bilərlər. Ona görə də qanunda belə bir dəyişikliklə özəl mühafizə şirkəti yaradanları daha məsuliyyətli olmağa, işə götürülən şəxslərlə bağlı məlumatları müvafiq qurumlara vaxtında təqdim etməyə cəlb etmək istəyirlər. Bu, həmin mühafizə şirkətlərinin nəzarətdən çıxmasının qarşısını almağa hesablanan dəyişiklikdir".

❑ E.MƏMMƏDƏLİYEV



# Tiflis və Tehrandan Bakıya qaz xəyanəti - gözlənilən oldu

## Azərbaycan prezidentinin İran səfəri ərəfəsində Tehranın təbii qazı Gürcüstana Ermənistan üzərindən satacağı açıqlandı; izolyasiyada olan işğalçı ölkənin tranzit ölkə rolu güclənir, ona indi Tiflis də "nəfəs verəcək"...

**Qonşu Gürcüstanla cənub qonşumuz İran arasında Azərbaycanın da maraqlarına toxunan qaz anlaşması baş tutmaq üzrədir. Bu anlaşma çərçivəsində İran Gürcüstana ildə 200 milyon kubmetr qaz satacağını bəyan edib. Belə bir ilkin razılaşmanın Gürcüstanın energetika naziri Kaxa Kaladzenin fevralın 16-da Tehrana səfəri zamanı əldə olunduğu bildirilir.**

Razılaşmanı İranın Milli Qaz İxrac Şirkəti NİGEC-in prezidenti Əlirza Kameli gürcü nazirlə İranın neft naziri Namdar Zəncani arşında danışıqlardan sonra açıqlayıb. Kameli İran qazının Gürcüstana Ermənistan üzərindən nəql olunacağını da bildirib. "Tehran və Tiflis 200 milyon İran qazının bu Qafqaz dövlətinə ixracına dair danışıqlar aparır", - deyə o, Kaladze ilə danışıqlarla bağlı bildirib.

Onun sözlərinə görə, Gürcüstanın dövlət və özəl sektoruna daxil olan müəssisələr İran qazını almaqda maraqlıdır. "Gözlənilir ki, İran qazının Gürcüstana nəqli martın 21-dən başlayacaq" - İran rəsmisi söyləyib. Qaz ixracına dair müqavilə qısamüddətli olacaq və 7 ay müddətə hesablanacaq, ancaq bu sahədə sonrakı əməkdaşlıq üçün baza rolunu oynayacaq.

Bununla belə, Gürcüstanın qaz tranzitinə dair hələ Ermənistandan (əslində Rusiyadan-red.) icazə almalı olduğu deyilir. "Əgər sövdələşmənin iqtisadi tərəfi məqbul olarsa, daha sonra Gürcüstana qaz təchizatına dair uzunmüddətli və ortamüddətli müqavilə bağlanacaq" - Kameli əlavə edib.

***

Hazırda Gürcüstanın qaz istehlakının 88%-i Azərbaycanın hesabına həyata keçirilir. 12 faiz isə - Rusiyadan Ermənistana ötürülən mavi yancağın tranzitinə görə verilən kompensasiya əvəzidir.

Yada salaq ki, İran qazının Gürcüstana Azərbaycan üzərindən ötürülməsi variantı da nəzərdən keçirilirdi. Amma indi belə çıxır ki, tərəflər Ermənistan variantı üzərində dayanıb. Siyasi müşahidəçilərə görə, bu, Ermənistanın cüzi həcmdə də olsa üçüncü ölkəyə qaz tranzitini həyata keçirməsi, başqa sözlə, on illərdir davam edən təcrid vəziyyətindən çıxmaq üçün simvolik addım atması deməkdir.

Onu da qeyd edək ki, Tehran səfərindən az öncə Kaladze Bakıda olmuş, burada SOCAR rəhbəri ilə görüşlər keçirmişdi. Görüşlərin detalları açıqlanmasa da, gürcü nazir qısa bəyanatında İrandan alınacaq qazın Azərbaycan vasitəsilə nəqlini də istisna eləməmişdi. Artıq bəlli olur ki, Azərbaycan variantı arxa plana keçir.

Bu, həm də o anlama gəlir ki, Azərbaycanın strateji tərəfdaşı sayılan Gürcüstan da işğalçı ölkəyə daim "nəfəslik" rolunda olmuş İranla birgə Ermənistana təcriddən qurtuluş üçün töhfə verəcək. Bu, təbii ki, Azərbaycanı məmnun etməyəcək.

Bəzi təhlilçilər bunun ardınca Gürcüstandan keçərək Ermənistana gedən Abxaziya dəmir yolunun açılışının gündəmə gələcəyini istisna eləmirlər - əgər Rusiya tərəfi ilə anlaşma alınsa, daha dəqiqi, Kremlin Tiflisə təzyiqləri nəticə versə. Bu təzyiqlər axır vaxtlar Gürcüstanın NATO ilə daha da yaxınlaşması və hərbi təlimlər keçirməsi fonunda güclənməyə meyllidir, nəinki səngiməyə.

Bir şey dəqiqdir ki, Ermənistanın iştirakı ilə yeni qaz anlaşması yalnız Rusiyanın "dobrosu"ndan sonra mümkün ola bilər. Unutmaq lazım deyil ki, işğalçı ölkənin bütün energetik sferası, nəql marşrutları və kəmərləri "Qazprom-Ermənistan" şirkətinin inhisarındadır.

***

Əlavə edək ki, fevralın sonlarında Azərbaycan prezidenti İlham Əliyevin Tehrana səfəri gözlənilir. Həmin səfər zamanı Gürcüstana qaz ixracı marşrutunun müzakirə olunacağı da istisna deyil. Bundan başqa, prezident Əliyevin qısa zaman sonra Gürcüstana səfər edəcəyi barədə də məlumatlar yayılıb. Böyük ehtimalla, hər iki səfər qaz məsələsində bütün "i"lərin üzərinə nöqtə qoyacaq.

❑ Siyasət şöbəsi

# YAP-dan yeni MSK ilə bağlı açıqlama

## Mərkəzi Seçki Komissiyası bu ay formalaşacaq

**Mərkəzi Seçki Komissiyasının (MSK) fevralın sonlarında yenidən formalaşdırılacağı barədə "Yeni Müsavat"ın ötənilki parlament seçkilərindən sonra yazdıqları təsdiqini tapır. YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov MSK-nın mart ayına qədər formalaşacağını açıqlayıb. Report.az-a müsahibəsində o deyib ki, hazırda YAP-da bununla bağlı hazırlıq işləri gedir: "Bəzi məsələlər həll edildikdən sonra partiyanın İdarə Heyətinin qərarı ilə MSK üzvlüyünə namizədlərimizi müəyyən edəcəyik".**



"Hazırkı tərkibdə dəyişiklik gözlənilirmi" sualına S.Novruzov belə cavab verib: " Bu, İdarə Heyətinin səlahiyyətinə daxildir. Belə ki, namizədlər İdarə Heyətinə təqdim olunurlar, orada baxılır, sonra da qərar qəbul edilir".

Qeyd edək ki, Seçki Məcəlləsinə əsasən, MSK-nın və aşağı seçki komissiyalarının səlahiyyət müddəti 5 ildir. Seçki Məcəlləsinə görə, MSK 18 üzvdən ibarətdir. MSK-nın 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan deputatları, 6 üzvü isə Milli Məclisdə azlıq təşkil edən partiyaları təmsil edir.

MSK-nın sədrinin kimliyinə gəlincə, məlumatlara görə, böyük ehtimalla bu dəfə də hakimiyyət bu vəzifəni Məzahir Pənahova həvalə edəcək.

Yeni Milli Məclisdə YAP 69 deputatla, VHP iki deputatla, BAXCP, ADİSP, BQP, MDHP, ASRP, Vəhdət, VBP, ADMP və ASDP isə hərəsi bir deputatla təmsil olunur. Qalan deputatlar isə bitərəflərdir.

**Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, seçki komissiyalarının yeni tərkibdə formalaşacağının nə vaxt baş verəcəyi ilə bağlı dəqiq informasiyaya malik deyil, ancaq Siyavuş Novruzovun açıqlamasından belə görünür ki, fevral ayında MSK formalaşdırılacaq:** "2010-cu ilin noyabrında keçirilmiş seçkilərdən sonra seçki komissiyalarının formalaşması 2011-ci il fevral ayının ortalarında həyata keçirilmişdi. Görünür, bu dəfə də belə olacaq. Şübhəsiz ki, Vəhdət Partiyası parlament partiyası olduğu üçün seçki komissiyalarında təmsil olunacaq. Müəyyən dairə və məntəqə seçki komissiyalarında yəqin ki, proporsional bölgü nəticəsində Vəhdət də təmsil olunacaq. Mərkəzi Seçki Komissiyasında da bizim partiyanın nümayəndəsinin olub-olmayacağını isə bu gün dəqiq deyə bilmərəm. Çünki 6 yer var və parlamentdə azlıqda qalan partiyaların sayı 10-dur. İndi görək həmin 6 yerə bu 10 partiyadan hansıların təqdim etdiyi namizədlər daxil olacaq. Əlbəttə, biz istərdik və arzu edərdik ki, Vəhdət MSK-da təmsil olunsun".

**Parlamentdə təmsil olunan Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa bildirdi ki, fevral ayında MSK-nın yeni tərkibdə formalaşacağı gözlənilir:** "MSK-nın formalaşması ləngiyir. Niyə ləngidiyini Milli Məclisin növbəti iclasında qaldıracağıq. Təbii ki, partiyamızın MSK-da təmsil olunmasını istəyirik. Azlıqda olan partiyaların nümayəndələri MSK-da iştirak eləməlidir. Burada heç bir narahatçılıq yoxdur. Məsələ qanuna uyğun olaraq həll olunacaq".

Qanunvericiliyə görə, Mərkəzi Seçki Komissiyasının yeni tərkibi yeni seçilmiş Milli Məclis fəaliyyətə başlayandan sonra Milli Məclis tərəfindən təsdiqlənməlidir.

❑ E.SEYİDAĞA



# Bir anbar bəxtsiz cavan

**Zamin HACI**
zaminhaci@gmail.com

**Təşəbbüs göstərmək, iş görmək, kitab oxumaq-filan hələ hər şeyi həll eləmir, gərək adamın bəxti də olsun. Gəncədə müəllimləri yığmışdılar icra hakimiyyətinin qabağını silib-süpürməyə. Guya Türkiyə prezidenti Ərdoğan müəllimin səfərinə hazırlaşırdılar. Ancaq Ərdoğan guya dumana görə Gəncəyə getməyəcək, Bakıya gələcəkmiş. Bəs o boyda əziyyət necə olsun? Müəllimlərin zəhməti hara getdi? Belə çıxır ki, vaxtilə Mikayıl müəllim Türk Hava Yollarının pilot və stüardessalarını elə yaxşı edib basıb döymüşdü.**

Yaxud Bakının Suraxanı rayonunda gənclər iş tapa bilmir, günlərlə məşğulluq mərkəzinin qapısında sürünürlər. 120 manatlıq iş təklifi alırlar uzağı. O yanda isə Tovuzun Qovlar qəsəbəsində Gənclər Evi istifadəyə verildi. Sitat: "Diqqətə çatdırılıb ki, burada gənclərin intellektual klubu, gənc iqtisadçılar klubu, kompüter dərnəyi, peşəyönümü mərkəzi, istedadların hazırlıq laboratoriyası, elektron kitabxana, karyera mərkəzi, rəqs zalı, toxuculuq və tikiş dərnəkləri, vətənpərvərlik klubu fəaliyyət göstərəcək. Bilyard, tennis və fitnes zallarında yaradılan şərait gənclərin asudə vaxtlarının səmərəli keçməsinə imkan verəcək". Görürsənmi? Hər bir şey nəzərə alınmışdır. İstəyirsən bilyard oyna, istəyirsən vətənpərvər ol. Kefin çəksə rəqs elə, çəkməsə istedadını hazırla. Deməli, Suraxanıda doğulan gənclərin sadəcə bəxti gətirməyib. Ata sözündə deyilən kimi, yaxşı rəqqasa vətəni mane olar.

Şəkidən də talesiz xəbər var: orda ayı bir kəndliyə hücum edib, onu yaralayıb. Ancaq 51 yaşlı kişi özünü itirməyib, ayı ilə güləşib, heyvan bunu bir az sürüyəndən sonra atıb gedib. *(Ehtimal edirəm ki, şəkili ayıya nəsə deyib, ayını gülmək tutub).* Kişi hazırda sağ-salamatdır, bir az yaralarını sarıtdırır. Deyə bilərsiniz bunun nəyi bəxtsizdir, ayının pəncəsindən sağ çıxıb. Eh, o zaman sizin dünyadan xəbəriniz yoxdur. Bu dəqiqə bütün dünya baş rolda Leonardo di Kaprio oynayan "Xortdan" (The Revenant) kinosundan danışır, o filmdə isə qəhrəman ayının ağzından sağ çıxırdı. İndi bu şəkili qardaşın da bəxti gətirsəydi, haqqında kino çəkilərdi, ancaq uzağı bir həftəyə hamının yadından çıxıb gedəcək.

Qayıdaq Tovuza. Orda bir su anbarının açılış mərasimi də keçirilmişdir. *(Yeri gəlmişkən, AzərTAc zəhmətkeşlərinin nəzərinə çatdırım ki, "Su anbarı işə salınmışdır" cümləsi gülünc cümlədir. Anbarı necə işə salmaq olar? Buna su uzun müddətdir yığılıb, indi də uzağı açılış törəni eləmək olar, ta işə salmaq mümkün deyildir. Su anbarı artıq içinə su yığılmağa başladığı uzaq vaxtda "işə salınmışdı").* Həmin tədbirdə deyildi ki, həmin bu su anbarının bölgənin kənd təsərrüfatının inkişafında böyük rolu olacaqdır. Lap əla. Kor nə istər, iki göz. Ancaq belə su anbarının lap yekəsini Taxtakörpü-də qayırmışıq, özü də neçə il qabaqdan. İndi gəlin araşdıraq görək həmin Taxtakörpü su anbarının yerləşdiyi bölgədə kənd təsərrüfatı məhsullarının artımına hansı təsiri olmuşdur? Əkinlər anbara qədər hansı məhsulu verirdi, indi nə qədər verir? Kanalın yanında neçə "Məmmədqulu" dolanırdı, indi neçəsi dolanır? Əminəm ki, bu rəqəmləri axtarmağa ehtiyac yoxdur, çünki ümumrespublika durumu göz qabağındadır: kənd təsərrüfatı məhsulunun böyük hissəsi xaricdən gətirilir. Kartofdan taxıla, ətdən yağa qədər.

Çünki problem anbarda deyil, problem idarə edənlərin korrupsiya anbarlarının yekəliyindədir. Bax, elə dünən sosial şəbəkələrdə kənd təsərrüfatı nazirimiz Heydər Əsədovun 10-15 min dollarlıq "Vertu" telefonu ilə fotosu yayılmışdı. Nazir bu telefonu hansı pulla alıb? Soruşan olmayacaq. Çünki vaxtında rəhbərliyin telefonuna konturunu yükləyir.

Nə qədər adam da həmin fotonu görəndə "Nazir adamdır, 100-200 manatlıq telefon gəzdirəsi deyildi" düşünəcək, deyinmək bizə qalacaq. Çünki bizim də bəxtimiz gətirsəydi belə adamlarla yanaşı yaşamazdıq.

# Türkiyənin 1 nömrəli bortunun marşrut dəyişikliyinin pərdəarxası

**Bu gün Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri başlayır. Rəsmi məlumata görə, Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclası keçiriləcək, regional və qlobal əhəmiyyətli bir sıra problemlər, təhlükəsizlik məsələləri, habelə iki ölkənin iştirakçısı olduğu mühüm enerji və nəqliyyat layihələri ətrafında müzakirələr aparılacaq.**




## Ərdoğanın Azərbaycan səfərinə Rusiya təhlükəsi - ilginc gəlişmə

### Türkiyə liderinin Azərbaycana səfərinə "dumanlı Gəncə" əngəli; onun ikinci şəhərimizə getməsini əngəlləyən səbəblər arasında təhlükəsizlik məsələlərinin olduğu istisna edilmir; TC prezidentinin ölkəmizdən dünyaya verəcəyi mesajlar səbirsizliklə gözlənilir; Moskva ilə barışıq məsələsinə səfərin həlledici təsiri ola bilər...

Qeyd edək ki, görüşün Azərbaycanın "ikinci paytaxtı" Gəncədə keçirilməsi qabaqcadan elan edilsə də *(artıq Azərbaycan prezidenti İlham Əliyevin Gəncədə olduğu xəbəri də var idi),* son anda Ərdoğanın "havanın dumanlı olması səbəbi ilə" Gəncəyə deyil, Bakıya uçacağı haqda məlumat yayılıb.

Dünən "Yeni Müsavat" olaraq məsələni qardaş ölkənin Azərbaycandakı səfirliyi ilə operativ şəkildə dəqiqləşdirən zaman mətbuat xidmətindən məlumat təsdiqləndi. Bildirildi ki, Gəncəyə uçuş məhz hava şəraitinə görə ləğv edilib. Lakin marşrut dəyişikliyi ilə bağlı qəfil qərarın sırf təhlükəsizlik amilləri ilə bağlı olduğu da istisna olunmur.

Belə ki, bəzi ehtimallara görə, səfər marşrutu Gəncədən Bakıya dumanlı havaya görə yox, əslində ali qonağın təhlükəsizliyi səbəbi ilə dəyişdirilib, sadəcə, əlavə suallar və mövzular çıxmasın deyə, bunu qabartmamaq qərara alınıb.

Söhbət ən əvvəl səfərə Rusiyanın yarada biləcəyi mümkün təhdidlərdən gedir. Məsələ ondadır ki, Gəncə Dağlıq Qarabağ münaqişəsi zonası ilə faktiki surətdə həmsərhəddir. Üstəlik, işğal altındakı yüksəkliklərdən şəhər "ovucun içindəki" kimi görünür və artilleriyanın asanca hədəf ala biləcəyi məsafədə yerləşir. Yəni ilk növbədə terror məsələsi.

Nəzərə alanda ki, erməni işğalçı qüvvələri, ümumən bölgə və onun ətrafı Rusiya kəşfiyyatının güclü nəzarətindədir və Ankara ilə gərgin münasibətlərdə olan, "Su 24" insidentinə görə revanş istəyi ilə alışıb-yanan Moskva "erməni kartı"ndan yararlanıb, onun arxasında gizlənə bilər, o zaman mənzərə daha da ciddiləşər. Hər necə olmasa, dünyanın barmaqla sayılacaq peşəkar təhlükəsizlik qurumlarından bir kimi Türkiyə Milli İstihbarat Təşkilatı hansısa güclü kontur-dəlillərə malik olub ki, belə bir qəfil qərar çıxarılıb.

***

Bütün hallarda Türkiyə prezidentinin ölkəmizə səfərini analitiklər kifayət qədər kritik hesab edirlər. Ona görə ki, budəfəki səfər təkcə iki qardaş ölkə və təbii müttəfiq arasında münasibətlər sferasına dair müzakirələrlə, "saat əqrəblərinin tutuşdurulması" ilə əlamətdar olmayacaq, eyni zamanda həqiqətən böhranlı bir dönəmə təsadüf eləməklə bölgə və onun ətrafında yaranmış mürəkkəb, bir o qədər də təhlükəli situasiyanın mümkün inkişaf dinamikasına aydınlıq gətirməlidir.

Çünki regional supergüc olaraq Türkiyə çoxdandır mövcud situasiyanın episentrində qərar tutub və istəsə də, istəməsə də, rəsmin Ankaranın qərarlarından çox şey asılı olacaq. İlk növbədə də Yaxın Şərqdə, Suriyada sülhün taleyi Türkiyənin önümüzdəki günlərdə və həftələrdə hansı addımlar atacağından xeyli dərəcədə asılı duruma gəlib. Bu mənada sayın Ərdoğanın Bakıda səsləndirəcəyi mesajlar, verəcəyi anonslarla bağlı həm Türkiyə və Azərbaycanda, həm də bölgə, Rusiya və Qərbdə mühüm gözləntilər mövcuddur.

***

Bəs Ərdoğan Azərbaycana nə ilə gəlir? Səfər ərəfəsində bu suala həm yerli *(Türkiyə, Azərbaycan, Rusiya, Ermənistan, Gürcüstan),* həm də Qərb mediası cavab tapmağa çalışdı ki, bu da bir daha ziyarətin önəmindən və gözləntilərin ciddiliyindən xəbər verir. Məsələn, bəzi Qərb analitiklərinə görə, prezident Ərdoğan Türkiyə-Gürcüstan-Azərbaycan hərbi ittifaqını gücləndirməyə, Rusiyanın Güney Qafqazdan sıxışdırılıb çıxarılmasına çalışacaq. Maraqlıdır ki, səfərin ertəsi gün - fevralın 19-da Tiflisdə Türkiyə, Azərbaycan və Gürcüstan XİN başçılarının görüşü planlaşdırılır.

**Rusiyanın nüfuzlu gazeta.ru nəşri isə səfəri iki kontekstdə qiymətləndirib:** "Ya Türkiyə prezidenti azərbaycanlı həmkarından onun Rusiya ilə danışıqlarını təşkil etməyi xahiş edəcək, ya da Bakıdan Qarabağda müharibəni aktivləşdirməsini istəyəcək. Çünki belə bir aktivlik Rusiyanın diqqətini Yaxın Şərqdən yayındıra bilər. Birinci variantda İlham Əliyev bütün səylərini işə salacaq. Lakin ikinci variant haqda bunu demək çətindir. Çünki bu həm də Putinlə müharibə aparmaqdır", - nəşr iddia eləmişdi.

Bakıya vasitəçilik təklifi məsələsini türkiyəli ekspertlər də istisna etmirlər. Ancaq bunun necə, hansı formada və ya formatda ediləcəyi və reallaşacağı hələlik bəlli deyil. Səfər ərəfəsində Ankara və Moskva arasında gedən təbliğat-informasiya savaşının daha da sərtləşməsi, o sırada baş nazir Əhməd Davudoğlunun Kiyev bəyanatları və ona Kremlin kəskin reaksiyası, nəhayət, prezident Ərdoğanın Rusiyanı növbəti dəfə Suriyada antibəşəri cinayətlər törətməkdə suçlaması bu təşəbbüsün perspektivini qaranlıq edir.

**Yeri gəlmişkən, Ərdoğanın ziyarəti öncəsi Suriya məsələsində Ankaranın Rusiyaya qarşı sərgilədiyi sərt və barışmaz mövqeyə ABŞ prezidenti Barak Obamadan dəstək xarakterli açıqlama gəlib. Cənub-Şərqi Asiya ölkələri birliyi (ASEAN) liderlərini bir araya gətirən zirvə görüşünün ardından keçirilən mətbuat konfransında Suriyada dinc insanların kütləvi qətlinə və Rusiyanın bölgədəki hərəkətlərinə dair sualı cavablandıran Obama rəsmi Moskvanın Bəşər Əsəd rejimini əvvəldən bəri dəstəklədiyini xatırladıb və əlavə edib:** "Rusiya özünü bir bataqlığa soxacaq demişdim və əminəm ki, bu mütləq olacaq. Suriyada savaşın bitəcəyini düşünənlər varsa, onlara xatırladım ki, ölkənin dörddə üçü hələ də Əsəd əleyhdarlarının əlindədir. Bu münaqişə yaxın zamanlarda da bitməyəcək".

Bütün bunlar öncədən də vurğuladığımız kimi, səfər ərəfəsi Azərbaycanın həmsərhəd hesab olunduğu Yaxın Şərq bölgəsi və ətrafında qlobal-regionalı güclər arasında münasibətlərin nə dərəcədə gərgin, partlayış xarakterli olduğuna şübhə saxlamır. Qardaş ölkə liderinin ölkəmizə gəlişini əvvəlkilərdən fərqləndirən ən mühüm cəhət də elə budur.

***

Xatırladaq ki, prezident Rəcəb Tayyib Ərdoğan bundan əvvəl Bakıda ötən il iyunun 12-də olub. O vaxt o, Rusiya prezidenti Vladimir Putinlə birgə I Avropa Oyunlarının açılış mərasiminə qatılmışdı. İki prezident arasında Bakıda bağlı qapılar arxasında görüş də keçirilmişdi.

Həmin vaxt prezident Putinin saxta erməni "soyqırmı" iddialarının 100-cü ildönümü ilə bağlı İrəvan tədbirlərinə qatılması qardaş ölkədə haqlı narazılıq və ikitərəfli münasibətlərdə soyuqluq yaratmışdı, Bakı görüşü və Azərbaycanın vasitəçiliyi bu soyuqluğu xeyli dərəcədə aradan qaldıra bilmişdi.

Ərdoğanın budəfəki Azərbaycan səfərinin Rusiya-Türkiyə, demək, həm də Azərbaycan-Rusiya münasibətlərində hansı izləri qoyacağını, Suriya böhranında çıxış üçün hansı perspektiv açacağını isə yəqin ki, bir gün sonra biləcəyik.

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 38 (6359) 18 fevral 2016



# Nazir müavini ittihamlara cavab verdi

## "Suriyanın ərazi bütövlüyünün saxlanması təkcə Azərbaycanın deyil, Türkiyənin də maraqlarına cavab verir"

**"Bu mənim peşəkar həyatımda ilk müsahibəm deyil. Hər dəfə olduğu kimi bu dəfə də mən Azərbaycan Respublikasının prinsipial mövqeyindən çıxış etmişəm. Hansı ki, beynəlxalq nüfuzunu beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyinə görə əldə edib".**

Bunu APA-ya müsahibəsində Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov deyib.

A.Əzimov bildirib ki, avstraliyalı jurnalistə cavabında qınanmalı heç nə görmür: "Onu deməliyəm ki, mənim cavablarım daha ətraflı idi. Lakin ya materialın həcmini çox hesab etdikləri üçün, ya da mənə məlum olmayan digər səbəblərdən yayımlanmış müsahibə kifayət qədər qısaldılmış şəkildə olub.

Lakin yenə də qeyd edirəm ki, mənim müsahibəmdə iki gündür polemika həvəskarlarının danışıq mövzusu olacaq bir şey yoxdur. Etiraf edim ki, XİN-ə qarşı aparılan tənqid kampaniyasının fonunda ələ və güc qazanan bu süni ajiotajdan təəccübləndim. Düşünürəm ki, bu kampaniyanın arxasında Azərbaycanın xarici siyasət sahəsində uğurlarını gözü götürməmək zəminində birləşmiş müəyyən daxili və xarici qüvvələr dayanır. Mənim jurnalistin Suriya ilə bağlı sualına cavab sözlərimdə Suriya prosesində iştirak edən hər hansı qüvvəyə dəstək yoxdur. Suriyadakı prosesi birmənalı dəyərləndirmək mümkün deyil: müxalif qüvvələrin rəngarəng tərkibə malik silahlı qruplaşması beynəlxalq terror qrupları ilə yanaşı, həndəsi çevikliyə malik İŞİD adlı struktur və etnik prinsip üzrə silahlı qruplaşmalar, o cümlədən kürd dəstələri.

Suriya ətrafında davam edən beynəlxalq böhran əsas maraqlı ölkələr arasında ciddi fikir ayrılıqları ilə də xarakterizə olunur. Rəqib koalisiyalar aviahücumlar edir, lakin biz görürük ki, bu, müxtəlif səbəblərdən az effektlidir. Lakin mən hər hansı tərəfin mövqeyini dəstəkləmirəm.

Azərbaycanın mövqeyinə gəlincə, biz hələ 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının üzvü olanda Suriya böhranının müzakirəsi və TŞ-nin qətnamələrinin qəbulunda iştirak etmişik. Biz həmçinin Suriya dostları qrupuna daxil olmuşduq və müəyyən yardım etmişik. Bu yaxınlarda Azərbaycan prezidenti İlham Əliyev Londonda Suriya ilə bağlı konfransda iştirak etdi. Mən bu barədə də müsahibəmdə danışmışam. Həmçinin o barədə də bildirmişəm ki, Azərbaycanın mövqeyi beynəlxalq hüququn norma və prinsiplərinə, BMT TŞ-nin qətnamələrinə sadiqliyə, Suriyanın ərazi bütövlüyünə və ölkənin bütün siyasi qüvvələrinin, o cümlədən prezident Əsədin daxil ola biləcəyi siyasi prosesə dəstəyə əsaslanır.

Biz heç kimi yox, prinsipləri dəstəkləyirik. Əgər sabah Bəşər Əsəd hakimiyyətdən getmək qərarına gəlsə, bunun əleyhinə olmayacağıq. Eyni ilə onun qeyd-şərtsiz qalmasında da təkid etmirik. Amma necə ki, arabanı atdan qabağa qoymaq olmaz, eləcə də davam edən hərbi böhran vəziyyətində siyasi prosesin ciddi nəticələrinə ümid etmək olar. Bu barədə müsahibədə danışmışam.

Suriyanın ərazi bütövlüyünün qorunub-saxlanılmasının tərəfdarıyıq. Ölkə hakimiyyətinin taleyini isə Suriya xalqı müəyyən edəcək. Lakin bunun üçün lazımi şərait yaradılmalıdır ki, biz bunu görmürük".

**A. Əzimov bildirib ki, Suriyanın ərazi bütövlüyünün saxlanması təkcə Azərbaycanın maraqlarına cavab vermir:** "Bizim strateji tərəfdaşımız və qardaş Türkiyə də bunda bilavasitə maraqlıdır. Təbii ki, bu kontekstdə Türkiyə bizim hərtərəfli dəstəyimizə malikdir.

Müsahibəmdə qeyd etmişəm ki, Türkiyənin ərazi bütövlüyü və sərhəd toxunulmazlığı təkcə onun milli marağı deyil. Bu, bütövlükdə Avropa ictimaiyyətinin maraqlarına daxil olmalıdır, necə ki, Azərbaycanın ərazi bütövlüyü və sərhəd toxunulmazlığı milli səviyyədə deyil, ümumi Avropa səviyyəsində də əhəmiyyət daşıyır.

Lakin avstriyalı jurnalistin hansı səbəblərdən bu fikirlərimi məqaləsinə daxil etmədiyini bilmirəm.

Sonra isə artıq Azərbaycanın media məkanında nələrsə baş verir. Hansısa agentlik müsahibəmdən bilərəkdən cümləni kontekstdən çıxarır və başlığa verməklə, ona hansısa siyasi çalar verir. Ardınca isə gördüyümüz kimi insinuasiyalar və yanlış nəticələrin təkrar qaldırılması prosesi gedib.

Qara otaqda qara pişiyi axtarmağı sevənlər üçün: yəqin ki, sizin intizarlı gözləntilərinizi doğrultmayacağam və boş polemikaya baş qoşmayacağam. Bunu snobizm kimi qəbul etməyin, ancaq mən məşğulam. Boş tənqid və ümumiləşdirmələrdən çəkinməyi xahiş etmək istəyirəm. Zəhmət olmasa, təhqirlərə yol verməyin, hərçənd bunun sizin üçün necə çətin olduğunu anlayıram.

Yekunda qeyd etmək istərdim ki, heç bir kampaniya - istər daxili, istər də xarici - Azərbaycanın xarici siyasətinə, o cümlədən onun strateji tərəfdaşlarla münasibətlərinə və Azərbaycanın milli maraqlarını şərəf və ləyaqətlə müdafiə edən XİN-in peşəkar əməkdaşlarının fəaliyyətinə təsir etməyəcək".

# Araz Əzimovun Əsəd açıqlamasına etirazlar XİN-i dilə gətirdi

## Nazir müavinini haqlı çıxaranlar da, onu sərt qınayanlar da oldu

**Xarici işlər nazirinin müavini Araz Əzimovun Avstriyanın nüfuzlu "Die Presse" qəzetinə verdiyi müsahibədə Bəşər Əsədin prezident kimi hazırda Suriyanın ərazi bütövlüyünün və təhlükəsizliyinin yeganə qarantı olduğunu, onun ordusunun da hüquqi institut olduğunu deməsi bir neçə gündür gündəmin qalmaqallı mövzusuna çevrilib. Əksər siyasi partiyalar və politoloqlar nazir müavinini Bəşər Əsədi müdafiə eləyən mövqe ortaya qoymaqda ittiham edirlər. Hakimiyyət və XİN buna görə tənqid edilir.**



Fevralın 17-də XİN-dən məsələ ilə bağlı rəsmi mövqe bildirilib. **XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** "Trend"ə açıqlamasında bildirib ki, Azərbaycan ən əsası bölgədə sülh və atəşkəsin bərqərar olması və Suriya xalqının iradəsinə uyğun olaraq, böhranın siyasi həllinin tapılmasının tərəfdarıdır: "Azərbaycan prezidenti İlham Əliyev fevralın 4-də Londonda "Suriyaya və regiona dəstək" adı altında keçirilmiş konfransda çıxış edərək Suriya böhranı ilə bağlı Azərbaycanın mövqeyini və yaşanan humanitar fəlakətin aradan qaldırılması ilə əlaqədar ölkəmizin təcrübəsini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb".

**Hüquq müdafiəçisi, beynəlxalq məsələlər üzrə ekspert Əvəz Həsənov isə Araz Əzimovun əslində düzgün və haqlı mövqe ortaya qoyduğunu düşünür:** "Araz Əzimov çox təcrübəli, prinsipial və bəzən diplomatlar üçün xüsusi olmayan hərəkətləri-piyada gəzmək, velosiped sürmək, kostyumsuz gəzməyə meyli ilə seçilən diplomatdır. Onun Bəşər Əsəd haqqında dediyi sözləri mahiyyətinə varmadan hamı "təhlil" edir. Araz Əzimov rəsmi dövlət nümayəndəsi kimi, Suriyada bütün səhvləri və günahlarını nəzərə almadan dövləti təmsil edəcək və onun təhlükəsizliyinin qarantı olacaq insanın prezident olmasına-bunun B.Əsəd olub-olmamasının artıq əhəmiyyəti yoxdur-işarə vurur. Prezidentin ordusu isə qanuni institut kimi Suriya xalqının taleyi ilə bağlı proseslərdə ölkələr tərəfindən qəbul olunmasına ən çox mənəvi haqqı çatır. İndi bir dövlətin rəsmisi başqa bir dövlətin seçilmiş prezidentinin hakimiyyətdə olduğu bir vaxtda ölkədə təhlükəsizliyin qarantının kim olmasını deməlidir? Əsədin əmrində olan Suriya Ərəb Ordusunun, Suriya müxalifətinin ordusunun, Kürdlərin özünü müdafiə dəstələrinin, İŞİD-in, yoxsa "Cabhat al-Nusran"ın?

Suriyanı elə qarışdırıblar ki, orada mövcud olan qruplaşmalar hərəsi bir dövlətin marağının təmin olunmasında alətə çevrilir. Azərbaycan bu qarışıqlıqda olduqca ehtiyatlı olmalı, Suriya xalqına humanitar dəstəyi göstərməyə hazır olmalı, terrorçular istisna olmaqla, maraqlı tərəflərin cəlb olunması ilə Suriya münaqişəsinin həllinə nail olunmasına çalışmalı, eyni zamanda Suriyanın dağılmaqdan qorunmasında dünya birliyinin yanında olmalıdır. Azərbaycan dövlətinin əsas prioritetləri bunlardan irəli gələcəksə, öz neytrallığını qoruması çətin olmayacaq".

**Deputat Fazil Mustafa isə A.Əzimovun timsalında XİN-i sərt tənqid etdi:** "Azərbaycan Xarici İşlər Nazirliyindən ən yüksək ranqlı bir məmur çıxıb desə ki, mən İŞİD-i dəstəkləyirəm və ya başqa birisi özünü "Hizbullah" heyranı kimi təqdim etsə, yaxud digəri "mən Putin uğrunda ölümə getməyə hazıram" desə, inanın ki, qətiyyən təəccüblənmərəm. Burası guya ki, Azərbaycanın ən önəmli nazirliyidir, ancaq fəaliyyətinin ən az Azərbaycana dəxli olduğu görünür. Bu qurumun ən təcrübəli və ağıllılarından biri Araz Əzimov sayılır, adam Avstriyada müsahibə verir və sanki Putinin xoşuna gəlmək üçün bölgədə vəziyyəti şərh edir.

Əsədin və onun dəstəkçilərinin haqlılığını, legitimliyini diplomatik dillə ifadə etmək, həm millilikdən, həm də humanizmdən uzaq bir davranışdır. Araz Əzimov çox yaxşı bilir ki, Əsəd ordusu deyilən ciddi bir qüvvə yoxdur, onun saflarında İran xüsusi təyinatlıları-"Hizbullah", Rusiya hərbçiləri və son vaxtlar da kürd döyüşçüləridir. Tam əmin ola bilərsiniz ki, Əsədi dəstəkləyən qüvvələr Dağlıq Qarabağda sabah ermənilərlə müharibəyə başlasaq, eyni tərkibdə ermənilər tərəfdən bizə qarşı vuruşacaqlar".

**Politoloq Ərəstun Oruclu isə bildirdi ki, Azərbaycan üçün indiki mərhələdə ən həyati əhəmiyyətli məsələlərdən biri ölkənin Suriya prosesində iştirakı və tutacağı yerdir:** "Bəli, nə qədər təəccüblü görünsə də, belədir. Çünki Suriya ətrafında cərəyan edənlər yeni dünya düzəninin formalaşmasına aparan yolun mühüm bir parçasıdır. Bu məsələ ilə bağlı xeyli müddətdir Azərbaycana qapalı və açıq təsirlər fonunda ölkə hakimiyyətinin prosesdən kənarda qalmaq istəyi əslində real siyasət anlayışlarından belə uzaqdır. Bir tərəfdən İlham Əliyevin Londonda keçirilən Suriya ilə bağlı konfransa qatılması, bunun ardınca isə Araz Əzimovun Avstriya qəzetinə müsahibəsində cinayətkar Əsəd hakimiyyəti haqqında Rusiyanın siyasətini dəstəkləyən mövqe ifadə eləməsi bunun bariz sübutudur".

**E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 38 (6359) 18 fevral 2016



# Ölüm ayağında olan Qarabağ qazisinin ürək dağlayan müraciəti…

## Rəhman Rzayev qaraciyər serrozundan əziyyət çəkir; əlil müalicəsi üçün dövlətin verdiyi avtomobili də satıb; qazi prezidentdən kömək istəyir

**Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Ramiz Qəmbərov küçəsi 4-də, Maşınqayırma zavodunun yataqxanasında yaşayan II qrup Qarabağ əllili Rzayev Rəhman Məmməd oğlu ölüm ayağındadır. Qaraciyər serrozundan əziyyət çəkən Qarabağ qazisi "Yeni Müsavat"a müraciət edib. Şikayətçi bildirir ki, müalicə olunmağa maddi imkanı yoxdur. Əlil aidiyyəti orqanlara etdiyi müraciətlərin cavabsız qaldığını söyləyir: "İki ildir xəstəxanalardayam. Qaraciyər serrozundan əziyyət çəkirəm. Müalicə olunmaq üçün maddi imkanım da yoxdur. Müalicə alıram, 10 gündən sonra yenidən baş qaldırır. Hansı həkimin yanına gedirəmsə, deyir ki, bizlik deyil, dövlət səviyyəsində müalicə olunmağa şərait yaradılmalıdır. Əvvəllər müalicə olunanda bir qədər özümə gəlirdim. Artıq iki gündür müalicənin də xeyrinin olmadığını görürəm. Güclü iynələr almağa maddi imkanım çatmır. Yataqxanada qalıram, özüm də qaçqınam. Hara müraciət edirəmsə, heç bir faydası yoxdur. Sizlərdən çox xahiş edirəm ki, mənə səsimi yuxarı orqanlara çatdırmaq üçün kömək edin".**

Qarabağ qazisi dəfələrlə aidiyyəti qurumlara müraciət etdiyini də qeyd etdi: "Amma cavab gəlməyib. Qəzetiniz vasitəsilə cənab prezidentə, onun xanımı Mehriban Əliyevaya, səhiyyə nazirinə müraciət edirəm. Mənə kömək etsinlər. Torpaqlarımız uğrunda döyüşlərdə ölmədim, amma maddi ehtiyac ucbatından indi ölmək üzrəyəm. Azərbaycanda heç bir həkim məni müalicə edə bilmir. Xaricdə müalicəm mümkündür. Sağaldıqdan sonra özümü dolandırmaq gücündə olan adamam. Heç kəsdən pul istəmirəm. Ağdamda döyüşmüşəm. Milli Qəhrəman Çingiz Mirzəyevin əsgəri olmuşam. Ağdərə döyüşlərində də iştirak etmişəm. Bir ayağımı bu vətən uğrunda qurban vermişəm. Dünən Sabunçu xəstəxanasından çıxdım. Yenə də ağrılarım baş qaldırıb. Dövlətin mənə verdiyi avtomobili də məcburiyyət qarşısında qalıb satdım. Müalicəmə xərclədim. Pulsuz verilən dərmanların heç bir xeyri yoxdur. Bütün dərmanları şəxsi cibimdən alıram".

Şikayətçi əlillərlə bağlı fəaliyyət göstərən heç bir quruma üzv olmadığını da qeyd etdi.

❑ **Cavanşir ABBASLI**

# "Eldar Mahmudovun qaynı Rasim Salmanovun biznesinə havadarlıq edib"

## 100 milyon dolları Kanadaya ötürən iş adamının sabiq MTN şefi ilə əlaqələri üzə çıxdı - yeni təfərrüatlar

**"Maşın bazarı"nın sahibi, "Bizim market" mağazalar şəbəkəsinin ortaqlarından olan Rasim Salmanovun Beynəlxalq Bankın sabiq rəhbəri, hazırda həbsdə olan Cahangir Hacıyevin vasitəsilə ölkədən 100 milyon dollar çıxardığı haqda yazmışdıq.**

"Maliyyə xəyanəti" ittihamı ilə həbsdə olan Cahangir Hacıyevin ölkədən çıxarılmasında iştirak etdiyi və vergidən yayınmaqla qazanıldığı iddia olunan 100 milyon dollar manatın birinci devalvasiyasından 2 gün əvvəl Kanada və Türkiyədəki hesablara yerləşdirilib.

Yazının dərcindən sonra X.İsmayılova redaksiyamıza yeni məlumatlar verib. X.İsmayılova bildirir ki, nəvəsi 1989-cu il təvəllüdlü Sahib Quliyev böyük sifarişin qurbanı kimi həbsdədir.

Rasim Salmanov qayınanası Xanımbacı İsmayılovanı nəvəsi 1989-cu il təvəllüdlü hüquq fakültəsinin məzunu Quliyev Sahib Arif oğlunu tutduracağı ilə dəfələrlə hədələyib. Xanımbacı İsmayılova Rasim Salmanovun bundan əvvəl öz doğma qardaşını sifarişlə tutdurması faktını nəzərə alıb Salmanovun hədələrinin real olduğunu bilib. Buna görə də R.Salmanovun hədə-qorxu tələbləri ilə özünə məxsus dəyəri milyonlarla ölçülən torpaq sahələrini, nəvəsinin adına olan "Porche Panamera" markalı avtomobili, "Grand Hyatt" yaşayış kompleksindəki evləri, digər əmlakları 2015-ci ildə Rasim Salmanovun ailə üzvlərinin adına bağışlama yolu ilə keçirib.



Rasim Salmanov hazırda şikayəti əsasında həbsdə olan Sahib Quliyevlə birgə

**X.İsmayılovanın redaksiyamıza daxil olan son müraciətində bu məsələ haqda ətraflı yazılıb:** "Hədə-qorxu ilə tələb edilən əmlakları məhz bağışlama yolu ilə ələ keçirən Rasim Salmanov əlavə vergiləri ödəməkdən yayınmaq və şübhələri üstündən götürmək üçün torpaq sahələrinin Xanımbacı İsmayılovanın qızı və Salmanovun həyat yoldaşı Ülkər Salmanov adına bağışlama etdirib. Rasim Salmanov bu cür zorakılıq və hədə-qorxu gəlməklə istəklərini icra etdirmək üsullarını müəyyən yaxın adamlarından öyrənib. Belə ki, Rasim Salmanovun evinə gedib-gələn və çox yaxın dostu keçmiş MTN-in şefi Eldar Mahmudovun qaynı Vüqar olub. Vüqar Rasim Salmanovun biznesinə havadarlıq edib, onun hüquq-mühafizə orqanları ilə olan bütün məsələlərini həll edib. Hətta Mahmudovlar ailəsi ilə Rasim Salmanov o qədər yaxın olub ki, Vüqar Rasimə istənilən adam barədə məlumatı MTN vasitəsilə yoxlatdırıb ona deyə biləcəyini yanımızda dəfələlə bildirib. Bu yolla Rasim Salmanov Mahmudovların himayədarlığı və köməyi ilə biznesinin qara tərəflərini tənzimləyirmiş".

**X.İsmayılova yazır ki, baş verənlərlə bağlı Kanada hökumətinə də müraciət etməyə hazırlaşır:** "Çirkli yollarla ailəyə məxsus külli miqdarda pulları Kanadaya keçirən Rasim Salmanovun qanunsuz hərəkətlərinə bəlkə onun gizli şəkildə vətəndaşı olduğu Kanada dövləti tədbir görər".

**X.İsmayılova üzləşdikləri haqsızlıqlarla bağlı prezidentə də müraciət edib:** "Açıq şəkildə cənab prezidentdən köməklik istəyirik. Rasim Salmanov bəzi polis əməkdaşları ilə birlikdə bizlərə zülm edir, qanunsuz hərəkətlər, sui-istifadə hallarına yol verirlər. Bu özbaşınalıqlara son qoyulmasını istəyirik".

❑ **E.HÜSEYNOV**

# Binəqədinin icra başçısının müavini postu 170 min manata "satılırmış"…

## Dövlət komitəsi pulu verən şəxsin adını açıqladı; ölkədən qaçan məmurun komitə sədrinin qohumu olduğu bildirilir

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) yüksək vəzifəli şəxslərinin adının keçdiyi rüşvət qalmaqalında daha bir vəzifəli şəxsin adı hallanır. Komitə əməkdaşlarının sahibkardan 170 min alaraq onu Binəqədi rayon icra başçısının müavini vəzifəsinə düzəltmək istədikləri məlum olub. Vəkil Adəm Məmmədovun verdiyi məlumata görə, dövlət komitəsinin rəhbəri Hicran Hüseynova və sabiq aparat rəhbəri Səfər İmanov sahibkardan 170 min dollar alaraq ona Binəqədinin başçısı Xaləddin İsgəndərova müavin vəzifəsini təklif ediblər:**

"Müvəkkilim deyir ki, bu təklif qarşı tərəfdən gəlib. Onlar deyiblər ki, Binəqədi ən yaxın və böyük rayondur. Səni ora düzəldəcəyik". 2012-ci ilin iyun ayında verilən vədə sonradan əməl edilməyib və alınan 170 min manat geri qaytarılmayıb. Bu arada həmçinin Səfər İmanovun Azərbaycandan qaçmasının bəzi təfərrüatları da məlum olub. Bu barədə vəkil Adəm Məmmədov məlumat verib. Onun sözlərinə görə, S.İmanov ölkədən bir qadınla gedib. Vəkil deyib ki, ona Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə bağlı daha 10 şikayətçi ərizə ilə müraciət edib: "Ortaya başqa şikayətçilər də çıxıb. Onların da şikayəti komitə ilə bağlıdır. Həmin 10 nəfərə də pul "atıblar". Onlara müxtəlif qurumlarda vəzifə söz veriblər. Bundan əlavə, bəzilərindən komitənin özündə işə düzəltmək üçün pul alınıb. Şikayətçilər iddia edir ki, Səfər İmanov Azərbaycandan bir xanımla qaçıb. Onlar şikayət ərizələrində başqa tanınmış şəxslərin də adını hallandırdılar".

**Vəkilin sözlərinə görə, S.İmanov ona qarşı şikayətlərin, ittihamların səslənəcəyini ölkədən çıxmamışdan öncə bilirmiş:** "Hüququnu müdafiə etdiyim şəxs onun qaçdığını bilirdi. Yanvarın 31-də Bakı-İstanbul reysi ilə Türkiyəyə qaçıb. Oradan hansı ölkəyə getməsi ilə bağlı məlumat yoxdur. Səfər İmanov Hicran xanımın dayısı oğludur. Hər halda, onun harada olduğunu və Azərbaycandan qaçdığını bilməmiş olmaz. Şikayətçi olan şəxs deyir ki, Səfər İmanov qaçmamışdan öncə Azərbaycanda adına olan bütün mülklərini satıb".

Qalmaqalla bağlı AQUPDK-dan report.az-a bildiriblər ki, Səfər İmanov 2015-ci ilin 1 noyabrında işdən çıxıb. İşlədiyi müddətdə 2 dəfə töhmət alıb. İşdən azad olunmasının səbəbi kimi DK-nin bir neçə əməkdaşından öz problemlərinin həlli məqsədilə pul vəsaiti istəməsi göstərilir. Qeyd olunur ki, S.İmanov anası və ailə üzvlərinin səhhətindəki problemlərlə bağlı dəfərlərlə DK rəhbərliyinə müraciət edib. Eyni zamanda 4 uşaq atasıdır. Onun işdən çıxarılmasının təxirə salınması da elə məhz bu kimi səbəblərdən gecikdirilib. İş prosesində yol verdiyi nöqsanlar da fəaliyyətinin dayandırılmasına əsas olub.



Hicran Hüseynova

**S.İmanov işdən ayrıldıqdan bir neçə ay sonra 170 min dollarının mənimsənilməsini iddia edən Kərimov Eynur adlı şəxs DK-ya müraciət edib. Həmin vətəndaşın dediyinə görə, o, 4 il əvvəl S.İmanova pul vəsaiti təqdim edib. Və bu 4 il müddətində həmin şəxs S.İmanovla yaxın əlaqədə olub:** "Burdan sual ortaya çıxır ki, niyə bu 4 il ərzində həmin vətəndaş tərəfindən rəsmi şəkildə komitəyə və digər hüquq-mühafizə orqanlarına müraciətlər edilməmişdir?! Biz məsuliyyətlə qeyd edirik ki, həmin şəxslə komitə sədri xanım Hicran Hüseynovanın işlə təmin edilməsi və hər hansı pul vəsaitinin verilməsi ilə bağlı heç bir əlaqəsi və danışıqları olmayıb. Hicran Hüseynova kimisə vəzifəyə təyin etmək üçün inzibati və rəsmi səlahiyyətlərə malik deyil. Səfər İmanovun Hicran Hüseynovanın dayısı oğlu olması ilə bağlı məlumatlar yanlışdır".

**DK-dan bir daha rəsmi şəkildə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə müraciət etdiklərini açıqlayıblar:** "Məsələnin öz həllini tapması üçün araşdırmaların nəticəsi gözlənilir. Bizim müraciətdən sonra həmin vətəndaş vəkili ilə birgə hüquq-mühafizə orqanları ilə əlaqədən qaçır. Bildiririk ki, komitə və onun sədrinin ünvanına deyilən ittihamlar bir böhtandır, S.İmanovla həmin şəxsin arasında olan məsələlər isə istintaqdan sonra bəlli olacaq".

Mətbuat xidmətindən bildirilib ki, icra başçısının müavini təyin edilməklə bağlı Hicran Hüseynovanın əlaqəsinin olması haqda mətbuatda yer alan məlumatlar DK tərəfindən şər və böhtan kimi qiymətləndirilir.

DK "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi üzrə" prezident fərmanını xatırlatmaqla ölkə boyu qadın icra hakimi müavinlərinin sayının artaraq 85 nəfər olduğunu da diqqəta çatdırmağı vacib sayıb.

Bu qalmaqalla bağlı "Yeni Müsavat"a daxil olmuş digər bir məlumat bəzi mətləbləri də üzə çıxarıb.

Redaksiyamıza daxil olan məlumatda iddia olunur ki, AQUPDK ilə bağlı qalmaqal bir yox, bir neçə nəfəri əhatə edir. Komitə xətti ilə əvvəllər də başçı müavini təyinatları baş tutub. Belə təyinatlardan biri də Şəmkirin Rayon İcra Hakimiyyətində gerçəkləşib. Qaynağımız iddia edib ki, Şəmkirin icra başçısı Alimpaşa Məmmədovun müavini Məleykə Əlizadə də komitə xətti ilə bu vəzifəyə gətirilib. Məlumdur ki, Binəqədi, Şəmkir, Gədəbəy rayonları vergilər nazirinin qeyri-rəsmi qubernatorluğuna daxildir. 170 minlik qalmaqalla bağlı məhz bu rayonların seçilməsinin təsadüfi olmadığı bildirilir. Qeyd olunur ki, AQUPDK sədri ilə vergilər nazirinin işgüzar münasibətləri var. Bu səbəbdən nazirin patronajlığı altında olan rayonların icra hakimiyyətlərində müavin postlarına namizədlərin irəli sürülərkən H.Hüseynovanın da təqdim etdiyi namizədlər adları siyahılara salınıb. Sonradan namizədin həmin posta təyin olunub-olunmaması isə H.Hüseynovanın iradəsindən kənar olub.

Bu baxımdan H.Hüseynovanın qohumu olduğu bildirilən Səfər İmanov vətəndaşdan 170 min manat alıb "səni başçı müavini təyin etdirəcəyəm" deyə bilməsinin ciddi əsasları olub. Hazırda məsələ ilə bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılır. AQUPDK rəsmisi Elgün Səfərov məsələnin araşdırılması üçün yalnız onların müraciət etdiklərini söyləsə də, vəkil Adəm Məmmədov da hüquq mühafizə orqanlarına yazılı müraciət etdiyini açıqlayıb.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 38 (6359) 18 fevral 2016

**Azərbaycanda əmanətlərin banklardan çıxarılması ilə bağlı ciddi problem yaşanır. İstər bağlanan banklardan əmanətlərin geri qaytarılması, istərsə də fəaliyyəti davam edən banklardan əmanətlərin çıxarılmasında problemlər var.**

Bəzi banklar vətəndaşlara əmanətlərini qaytarmaqdan imtina edir. Bağlanan bankların aktivləri və passivlərinin qiymətləndirilib cəmiyyətə məlumatların verilməsi prosesi isə gecikdirilir.

Əmanətlərin Sığortalanması Fondu əmanətlərin bir qismini qaytarsa da, məbləği 30 min manatdan yüksək olan əmanətlərin taleyi məchuldur. Proseslərin bu cür davam etməsi, əhalini kütləvi şəkildə əmanətlərini banklardan çıxarmağa məcbur edib. Ekspertlər dövlətin bu sahədə ciddi addımlar atmasını vacib hesab edir. Əks halda, bu, həm əmanətçilərin narazılığına, həm də bankların müflis olmasına səbəb ola bilər.



# Yanvarda 1 milyard manat əmanət banklardan çıxarılıb

## Ekspertlər: "Bankların bağlanması prosesində zərərçəkənlərin sayı artacaq"

**İqtisadçı ekspert Rəşad Həsənov da bildirdi ki, bankların ləğv edilməsi prosesində zərərçəkənlərin sayı artır:** "Hazırda əsas iş bağlanan banklar "Gəncəbank" və "Bank of Azerbaijan" üzərində gedir. Artıq "Gəncəbank" haqqında qərar var ki, bank ləğvetməyə getsin. Lisenziyası dayandırılıb, lakin ləğvetmə prosesi bugünlərdə başlaya bilər. Bundan əlavə, "Kredobank" ilə bağlı da hüquqi proseslər başlayacaq. Lisenziyası ləğv olunan digər bankların isə hansısa formada birləşmə ehtimalı var. Əgər bu proses baş tutarsa, bu bankların ləğv edilməsi dayandırıla bilər. Əmanətlərin qaytarılmasına gəlincə, hazırda daha çox şikayət "Bank of Azerbaijan"dan gəlir. Mərkəzi Bankın bu bankın lisenziyasını ləğv etməzdən əvvəl və sonrakı dövrlərdə Əmanətlərin Sığortalanması Fondu tərəfindən insanların əmanətlərinin qaytarılması prosesi başladı və qısa müddət ərzində ciddi rəqəmlərlə ifadə olunan əmanətlər vətəndaşlara geri qaytarıldı. Ancaq təbii ki, bankların ləğv edilməsi prosesində zərərçəkənlər oldu".

**Ekspert vurğuladı ki, bankların maliyyə durumu ilə bağlı məlumatlar açıqlanmadığı üçün bu prosesin mənfi nəticələrini sonrakı dövrlərdə görəcəyik:** "Hələ ki bağlanan bankların aktivləri və passivləri arasında fərqin nə qədər olması ilə bağlı məlumatlar cəmiyyətə açıqlanmayıb və qiymətləndirmə prosesi də başa çatmayıb. Amma sığortalanan əmanətlərin geri qaytarılması ilə bağlı hər hansı ciddi narahatlıq müşahidə olunmur. Narahatlıq daha çox sığortalanmayan əmanətlərin qaytarılması ilə bağlıdır. Banklar bağlanan zaman daşınmaz əmlak da daxil olmaqla, onların bütün aktivləri və passivləri qiymətləndirilir. Bunların reallaşması, kreditlərin yığılması, aktivlərin və daşınmaz əmlakın satılması və banka aid olan sair yığımlar həyata keçirildikdən sonra bankın borclarının qaytarılması prosesi gedir. Bu, uzunmüddətli bir prosesdir və bu səbəbdən də hansı nəticələrin ortaya çıxacağını demək çətindir. Düşünürəm ki, müəyyən narazılıqlar olacaq".

**Rəşad Həsənovun sözlərinə görə, bağlanan bankların maliyyə vəziyyəti heç də yaxşı deyil:** "Bu prosesin hesabatlılığı ilə bağlı da müəyyən problemlər var ki, bu da vəziyyətin düzgün qiymətləndirilməsinə imkan vermir. Son günlərdə də lisenziyası ləğv olunan "Texnikabank"ın əmanətləri ilə bağlı məsələ də bunu göstərdi ki, son anda 46 milyona yaxın yeni əmanət ortaya çıxmışdı. Yəni banklar zamanında şəffaf məlumat verməyiblərsə, Mərkəzi Bank qarşısında hesabatlılığı yerinə yetirməyiblərsə, təbii ki, bu kimi problemlər ortaya çıxacaq. Bu, daha çox sığortalanmayan əmanətlərə aid olacaq".

**Bank və maliyyə məsələləri üzrə fəaliyyət göstərən hüquqşünas Əkrəm Həsənov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bir sıra banklardan əmanətlərin çıxarılmasında da problemlər yaşanır:** "Qanunvericiliyə görə, əmanətin dörddə bir hissəsi əmanətçiyə dərhal, tələb etdiyi gün, qalan dörddə üç hissəsi isə 5 iş günü ərzində qaytarılmalıdır. Ancaq indi bəzi banklar aylarla əmanəti vətəndaşa qaytarmır. Bu, qanunvericiliyin kobud şəkildə pozulmasıdır. Nə Mərkəzi Bank, nə də digər dövlət orqanları bu sahədə hər hansı tədbir görmür. Əslində belə bankın lisenziyası əlindən alınmalıdır, ancaq təəssüf ki, alınmır. Bu baxımdan əmanətçilərin ciddi problemləri var. Ona görə də, əhali əmanətlərini banklara qoymur, çalışırlar ki, banklardan çıxartsınlar. Hesab edirəm ki, bu tamamilə əsaslı və düzgün addımdır".

**Hüquqşünasın sözlərinə görə, əgər vətəndaşlar əmanətlərini banklardan çıxara bilmirsə, dövlət də heç bir tədbir görmürsə, əhali banklarda əmanətləri saxlamasa daha yaxşı olar:** "Vətəndaşlar məhkəmələrə müraciət edə bilərlər, haqlarını tələb edə bilərlər. Ancaq bu uzun bir prosesdir, illərlə davam edə bilər. O zaman həmin müddətə qədər o bank da bağlana bilər. Ancaq bu heç də o demək deyil ki, məhkəməyə müraciət edilməməlidir. Vətəndaşlar həmin bankları məhkəmələrə verməli və müflisliyini elan etməyini tələb etməlidirlər, sonra bu məsələni ictimailəşdirməlidirlər. Əgər bizdə normal bank sistemi olsaydı, buna ehtiyac qalmazdı. Çünki belə olan halda həmin banklar bağlanmalı idi.

Əmanətlər yalnız bankların bağlandığı hallar üçün sığortalanır və bank bağlanandan sonra Əmanətlərin Sığortalanması Fondu tərəfindən ödənilir. Ancaq bank bağlanmayıbsa və vətəndaşa əmanətini vermirsə, bu zaman sığortalanmanın da vətəndaşa xeyri yoxdur. Yəni ona heç kim kompensasiya ödəmir. Bu halda dövlətin əmanəti sığortalaması sistemi də etibarını itirir və hamı görür ki, bu sistem reallıqda işləmir".

**Ekspert əmanətlərin banklardan çıxarılması prosesinin sürətləndiyini, əmanət qoyuluşunun isə azaldığını ifadə etdi:** "Yanvarın 1-nə olan məlumata görə, əhalinin banklarda təxminən 9 milyard manata yaxın əmanəti var. Dollar ekvivalentində bu təxminən 6 milyard dollar edir. Əmanətlərin xeyli hissəsi dollarla olduğu üçün dollarla ifadə etmək daha doğru olar. Bir il əvvəlki dövrlə müqayisədə banklarda 4 milyard dollar əmanət azdır. Ötən il əmanətlər 10 milyard dollar həcmində idi. Yəni banklara əmanətlərin qoyulması məhdudlaşıb. Bu, yanvarın 1-nə olan məlumatdır. Fevral ayı ilə bağlı məlumat hələ ki açıqlanmayıb. Ancaq ötən ay külli miqdarda əmanət banklardan geri götürülüb. Bizim hesablamalarımıza görə, yanvar ayında təxminən 1 milyard manat əmanət banklardan çıxarılıb".

❑ **Nərgiz LİFTİYEVA**

# Dollar kreditlərinə vətəndaş etirazı olsa...

## Əksər ekspertlərə görə, dollarla kreditin verilməsi qanunsuz olduğundan vətəndaşların hüquqları pozulur, ancaq...



**Ötən il baş verən iki ardıcıl devalvasiya dollarla kredit götürənləri çıxılmaz duruma salsa da, hökumət vətəndaşların problemini, onlara hökumətin yarıtmazlığı üzündən dəyən ziyanı düşünmür. Əhalinin dollarla götürdüyü kreditlərin həcmi kəskin artsa da, hər hansı güzəşt artıq müzakirə edilmir.**

Vəziyyətin bu qaydada davam etməsi vətəndaşların kütləvi narazılığına səbəb ola bilər.

Əksər ekspertlər bildirirlər ki, əhali kütləvi şəkildə kreditlərə etirazını bildirsə də, hökumət güzəştə getməyi düşünmür və bu, gözlənilmir. Əksər ekspertlərə görə, dollarla kreditin verilməsi qanunsuz olduğundan, vətəndaşın baş verənlərə etiraz etmək hüququ var.

**Ekspert Samir Əliyev məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, bu gün qanunvericilikdə kreditlərin valyutasına münasibətdə heç bir məhdudiyyət yoxdur:** "Bu, o deməkdir ki, banklar vətəndaşlara istənilən valyutada kredit verə bilər. Qanunvericilikdə bununla bağlı qadağa yoxdur. Sabah hansısa Rusiya bankı Azərbaycanda rublla kredit versə, vətəndaş təz gedib o krediti götürəcək. Hökumət kreditin ancaq manatla verilməsi barədə qərar verərsə, bu, artıq başqa bir situasiya yaradır. Burada əmanətlərlə bağlı problem ola bilər. Bu halda banklar da dollarla əmanət qəbul etməyi dayandıra bilərlər. Ümumən götürəndə bu gün vətəndaşlar kreditlərini qaytara bilmirlər. Bu, vətəndaşdan asılı olmayaraq hökumətin atdığı addım nəticəsində baş verib. Söhbət devalvasiyadan gedir. Hökumət ötən il iki devalvasiyaya getdi. Milli valyutanı iki dəfə ucuzlaşdırdı. Vətəndaşın da aylıq qazancı milli valyuta ilədir. Yaxud da onun qazandığı pul kredit ödəmə imkanını məhdudlaşdırır. Bu, hökumətin atdığı addımın nəticəsidir. Ona görə bir çox ölkələrdə belə vəziyyətdə hökumət dəstək olur, kompensasiya verir. Söhbət kreditin bağışlanmasından, yaxud vətəndaşın əvəzinə ödənilməsindən getmir. Azərbaycanda bu yol tutulmadı, nə birinci, nə ikinci devalvasiyada hökumət vətəndaşa dəstək olmadı. Bunun da çox ağır fəsadları olacaq. Ağır fəsadlara ola bilsin, hökumət nəzər yetirmir. Bu fəsadlar artıq dollarla kreditlərin qaytarılmamasıdır. Bu da bank sektorunun çökməsinə gətirib çıxaracaq. Ölkənin maliyyə bazarında ciddi böhran yaradacaq, banklar, bank sistemi etibarını itirəcək. Milli valyutaya etibar itəcək. Bu baxımdan, düşünürəm ki, dollar kreditləri probleminin belə saxlanması, bankların üzərinə atılması düzgün olmayan bir addımdır. Banklar da vətəndaşlara güzəşt etmir. Ən yaxşı halda kredit faizi cüzi aşağı salınır. Bu da vətəndaşın kreditinin şişməsinə səbəb olur. Bir tərəfdən vətəndaş iş yerini itirir, digər tərəfdən də ödədiyi aylıq devalvasiya nəticəsində artıb. Bunun acı nəticəsini qarşıdakı aylarda görəcəyik".

**Ekspert Əkrəm Həsənov isə musavat.com-a deyib ki, dollar kreditləri ilə bağlı kütləvi etiraz olarsa, əhali kütləvi şəkildə kreditlərini ödəməkdən imtina edəcək:** "Bunun da nəticəsində bankların xeyli hissəsi çökəcək, bağlanacaq, müflis olacaq. Banklar əmanətləri qaytara bilməyəcək. Bir neçə günə əmanətlərin tam sığortalanmasını nəzərdə tutan qanunun qüvvəyə minməsi gözlənilir. O qanun qüvvəyə minsə, bütün əmanətlər tam sığortalı olacaq. Yəni o zaman kreditlər qayıtmasa, əhali kredit borcunu qaytarmasa, yük dövlətin üzərinə düşəcək. Buna görə də probleme dövlət də qarışmağa çalışacaq. Biz indi yəqin ki, bəlkə də bir neçə gün ərzində yeni bankların bağlanmasını görəcəyik. Yaxud da hansı yollasa onlara köməyi görəcəyik. Çalışacaqlar ki, bu problemlər dövlətin üzərinə düşməsin. Ötən il Konstitusiya Məhkəməsinə dollar kreditləri ilə bağlı səhv qərar qəbul etdirilməsi üçün təzyiq etdilər. Hesab edirəm ki, hökumət bir daha bu məsələyə qayıtmayacaq. Ümumən artıq indidən görmək olar ki, əhaliyə verilən kreditlərin çoxu qayıtmayacaq. Bank sistemi üçün gələcəkdə də ciddi problemlər ortaya çıxacaq".

**Ə.Həsənov həmçinin qeyd edib ki, bir ilə yaxındır ki, borclulara birləşərək banklara və digər sələmçilərə qarşı qanunvericilik çərçivəsində mübarizə aparmağı tövsiyə edir:** "Birləşmənin yollarından biri antikollektor qurumlarının yaradılmasıdır. Əhalinin belə bir quruma ehtiyacı var. Artıq antikollektor hüquq şirkəti yaradılıb. Şirkətin fəaliyyəti sırf əhalinin və sahibkarların kreditorlara, yəni banklara, bank olmayan kredit təşkilatlarına və sair sələmçilərə qarşı mübarizəsində hüquqi dəstəkdən ibarət olacaq".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 38 (6359) 18 fevral 2016



# “MTK-ların fırıldaqçılığı mənzil bazarına mənfi təsir edir”

## “Qanun qəbul olunmalıdır, tikinti müəyyənləşmiş müddətdən uzanarsa, o zaman həmin bina dövlətin nəzarətinə keçməlidir”

**Bakıda tikinti şirkətlərinin insanları aldatması ənənəvi hal alıb. Elə “Yeni Müsavat”ın redaksiyasına müxtəlif mənzil-tikinti kooperativlərindən (MTK) şikayətçi kimi müraciət edənlərin də sayı bunu deməyə əsas verir.**

Ekspertlər bildirirlər ki, bu kimi halların çoxalması Bakıda mənzil satışına da mənfi təsir göstərib. Xüsusilə də insanlar artıq hazır olmayan bina üçün öncədən pul ödəməkdən çəkinirlər.

Şikayətlərin ən çox edildiyi MTK-lar isə aşağıdakılardır:

**“Yeni Yasamal” MTK.** Şikayətçilər qəzetimizə bildiriblər ki, bu qurumun tikdiyi Şeyx Məhəmməd Xiyabani küçəsi 5 ünvanındakı, hələ tam hazır olmayan 16 mərtəbəli yaşayış binasından mənzil alan 256 nəfərin böyük əksəriyyəti 10 ilə yaxındır ki, hələ öz evlərinə sahib ola bilməyiblər. Qurumun hətta bəzi mənzilləri bir neçə nəfərə satdığı da iddia olunur. Lakin MTK-nın sədri Cahangir Alışovun vəkili Habil Fətəliyev musavat.com-a məsələ ilə bağlı söyləyib ki, yaxın zamanlarda mənzillər sakinlərə təhvil veriləcək.

İnsanları aldadaraq milyonlarla pulunu mənimsəyən tikinti şirkətləri arasında **“Sevil Massivi”nin** də adını çəkmək olar. Bu qurumdan da onlarla vətəndaşımız şikayətçidir.

Mətbuatda vətəndaşların şikayətçi olduqları tikinti qurumları arasında “İdeal-İ İnşaat” MMC-nin də adı çəkilir. Bu qurum da 10 il öncə mənzil alıcıları ilə müqavilə bağlayıb, hələ də evləri sahiblərinə təhvil verməyibləri bildirilir.

**Məsələ ilə bağlı musavat.com-a danışan iqtisadçı alim Vüqar Bayramov bildirdi ki, bu kimi halların çoxalması Bakıda mənzil satışına da mənfi təsir göstərib. Xüsusilə də insanlar artıq hazır olmayan bina üçün öncədən pul ödəməkdən çəkinirlər:**

“Son illər binaların müqavilədə göstərilən tarixdə istifadəyə verilməməsi halları artıb. İnsanlar ödəniş etmələrinə baxmayaraq mənzillərini zamanında ala bilmirlər. Bina vaxtında təhvil verilmədikdə isə hansısa iqtisadi dəyişiklik olduğu zaman tikintidə də artıq öncədən hesablanan vəsaitlərin miqdarı dəyişir. Təklif edirik ki, bir sıra inkişaf etmiş ölkələrdə olduğu kimi binaların istifadəsi ilə bağlı konkretlik müəyyənləşsin. Avropa ölkələrində əgər bina müqavilədə nəzərdə tutulan müddətdə istifadəyə verilmirsə, yaxud da tikinti qanunla müəyyənləşmiş müddətdən uzanırsa, o zaman həmin bina dövlətin nəzarətinə keçir. Azərbaycanda da bu qaydaların sərtləşdirilməsinə ehtiyac var. Hətta bina sahibi mənzil alan vətəndaşın pulunu geri qaytarsa belə, pul dəyərsizləşdiyi üçün o, həmin məbləğə ev ala bilmir. Çox təəssüf ki, bu proseslər artıq kütləvi hal alıb. Son illərdə tikintisi başa çatmayan binalara edilən ödənişlər kəskin şəkildə aşağı düşüb. İnsanlarda artıq inamsızlıq yaranıb ki, ödəniş etdikdən sonra aldanıla bilərlər. Bu isə dolayısı ilə mənzil bazarına da öz mənfi təsirini göstərib. Nəticədə isə yeni tikililər və tikilməkdə olan binalar üçün mövcud durum kifayət qədər böyük sarsıntıdır”.

**Məsələnin hüquqi tərəfləri barəsində isə hüquqşünas Müzəffər Baxışla danışdıq. O bildirdi ki, əslində mənzil-tikinti kooperativlərinin formalaşma qaydası başqa cür olmalıdır:**

“Qanunun tələbinə görə, kooperativ təsis edilən zaman üzv şəxslər tikintiyə əmlak payları qoymalıdırlar. Bina hazır olduqdan sonra isə həmin şəxslər əmlak paylarına uyğun olaraq mənzillə təmin edilməlidir. Ancaq Azərbaycanda bunu söylədiyim qaydada etmirlər. Beş nəfər yığışıb bir kooperativ təsis edir, sonra isə bu şəxslər binanı tikməyə başlayırlar. Vəsaitləri çatmadığına görə də tikintiyə əlavə üzvlər cəlb edirlər ki, sonra həmin şəxslər mənzilsiz qalırlar. Tikinti sahəsində fəaliyyət göstərən istənilən cəmiyyətlər Mülki Məcəllənin cəmiyyətlər və kooperativlər üçün nəzərdə tutulan hüquq normalarının tələblərini kobud şəkildə pozurlar. İnsanların vəsaitlərini cəlb etsələr də bir çox hallarda heç tikintini də başa çatdıra bilmirlər. Yaxud da eyni mənzili yuxarıda sadaladığım səbəblərə görə bir neçə nəfərə satırlar. Son zamanlar prokurorluq orqanları tərəfindən bu kimi kooperativlərlə bağlı çoxsaylı cinayət işləri başlanılıb. İnsanlar diqqətli olsunlar. Tanınmayan bu kimi kooperativlər, cəmiyyətlər, tikinti ilə məşğul olan fiziki şəxslərə mənzil üçün pul verməsinlər”.

❑ Əli RAİS




# Üçüncü devalvasiya anonsu: iki-üç ay sonra...

## Ekspertlər bildirirlər ki, Mərkəzi Bankın manatın yenidən ucuzlaşmasının qarşısını almaq üçün gördüyü tədbirlər nəticə verməyəcək...

**Mərkəzi Bankın ikinci devalvasiyadan sonra atdığı addımlar narahatlıqdan və üçüncü devalvasiya təhlükəsindən xəbər verir. Valyutadəyişmə məntəqələrinin bağlanması, marja (valyutanın satış məzənnəsinin alış məzənnəsindən kənarlaşma həddi) ilə bağlı limitin qoyulması, banklara manatla kreditlərin verilməməsi, üstəlik, dolların da realda satılmaması kimi məsələlər ekspertləri narahat edir. Bildirilir ki, üçüncü devalvasiya realdır, gözlənilməndir, sadəcə olaraq, Mərkəzi Bank bir qədər vaxtı uzatmağa çalışır...**

**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, manatın devalvasiyası uzunmüddətli perspektivdə qaçılmazdır: “Aydın məsələdir ki, neftin qiymətinin artmaması və neft hasilatı həcminin düşməsi ona gətirir ki, Azərbaycanın valyuta gəlirləri azalan xətlə gedir. Artma ehtimalı da yoxdur. Buna görə də manatın devalvasiyası uzunmüddətli perspektivdə qaçılmazdır. Bu barədə nə qədər danışsalar da, devalvasiyanın olmayacağını desələr də, olacaq. Yalnız söhbət gedir ki, bu, nə vaxt baş verəcək- iki-üç, yaxud beş aya? Mərkəzi Bank bunun qarşısını guya almaq istəyir. Dövriyyəyə əlavə milli valyuta buraxmaqdan qorxur, manat satmır. Əslində Mərkəzi Bank dövriyyəyə pul buraxmalıdır ki, bunu etmir, manat krediti vermir. Qorxur ki, o pulu da gəlib dollara dəyişdirəcəklər, valyuta ehtiyatları tamamilə bitəcək. Amma dövriyyədə manatın olmaması ona aparır ki, indi iqtisadiyyatımız iflic vəziyyətindədir. Mərkəzi Bank iki-üç aya dövriyyəyə milli valyuta buraxmağa məcbur olacaq. Onu buraxan kimi də devalvasiya davam edə bilər. Devalvasiyanın hansı həcmdə olmasını demək çətindir. Yeni Mərkəzi Bank növbəti manat buraxılışlarını təyinatlı, məqsədli etsə, banklara da nəzarət olunsa ki, onlar dolları dəyişməyə yox, iqtisadi inkişafa sərf etsinlər, o halda devalvasiyanın həcmi az ola bilər. Amma bunu etməsə, yüksək olacaq. Hesab edirəm ki, Mərkəzi Bankın indiki rəhbərliyi ağıllı hərəkət edə bilməyəcək. Ona görə də devalvasiya qaçılmazdır”.

**Ekspert Samir Əliyev isə musavat.com-a deyib ki, süni şəkildə yaradılan manat qıtlığı problemi həll etməyəcək:** “Mərkəzi Bank ikinci devalvasiyaya gedəndə bunu belə əsaslandırdı ki, manat üzən məzənnəyə keçir. Bu, o deməkdir ki, məzənnə tələb və təklif əsasında formalaşacaq. İlk günlərdə bunu müşahidə etdik, tələb və təklif əsasında manatın məzənnəsində dəyişiklik oldu. Bu dəyişiklik də çox təəssüf ki, manatın əleyhinə işləməyə başladı. Mərkəzi Bank bazarın öhdəsinə buraxanda manatın dollara məzənnəsinin 1,80 nisbəti ilə bazarda qiymətlər formalaşdı. Ona görə Mərkəzi Bank məcbur oldu marjanı ləğv etdi, sonradan bərpa etməyə məcbur oldu. Bir az intervalı çox, 4 faiz qoydu. Bu, bir qədər bazarda müvəqqəti də olsa, bir sabitlik yaratdı. Ardınca Mərkəzi Bank pul kütləsini sıxmağa başladı. Onsuz da birinci devalvasiyadan sonra pul kütləsini azaldırdı. Və ikinci devalvasiyadan sonra bu proses davam etdi. Hərraclarda da manatla bağlı təklifi tənzimləməyə başladı. Bununla göstərməyə çalışdı ki, dollara tələbat yoxdur, artıq manat möhkəmlənib, bankların dollara ehtiyacı yoxdur. Əslində bunun səbəbi başqadır. Səbəbi odur ki, Mərkəzi Bank pul kütləsini sıxıb, dövriyyədə manat azaldılıb. Banklar manat tapa bilmir, buna görə də dollar almağa pulları yoxdur. Əllərində olan manatı onlar dollar almağa yox, öz korporativ öhdəliklərini yerinə yetirməyə yönəldirlər. Ona görə də belə süni şəkildə qıtlıq yaradılır. Manat bahalaşır süni surətdə. Bu, birinci devalvasiyadan sonrakı prosesin təkrarıdır. Devalvasiyadan sonra da manat bahalaşmağa başladı. Bu, düzgün olmayan bir addımdır. Bəlkə də maliyyə sabitliyi, manata etibar yaratmaq üçün bir psixoloji addımdır. Ancaq bu gün manatın bahalaşmasının gerçək iqtisadi əsası yoxdur. Manatın üzən məzənnəyə keçidi elan olunan kimi dəyərini kəskin itirəcək. Mərkəzi Bank dəstək verməlidir. Amma valyuta ehtiyatları da azalır. Bu gün ehtiyatlar 5 milyarddan da aşağı düşüb. Deməli, Mərkəzi Bank bunu uzun müddət saxlaya bilməyəcək. Proseslər onu göstərir ki, manata təzyiqlər var. Əgər neftin qiymətində dəyişiklik olmasa, bahalaşma olmasa, düşünürəm ki, manatı indiki kimi saxlamaq çox çətin olacaq. Manatın bahalaşması real deyil, əsası yoxdur. Ona görə də manat dəyərini itirəcək. İndi bunun adı üçüncü devalvasiya olacaq, olmayacaq, fərqi yoxdur. Nəzərə alsaq ki, rəsmi olaraq manatın məzənnəsi üzən məzənnə olduğuna görə, bu, o deməkdir ki, onun məzənnəsini bazar müəyyənləşdirir. Nəzəri olaraq sabah bazarda manatın dəyərdən düşməsini müşahidə etsək, Mərkəzi Bank bunun adını devalvasiya qoymaya bilər. Mərkəzi Bank elan edə bilər ki, devalvasiya baş verməyib, üzən məzənnəyə, bazara uyğun olaraq manat dəyərini azaldıb. İstənilən halda, bu, manatın dəyər itirməsidir. Ölkədə dollar qıtlığı var, çıxan dollar gələn dollardan azdır”.

❑ Röya RƏFİYEVA

# “Tikinti bumunun yenidən başlaması evlərin ucuzlaşmasına səbəb olacaq”

## Vahid Əhmədov: “İnşaat sektorunda şəffaflığın artırılmasına da çox böyük ehtiyac var”

**Fevralın 16-da fövqəladə hallar naziri Kəmaləddin Heydərov tikinti sahəsində fəaliyyət göstərən sahibkarlarla görüş keçirdi. Nazir görüşdə bildirdi ki, qarşıya qoyulan əsas məqsəd respublikada tikinti işlərinin sürətləndirilməsi və mövcud problemlərin aradan qaldırılmasıdır.**



Nazirin bu çıxışından sonra ictimaiyyətdə artıq belə bir fikir yaranıb ki, Azərbaycanda tikinti bumu baş verəcək.

Ölkənin mövcud iqtisadi vəziyyətində tikinti sektorunda canlanma yarana bilərmi?

Məsələ ilə bağlı musavat.com-a danışan **Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü, deputat Vahid Əhmədov** bildirib ki, son zamanlar ölkə başçısı tərəfindən çox ciddi iqtisadi islahatlara start verilib: “Dünən *(srağagün-red.)* Qubada insanları qəbul edib, onların vəziyyəti ilə maraqlanırdım. Orada sahibkarlarla da görüşdüm. Öyrəndim ki, artıq gömrük sahəsində də stabilləşmə, şəffaflıq prosesi gedir. Rayonda hətta bəzi məhsulların qiymətində də ucuzlaşma hiss olunur. Yəni hər sahədə artıq islahatlar aparılır. Azərbaycanda daha tez inkişaf edən sahələrdən biri də tikinti sahəsidir. Əgər zavod və ya fabrikin tikintisi başladıqdan bir neçə il sonra orada insanlar işlə təmir olunursa, tikinti sektorunda işlər başlandığı andan bu, baş verir. Bu baxımdan tikinti sahəsində şəffaflığın artırılmasına çox böyük ehtiyac var. Burada baryerlər həddən artıq çoxdur. Sahibkar bildirir ki, mən evi təhvil verdiyim zaman 30-dan çox idarəyə müraciət edirəm. Ona görə də cənab nazir tərəfindən söylənilənlər, bu sahə üzrə görülən işlər müsbətə doğru atılan addımlardır”.

**V. Əhmədov bildirib ki, atılan addımlar tikinti bazarının aktivləşməsi, insanların yeni mənzillərlə təmin edilməsi üçün şərait yaradacaq:**

“Milli Məclisin növbəti plenar iclasında dövlət büdcəsinə də baxacağıq. Dövlət büdcəsindən sosial layihələr üçün vəsaitin ayrılması nəzərdə tutulub. Lazımi işlər aparılır və hesab edirəm ki, bu, yaxın zamanlarda müsbət nəticələrini verəcək. Mənzillərin ucuzlaşmasına gəlincə isə bu proses artıq başlayıb və davam etməkdədir. Manatın iki dəfə devalvasiyası ilə əlaqədar olaraq, insanların əllərində olan vəsait müəyyən qədər dəyərdən düşdü. Bu baxımdan bazarda evlər ucuzlaşsa da durğunluq müşahidə olunur. Əgər kütləvi şəkildə söküntülər və tikilmələr baş verərsə, evlərin qiymətində müəyyən qədər ucuzlaşma da müşahidə olunacaq. Eyni zamanda mənzil bazarındakı durğunluq da aradan qalxacaq. Cənab prezident söyləmişdi ki, ipoteka kreditləşməsi üçün də əlavə 200 milyon manat vəsait ayrılacaq. Ümumiyyətlə, tikinti sahəsinin aktivləşməsi işsizliyin müəyyən qədər azalmasına, mənzil bazarının aktivləşməsinə və insanların evlə təmin olunmasına müsbət təsir göstərəcək”.

❑ Əli RAİS

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 38 (6359) 18 fevral 2016

# Ankaranın Qarabağ mesajına Bakıdan təşəkkür mesajı

## **Azərbaycan XİN:** "Türkiyənin bu mövqeyi Azərbaycan tərəfindən çox yüksək qiymətləndirilir"; Ankaranın ərazilərimizin işğalı ilə bağlı ortaya qoyduğu mövqe nə vəd edir? Hərbi və siyasi ekspertlərin şərhi...

**Türkiyə prezidentinin Azərbaycan səfəri ərəfəsində qardaş ölkənin baş naziri Əhməd Davudoğlunun Qarabağ münaqişəsindən də bəhs edən mesajları siyasi kuluarlarda ciddi müzakirə olunmaqdadır. Moskva-Ankara münasibətlərindəki gərginliyin Azərbaycana və üstəlik, Qarabağ münaqişəsinin həllinə də təsirinin olacağını qaçılmaz sayan siyasi analitiklər cənab Davudoğlunun Kiyevdən verdiyi açıqlamaları Ermənistan-Azərbaycan konfliktinin yeni müstəviyə çıxa biləcəyinin anonsu da sayırlar.**



Baş nazirin "Ermənistan Azərbaycan torpaqlarını Rusiyanın dəstəyi ilə işğal edib" bəyanatına fərqli yanaşmalar var. Bəzi ekspertlər Azərbaycan ərazilərinin işğalının arxasında Rusiya faktorunun dayanması barədə ciddi mövqelərini səslənməsini Azərbaycanın aktivinə yazmağın tərəfdarıdırlar. Hesab olunur ki, Gürcüstan, Moldova və Krımdakı separatçıların arxasında Kremlin dayandığına şübhə etməyən beynəlxalq aləmin, nəhayət, Dağlıq Qarabağ münaqişəsini "fərqli konflikt" kimi təqdim etməsinə son qoyula bilər. Bu, həm də Azərbaycanın zəif Ermənistanla deyil, imperiya varisi Rusiya ilə üz-üzə qaldığı barədə həqiqətin təsdiqlənməsinə, son nəticədə dəstəklənməsinə aparıb çıxara biləcək faktordur.

Qeyd edək ki, ötən il Azərbaycan prezidenti ilə görüşü zamanı Almaniyanın baş kansleri A.Merkel də Qarabağ cəbhəsində baş verənlərə görə Rusiyanı günahlandırmış, onun Ermənistanı himayə etdiyini vurğulamışdı. Bu mənada Davudoğlunun bəyanatı önəmli sayılır. Hesab olunur ki, Azərbaycan rəsmilərinin mövcud vəziyyəti nəzərə alıb açıq şəkildə bəyan edə bilmədiyi həqiqəti Türkiyənin hökumət başçısının dilə gətirməsi təqdir olunmalıdır.

Başqa yanaşmalar da var. Bəzi müşahidəçilər bu kimi mövqelərin sonucunda Türkiyənin Azərbaycana birbaşa hərbi yardımı məsələsini gündəmə gətirəcəyini zənn edirlər. Güman olunur ki, Ankara NATO-nun razılığını alaraq Azərbaycan ərazilərinin terrordan təmizlənməsi prosesində Bakıya dəstək verə bilər. Bəs Qarabağla bağlı Rusiyanın adının açıq şəkildə hallandırılması nə vəd edir? Bu, Rusiyanı qıcıqlandıra və savaşı alovlandıra, Ermənistanı açıq şəkildə müdafiə etməsinə gətirə bilər, yoxsa Türkiyə və NATO-nun Qarabağ məsələsində Rusiya və onun himayə etdiyi işğalçıya qarşı dayanmasına səbəb ola bilər?

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a dedi ki, Əhməd Davudoğlunun belə bir bəyanatı Rusiya-Türkiyə gərginliyinin öz pik həddinə çatdığı bir zamanda gözlənilən idi:** "Eyni zamanda onun bu bəyanatını məhz Ukraynada verməsinin səbəbi bütün regional müharibə ocaqlarının, o cümlədən Dağlıq Qarabağ, Donbas, Krım və digərlərinin də məhz Rusiyanın birbaşa iştirakı ilə yarandığını göstərmək idi. Təbii ki, Krım türkləri faktoru da Ukrayna üçün önəmli olduğundan Davudoğlu bir daha bu bəyanatı verdi və məhz bu və ya digər faktlara görə Rusiyaya qarşı tətbiq edilən sanksiyaların mənasını izah etməyə çalışdı. Bu bəyanatdan sonra Rusiya təbii ki, cavab reaksiyasında Türkiyə ilə bağlı bir sıra məsələləri, o cümlədən kürd və türkmənlərlə bağlı problemləri qabartmağa başladı. Ermənistana gəldikdə isə Davudoğlunun bəyanatından asılı olmayaraq, bu ölkənin Rusiyanın forpostu olduğu məlumdur. Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Rusiyanın addımı kifayət edə, yəni Azərbaycan-Ermənistan qarşıdurmasında Moskva neytral mövqe tutarsa, problem öz həllini tapa bilər".

**A.Nağıyev düşünmür ki, NATO bu bəyanatdan sonra öz mövqeyini dəyişəcək:** "Çünki NATO-nun başlıca istəyindən biri elə Rusiyanı müharibəyə sövq etməklə iqtisadi cəhətdən daha da tənəzzülə uğratmaqdır. NATO-nun Dağlıq Qarabağ münaqişənin həllinə münasibəti isə sülhün qorunması kontekstindən verilir. Bu gün münaqişənin həllinin həvalə edildiyi ATƏT-in Minsk Qrupunun həmsədrlərinin ikisi NATO dövlətlərini təmsil edir. Almaniya ATƏT-ə rəhbərlik edir və Rusiya ilə bağlı bəyanatlar da yayır. Lakin Osetiya, Abxaziya, əsasən də Krım məsələlərində daha müvafiq qərarlar qəbul edir. Təbii ki, Dağlıq Qarabağla bağlı Rusiyanın mövqeyi dolayı şəkildə göstərilsə də, konkret addımlar atılmır. Çünki Krim zəbt edilib və Rusiyanın tərkibinə qatılıb, Osetiya və Abxaziya isə Rusiya tərəfindən dövlət kimi tanınıb".

**Politoloq hesab edir ki, Rusiya Dağlıq Qarabağla bağlı bu addımı ata bilməz:** "Çünki heç Ermənistan da bu addımı ata bilmir. Bu, artıq istər BMT-nin, istərsə də beynəlxalq hüquq normalarının bütün prinsiplərinə ziddir. Ümumiyyətlə, Dağlıq Qarabağla bağlı Rusiyanın adının bu formada çəkilməsi düşünürəm ki, təqdirəlayiq haldır".

**Hərbi ekspert Üzeyir Cəfərov isə bildirdi ki, Davudoğlunun Kiyevdə verdiyi mühüm mesajlar hələ çox müzakirə mövzusu olacaq:** "Xüsusən də Davudoğlunun Rusiyanın baş naziri Medvedyevin Münhendə başa çatan Təhlükəsizlik Konfransında iki gün öncə "Krım Rusiyanın ayrılmaz hissəsidir və bu mövzu birdəfəlik bağlanıb" fikirlərindən sonra açıq şəkildə bunun tam əksi və tam həqiqəti əks etdirən "Krım Ukraynanın ayrılmaz tərkib hissəsidir" bəyanatını səsləndirməsini düşünürəm ki, ruslar asanlıqla həzm etməyəcəklər. Hələ üstəlik, Davudoğlunun Rusiyanı beynəlxalq hüquq normalarını pozmaqda günahlandırması çox ciddi vəziyyətdən xəbər verir. Hörmətli Əhməd bəyin Rusiyanı həqiqətən də 3 ölkədə - Ukrayna, Gürcüstan və Suriyada işğalçı durumda göstərməsi də hesab edirəm ki, tam ədalətli və haqlı mövqedir. Üstəlik Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin Rusiyanın dəstəyi ilə baş verməsi bəyanatı da düşünmürəm ki, bir yenilikdir. Sadəcə, bu, Davudoğlu ranqında diplomat və aparıcı dövlətin siyasət xadimi tərəfindən açıq şəkildə dilə gətirildiyinə görə bir qədər güclü təsir bağışlayır. Zatən, bütün ağıllı diplomatlar və sadə insanlar da bilirlər ki, Rusiya son illərdə çox qeyri-səmimi siyasət yürüdür və get-gedə həm nüfuzunu, həm də bir nüvə dövləti olaraq siyasi çəkisini itirməkdə davam edir".



Hikmət Hacıyev

**Ü.Cəfərovun fikrincə, bundan sonra ruslar çalışacaqlar ki, hansısa yollarla türklərdən, onların tərəfdarlarından qisas alsınlar:** "Bu, həm Türkiyə-Suriya sərhədində, həm də sözsüz ki, Qarabağ və Ermənistan-Azərbaycan dövlət sərhədində silahlı toqquşmalar formasında baş verə bilər. Son günlər Davudoğlunun bəyanatı, ardınca NATO-nun rəsmisi Ceyms Appaturayın Bakıda önəmli görüşləri və açıqlamaları Rusiyanın yuxusunu ərşə çəkəcək. Artıq Rusiya da başa düşür ki, Şimali Alyansın aparıcı dövləti olan Türkiyə rusların Qarabağla bağlı mövqeyini açıq şəkildə tənqid edirsə və işğalçının yanında Putin və komandasının olmasını qeyd edirsə, deməli, bu, tək bir ölkənin yox, çoxsaylı dövlətlərin bir növ mövqeyi və dəstəyidir. Bu, Azərbaycan üçün ən yaralı yerimiz olan Qarabağ məsələsinin nəhayət ki, həll olunması məsələsində bir növ dəstək kimi də anlaşıla bilər. Sadəcə, biz bu arada çalışmalıyıq bir qədər səliqəli və səhv olmayan siyasət yürüdək. Çünki bizim ən xırda bir ehtiyatsız sözümüz belə müttəfiqlərimizi və dostlarımızı küsdürə bilər. Mənim nə demək istədiyimi siyasətlə yaxından məşğul olan və bu işləri incələyənlər yaxşı anlayırlar".

**Artıq rəsmi Bakı da Davudoğlunun bəyanatına reaksiya verib. XİN-in mətbuat katibi Hikmət Hacıyev "Yeni Müsavat"a bunları bildirdi:** "Qardaş Türkiyənin beynəlxalq hüququn norma və prinsipləri və BMT Nizamnaməsinə uyğun olaraq Ermənistan - Azərbaycan münaqişəsi ilə əlaqədar ədalətli mövqeyi var. Türkiyənin bu mövqeyi Azərbaycan tərəfindən çox yüksək qiymətləndirilir. BMT Təhlükəsizlik Şurasının münaqişə ilə əlaqədar qətnamələrində də tələb olunduğu kimi, Türkiyənin mövqeyi də Ermənistanın işğalçı qoşunlarının bütün işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılması, həmçinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinin qəti şəkildə dəstəklənməsinə əsaslanır".

**XİN rəsmisi Azərbaycanın haqlı mövqeyinin davamlı şəkildə müdafiə olunmasını və beynəlxalq tribunalardan dəstəklənməsini yüksək qiymətləndirdi:** "ATƏT-in Minsk Qrupu həmsədrlərinin mövqeyindən asılı olmayaraq, Azərbaycan dəfələrlə üzv olduğu bütün beynəlxalq təşkilatlarda və digər platformalarda Ermənistanın ölkəmizə qarşı təcavüzü barədə məsələni qaldırıb və bu işi davam etdirəcək".

**Diplomatdan ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə növbəti görüşün nə zaman olacağını soruşduqda, bildirdi ki, bu barədə məlumatlı deyil:** "Sonuncu mətbuat konfransında xarici işlər naziri Elmar Məmmədyarov bildirdi ki, hazırda Azərbaycan ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşməyi planlaşdırmır". Amerikalı həmsədr Uorlikin "Azərbaycan əraziləri azad olunmalıdır" məzmunlu son açıqlamasına gəldikdə, H.Hacıyev qeyd etdi ki, burada yeni bir şey yoxdur: "Əslində yenilənmiş Madrid prinsiplərində birinci bənddir və ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri həmin bəndi yekdilliklə qəbul edib sənəd kimi ATƏT-in baş katibinə təqdim ediblər. Həmin bənd məhz Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasından ibarətdir. Təəssüflər ki, biz yenilənmiş Madrid prinsiplərinin həyata keçirilməsi istiqamətində təsirli addımları görmürük. Əslində bu prinsiplər münaqişənin həlli ilə əlaqədar yol xəritəsi rolunu oynaya bilər".

**XİN təmsilçisi hazırda rəsmi Bakının mövqeyinin nədən ibarət olduğunu da açıqladı:** "Azərbaycanın mövqeyi hazırda ondan ibarətdir ki, ATƏT-in Minsk Qrupuna daxil olan bütün dövlətlərin iştirakı ilə geniş formatda bir konfransın keçirilməsi məsələsinə baxılsın və ümumiyyətlə, Minsk Qrupunda iştirak edən 11 dövlətin hamısı bu prosesdə fəal olsun və münaqişənin həllinə öz töhfələrini versinlər. Azərbaycan bu mövqeyində israrlıdır".

**Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin isə Rusiya-Türkiyə münasibətləri tarixində gözlənilməzliklər çoxluğuna diqqət çəkərək Bakını ehtiyatlı olmağa çağırıb:** "Azərbaycan bu nüansı həmişə diqqətdə saxlamalıdır və tələsik addımlar atmamalıdır. Nə bilmək olar, bəlkə yenə də Ankara Moskvanın dəstəyindən istifadə edəcək. Bəlkə Ankara hələ Atatürk zamanından mübahisəli qalmış Hələb və ya Mosul şəhərlərinə yenidən qayıtmağın yolunu məhz Rusiyanın yardımı ilə tapacaq. Hər halda, Rusiya-Azərbaycan, yaxud Türkiyə Azərbaycan münasibətləri bu cür gözlənilməzliklərdən zərər görməməlidir".

Səfir Qarabağ məsələsinə toxunmayıb, ancaq ən uzağı Rusiyanın ənənəvi münasibətini ifadə edib Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını deyə bilərdi. Ancaq fakt faktlığında qalır və əksəriyyət buna əmindir ki, Rusiyanın tək barmağının işarəsi Ermənistanın işğalçılıq siyasətinə son verməsi üçün yetərlidir. Lakin status-kvonun qalmasında maraqlı olan Moskva hələ ki forpostuna nəinki Qarabağdan rədd olmaq göstərişini vermir, hətta onun silah arsenalının gücləndirilməsi istiqamətində addımlar atır. Şübhə yox ki, fevralın 18-də Bakıda keçiriləcək Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının toplantısında Qarabağın işğalının davamı da müzakirə mövzusu olacaq və iki qardaş ölkənin prezidentləri vahid mövqedən çıxış edəcəklər. Hər halda, cənab Davudoğlu Kiyev bəyanatında prezident Ərdoğanın da iradəsini ifadə edib...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

# Bakıda "Fromula- 1"ə hazırlıqlar sürətləndirilib

## Paytaxtda 340 kilometr/saat sürət üçün nəzərdə tutulan yollar çəkilir












**Bu ilin iyun ayında Bakıda keçiriləcək "Formula-1" yarışlarına hazırlıq işləri davam edir. Musavat.com xəbər verir ki, hazırda bir neçə mərkəzi küçələrin asfalt örtüyü dəyişdirilir, kanalizasiya lyukları dəyişdirilir, kommunikasiya xətləri yenilənir. Yollarda aparılan təmir işləri günün müxtəlif saatlarında tıxaclara da səbəb olur. Artıq bir neçə küçə və prospektlərdə asflat örtüyünün dəyişdirilməsi işləri başa çatdırılıb.**

"Formula-1"in hazırlanan yol xəritəsinə görə, yarışlar Azadlıq meydanı, Puşkin, Xaqani, Bülbül, Zərifə Əliyeva, Əziz Əliyev, Qoşa Qala, İstiqlaliyyət, Niyazi küçələri və Neftçilər prospektlərində baş tutacaq.

Azadlıq meydanı, Niyazi küçəsi, Neftçilər prospektində asfalt örtüyünün iki lay olmaqla yenilənməsi işləri başa çatıb. Hazırda İstiqlaliyyət, Zərifə Əliyeva küçələrində təmir işləri davam edir. İstiqlaliyyət küçəsində avtomobil yolunun bir hissəsində hərəkət məhdudlaşdırılıb. Bu da avtomobil sıxlığına səbəb olur.

Qeyd edək ki, yollardakı təmir işləri "AzVirt" MMC şirkəti tərəfindən həyata keçirilir. Ümumilikdə yarışın keçiriləcəyi tras 6 kilometr uzunluğunda olacaq.

"Bakı Şəhər Halqası" şirkətinin sifarişi ilə hazırlanan layihədə tras maksimum saatda 340 kilometr sürət üçün nəzərdə tutulub. Gənclər və idman naziri Azad Rəhimovun verdiyi son məlumata görə, 6 km yolun tikintisinə 12 milyon manat vəsait ayrılıb. Pikstop binası üçün isə 30 milyon dollar sərf olunacaq.

Pikstop binası Azadlıq meydanında Hökumət Evinin qarşında qurulacaq. Artıq bunun üçün Azadlıq meydanında işlərin görülməsinə başlanılıb. Pikstop binasının tikiləcəyi ərazi hasara alınıb. Start meydançası və əsas tribuna da Azadlıq meydanında qurulacaq. Təmir işlərinin 2016-cı ilin may ayında tamamlanması planlaşdırılır.

Dövlətin "Formula-1" yarışlarına xərcləyəcəyi məbləğə gəlincə isə ilkin məlumata görə, bu, 150 milyon dollardır. İtaliya avtomobil klubunun başçısı Stiççi Damiani Azərbaycanın 2016-cı ildən 2018-ci ilədək keçiriləcək 3 yarışa görə 150 milyon dollar ödəyəcəyini açıqlayıb. Bu məbləğin 50 milyonu 2016, 50 milyonu 2017, digər 50 milyonu isə 2018-ci ildə baş tutacaq Qran-Pri-yə gedir.

Nazir Azad Rəhimov isə bu məbləğin 150 milyon dollar olmadığını deyib. Lakin xərclənəcək məbləğin kommersiya sirri olduğunu bildirərək açıqlamayıb. Nazir 10 illik müqavilə bağlandığını və müqavilə əsasında 5 il "Formula- 1" yarışlarının Azərbaycanda keçiriləcəyini deyib. Nazir qeyd edib ki, əgər qərar verilsə ki, 5 il ərzində yarışlar Azərbaycanda keçirməsin, buna görə də cərimə ödənməlidir. Növbəti 5 il isə Azərbaycan öz istəyinə əsasən bu yarışı keçirə və dayandıra bilər.

❑ **İlkin MURADOV**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Üç uşaq anası təmizlikdən qazandığını narkotikə xərclədi



**Abşeron polisi narkotiklə əlaqədar 2 nəfəri saxlayıb. Kəpəz TV (Region TV) xəbər verir ki, onlardan biri qadındır. Abşeron Rayon Polis İdarəsi Narkotiklərlə mübarizə bölməsinin əməkdaşları özünü şübhəli aparan 41 yaşlı İlham Dadaşovu saxlayıblar. İdarədə onun üzərinə baxış keçirilərkən narkotik vasitə olan qurudulmuş marixuana aşkarlanıb.**

Fəhləliklə məşğul olduğunu deyən İlham Dadaşovun sözlərinə görə, narkotiki öz istifadəsi üçün tanımadığı şəxsdən alıb.

38 yaşlı Pərvanə Məmmədova da şübhəli şəxs qismində saxlanılaraq idarəyə gətirilib. Orada onun üzərindən qurudulmuş marixuana aşkarlanıb. Evlərdə təmizlik işi görməklə dolanan Pərvanə qazandığı pulları narkotikə xərclədiyini bildirib. Qeyd edək ki, 3 uşaq anası olan Pərvanə Məmmədovanın həyat yoldaşı da narkotikin güdazına gedib və bir ilə yaxındır ki, həbsdədir.

Hər iki faktla bağlı Abşeron Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb, araşdırma aparılır.

## Bakıda sərxoş sürücü yol polisinin avtomobilini çəkiclə əzib



**Bakıda sərxoş sürücü yol polisinin avtomobilinə hücum edib. Nərimanov Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, saat 14.15 radələrində yol polisi tərəfindən saxlanılan sürücü Şahin Mail oğlu Bəylərov çəkiclə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinə məxsus BMW markalı, 99 YP 423 dövlət qeydiyyat nişanlı avtomobili əzib. Nəticədə maşına ciddi ziyan dəyib.**

Hadisəni törədən Ş. Bəylərov saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

Qeyd edək ki, hadisə şahidləri əvvəlcə yol polisi avtomobilinin qəzaya düşdüyünü ehtimal ediblər.

## Moskvada azərbaycanlı 13 il əvvəl törətdiyi qətlə görə güllələndi

**Rusiyanın Sankt-Peterburq şəhərinin Nevsk rayonunda 2 ay əvvəl həbsxanadan çıxmış 53 yaşlı Azərbaycan vətəndaşı Yusif Gebeyev güllələnib. APA-nın "Peterburqskaya qazeta"ya istinadən verdiyi məlumata görə, hadisə fevralın 12-də baş verib. Y. Gebeyevin yanından keçən "Renault Duster" markalı avtomobildən naməlum şəxs ona atəş açıb. Nəticədə Y. Gebeyev hadisə yerində ölüb. Sənədlərinə baxan zaman onun 2 ay əvvəl Lipetskdəki həbsxanadan azad edildiyi məlum olub.**

Polis müəyyən edib ki, 53 yaşlı azərbaycanlının qətli 13 il əvvəl törətdiyi cinayət hadisəsi ilə bağlıdır. 2003-cü ildə Moskvada pərakəndə satışa nəzarət edən və ərazi bölgüsü ilə bağlı danışıqlar aparan 33 yaşlı azərbaycanlı avtoritet Şamil Məmmədov qətlə yetirilib. Onun yerli avtoritetin sifarişini yerinə yetirən killer tərəfindən əvvəlcə boynuna bıçaq zərbəsi endirildiyi və ardınca "Makarov" tipli silahla güllələndiyi aydınlaşıb. Hadisədə şübhəli bilinən Yusif Gebeyev saxlanılıb və məhkəmənin qərarı ilə 12 il azadlıqdan məhrum edilib.


**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99

YENİ MÜSAVAT
N 38 (6359) 18 fevral 2016

# Süfrələrimizə GMO təhlükəsi... nəhayət çözüləcəkmi?

**Bu bir reallıqdır ki, xarici ölkələrdə Genetik Modifikasiya Olunmuş (GMO) məhsullar təbii üsullarla yetişdirilən məhsullardan ayrı satılır və etiketlənir. Bu yolla da alıcı aldıqları məhsulun təbii yetişən məhsul olub-olmadığını bilir və seçimini edir. Həmçinin GMO məhsullarının qiyməti digərlərinə nisbətən ucuz olur.**



## Hətta satıcılar belə nə satdıqlarından məlumatsızdır; bu məhsulları necə tanımaq olar? **Eyyub Hüseynov:** "Qanun qəbul olunsa da, əfsus ki, belə məhsullar markalanmır..."

Azərbaycanda isə vəziyyət bir qədər fərqlidir. Bu gün bazarlarımızda satılan meyvə-tərəvəzlərin əksər hissəsi GMO məhsullarıdır. Bu mövzuya dəfələrlə toxunulsa da, ölkəyə geni dəyişdirilmiş məhsulların gətirilməsi və burada istehsalının qarşısı alınmayıb, ən azından bu sahədə qayda yaradılmayıb. Hətta satıcıların əksəriyyəti satdıqları məhsulların GMO tərkibli olduğunu belə bilmir. Belə tərkibli məhsullar digər məhsullarla bir yerdə satılır və onların GMO olduğunu bildirən heç bir məlumata rast gəlinmir. Üstəlik, onlar digərlərinə nisbətən baha qiymətə satılır.

Çoxlarımız baha qiymətə olan bu məhsulların gözəlliyinə, iriliyinə valeh olub bəh-bəhlə alır, hətta ən əziz adamımızı bu meyvə-tərəvəzə qonaq edirik. Ən pisi isə odur ki, həvəslə aldığımız bu məhsulların GMO tərkibli olduğunu bilmirik. Çünki qeyd olunduğu kimi, aldığımız məhsulun üzərində onun GMO tərkibli olduğunu təsdiqləyən hansısa etiket və ya məlumat olmur. Baş çəkdiyimiz bir neçə mağaza və bazarda satıcılardan satdıqları meyvə-tərəvəzlərin GMO tərkibli olub olmadığını soruşduqda "bilmirik" cavabını aldıq. Hətta elə satıcılara da rast gəldik ki, onlar ümumiyyətlə GMO-nun nə olduğunu bilmirlər.



**Meyvə-tərəvəz satıcısı Elnur Əliyev mövsümi olmayan meyvələrin xaricdən gətirildiyini dedi:** "Bu meyvələr xarici ölkədən gətirilib. Məncə, GMO deyil. Yəqin ki, orada yetişən meyvələr bu mövsümdə burada yetişmir".

**Alıcı Zümrüd Quliyeva da vəziyyətdən narahat idi:** "Elə almalar var ki, iki dənəsi bir kilo gəlir. Yəqin ki, onlar GMO tərkiblidir. Amma belə tanıya bilmirəm. Ən yaxşısı kiçik ölçülü, hətta üstündə ləkəsi olan almalardı. Ən azından bilirsən ki, təbii üsulla yetişən yerli məhsuldur. Həm də hər şeyi öz vaxtında yemək yaxşıdır".

Bəs GMO məhsulları necə tanımaq olar? Öncə onu vurğulayaq ki, dünyanın bütün əkin sahələrinin təqribən 25-30 faizində transgen toxumlar əkilir. Məsələn, dünyada yetişdirilən soyanın 80 faizi transgendir. GMO soyanın yağı və unundan kolbasa, şokolad, konfetlər, mayonez, bitki yağları istehsalında geniş istifadə olunur. GMO-nun yaradılması üzərində ilk təcrübələr hələ XX əsrin 70-ci illərində aparılmağa başlanıb. Çərdəkləri kiçik olan böyük, ətli-sulu mükəmməl görünüşlü, eyni boyda, eyni formada olan meyvələr GMO tərkiblidir. Bəziləri qidaların canlılara mənfi təsir etmədiyini desələr də, ilk dəfə olaraq ingilis alimi Arpad Puştai GMO məhsulların insan orqanizminə zərərli təsirini təcrübə yolu ilə sübut edib. Təcrübələr zamanı siçovullara bir müddət transgen tərkibli məhsulların yedizdirilməsi nəticəsində heyvanların qanında leykositlərin miqdarı aşağı düşüb, qaraciyərin ölçüləri kiçilib, çəkiləri azalıb, onlarda aqressivlik yüksəlib, hətta bir-birini yeməyə başlayıblar. Eyni zamanda heyvanlar arasında ölüm faizi də artıb. Sonralar Arpad Puştainin həmkarı Stenli Yuen onun təcrübəsinin nəticələrini yoxlayıb və düzgünlüyünü təsdiq edib. İnsanlara dəyən zərərinə gəlincə isə GMO məhsulları ilə qidalanan bəzi ölkələrin əhalisində piylənmə prosesi ilə həmin məhsulların geniş yayılmasının birbaşa əlaqəsinin mövcudluğu ortaya çıxıb.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov GMO tərkibli məhsulların heç birinin üzərində etiket olmadığını dedi:** "Ekoloji təmiz kənd təsərrüfatı haqqında qanun qəbul olunub. Həmin qanunun tələbində qeyd olunur ki, tərkibində GMO olan mallar markalanmalıdır. Çox yaxşı haldır ki, həmin qanuna görə tərkibində GMO olan mallar ekoloji təmiz hesab olunmur. Lakin qanun qəbul olunsa da, Azərbaycanda GMO-lu məhsullarda markalanması həyata keçirilmir. Azərbaycanda GMO tərkibli məhsulun heç biri markalanmayıb. Ona görə də alıcı GMO tərkibli məhsulları ayırd edə bilmir. GMO məhsulunu tanımağın bir neçə əlaməti var. Bir məhsulun toxumunu götürüb gələn il əkdikdə onun toxumu çıxmırsa, bu GMO əlamətidir. Azərbaycanda qarpızlar, pomidorlar, badımcanlar yetişdirilir. Bunlar GMO məhsuludur. Birmənalı şəkildə sarı, qızılı düyü deyilən düyülər də GMO-dur. Soya harada varsa, 98 faiz GMO-dur".

❑ **Günel MANAFLI**

# Uşaq evlərində böyüyən məşhurlar

## Ailədə və yaxud uşaq evində böyüməsindən asılı olmayaraq, insan əmək sərf edərək, çalışaraq arzuladığı zirvəni əldə edə bilər

**Budəfəki mövzumuz uşaq, internat evlərində böyüyən, lakin min əzab-əziyyətə qatlaşaraq öz istedadları ilə fərqlənib uğur zirvəsinə çatan məşhurlar barədədir. Hər bir insan taleyində keşməkeşli, çətin günlər əlbəttə ki, var. Lakin uşaq evlərində böyüyən şəxslər bu acını daha çox dadır. Həyatın içərisində itib-batmamaq yalnız onların istedadı, fərasəti, yaşamaq uğrunda şəxsi inadları, xarakteri və ən əsası qarşısına çıxan xeyirxah insanlara bağlı olur. Bir zamanlar uşaq evində böyüyən, hazırda ictimaiyyətin tanınmış simalarına çevrilən bəzi məşhurları sizə təqdim edirik.**


Arif Quliyev


Bahar Lətifqızı


Teymur Əmrah

Onlardan biri, bəlkə də ən birincisi, **xalq artisti, güləş ustası Arif Quliyevdir.** İctimaiyyətə çoxdan məlumdur ki, Arif Quliyev lap kiçik yaşlarından uşaq evinə gətirilib. Aktyorun dediyinə görə, təxminən 1-2 yaşı olarkən anası onu uşaq evlərinin birinin qarşısına atıb gedib. Arif uşaq evində keçirilən ictimai tədbirlərdə daim fəal iştirak edib, öz istedadı ilə digərlərindən fərqlənib. 19 yaşı olarkən məşhur aktrisamız Nəsibə Zeynalova və Siyavuş Aslan onun üçün Mingəçevirə, Gülnarə adlı bir qızgilə elçiliyə gediblər. Lakin aktyorun taleyi başqa Gülnar adlı xanımla birləşir. Arif Quliyev təkcə teatr səhnəsində deyil, kino mədəniyyətimizdə də xüsusi rolu olan, səvimli obrazlar yaradan aktyordur. Hazırda özəl Satira Teatrının bədii rəhbəri olan xalq artisti "Humay" və "Dərviş" mükafatlarına layiq görülüb. Sənətdə qazandığı böyük uğurlara baxmayaraq, aktyor şəxsi həyatında buna müvəffəq ola bilməyib. Belə ki, aktyorun oğlu Fərid 1998-ci ildə münaqişə zəminində dostunu qətlə yetirdiyi üçün həbs olunur. Həbsxanada vərəmə tutulan xalq artistinin oğlu azadlığa çıxandan bir müddət sonra 34 yaşında vəfat edir. Səhhətində yaranmış problemlərə baxmayaraq Arif Quliyev yeni çəkilən seriallara qatılır, fəaliyyətini davam etdirir.

**Müğənni Bahar Lətifqızı** da uşaq evindən çıxan tanınmış sənətçilərdən biridir. Müğənni açıqlamalarında bildirib ki, uşaq evində böyüdüyü üçün valideynlərini heç vaxt qınamayıb. Dediyinə görə, atası çox tez dünyasını dəyişib. Əlacsız qalan şikəst anası Baharı və Arif adlı qardaşını internat məktəbinə yerləşdirib. Müğənni onu atan anasını bağışladığını bildirib. Bahar Lətifqızı ilə birgə internat evində böyüyən qardaşı Arif hər zaman ona dəstək olub. Müğənninin dediyinə görə, hətta 7-ci sinifdə oxuyarkən özünü binadan atmaq istəyəndə qardaşı ona mane olub... Bahar Lətifqızı üç dəfə uğursuz ailə həyatı yaşasa da, səsi və sənəti ilə şou aləmində uğur qazanmağa nail olub. O, müsahibələrinin birində hazırda internat evlərində yaşayan uşaqlara səslənərək, yalnız təhsilə fikir verməyi tövsiyə edib: **"İnternatda oxuyan uşaqlara səslənirəm. Ancaq təhsilinizə fikir verin. Geyimi də, gəzməyi də, yeməyi də sonra tapa bilərsiniz. Mütləq savad alın. Mən indi paltarlarımı qoymağa yer tapmıram. Yeməkləri, bilmirəm ki, nə edim. Amma təhsilim olsaydı, bəlkə də ayrı sənətə yiyələnərdim".**

**Əməkdar artist, klassik mahnıların mahir ifaçısı müğənni Teymur Əmrah** da uşaq evində böyüyüb. Müğənninin taleyi onda gətirib ki, qarşısına xeyirxah, tanınmış insanlar çıxıb. Teymur Əmrah hazırda Azərbaycan Dövlət Milli Konservatoriyasının vokal müəllimi və R. Behbudov adına Mahnı Teatrının solisti kimi fəaliyyət göstərir.

Təkcə sənət adamları deyil, siyasətçilər arasında da uşaq evlərində böyüyən tanınmışlar var. Onlardan biri ADP sədri Sərdar ( Məmmədov) Cəlaloğludur. Əldə etdiyimiz məlumata görə, o, 6 yaşından ailəsindən ayrılaraq Ordubadda yerləşən internat evində təhsil alıb. 10 il burda təhsil alan Sərdar Məmmədov internat məktəbini əla qiymətlərlə bitirib. Əvvəl şərqşünas olmaq istəyən S.Məmmədov sonralar Azərbaycan Tibb Universitetinə daxil olub, 1988-90-cı illərdən başlayaraq siyasətdə uğurlar qazanmağa başlayıb. Hazırda Azərbaycan Demokratik Partiyasının sədri olan Sərdar Cəlaloğlunun üç övladı və nəvələri var.

**Gətirdiyimiz bu cür nümunələr bir daha sübut edir ki, ailədə və yaxud uşaq evində böyüməsindən asılı olmayaraq insan əmək sərf edərək, çalışaraq arzuladığı uğuru, zirvəni əldə edə bilər....**

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
Son səhifə
N 39 (6358) 18 fevral 2016



## Pul verməyən valideynlərini məhkəməyə verdi

Çində yaşayan 29 yaşlı Kunq Senksun valideynlərini onlardan maliyyə yardımı ala bilmədiyi üçün məhkəməyə verib. Kunqun yaşı çox olsa da, ata-anasından maliyyə yardımı gözləyir. Buna görə də media 29 yaşlı bu adama "uşaq-kişi" adı verib. Kunqun dediyinə görə, o, məktəbi bitirdikdən sonra ağac işləməsi və bərbərlik üzrə kurs keçib. Bundan sonra Kunq qısamüddətli də olsa, bərbər işləyib. Lakin səhvən oğurluqda günahlandırılaraq döyülüb və işdən qovulub. Bundan sonra o, heç yerdə işləməyib. Beləliklə, Kunq tüfeyli həyat sürərək valideynlərinin evində yaşamağa başlayıb. O, bütün gününü yatmaq və telefonla oynamaqla keçirib. Onun bu davranışından bezən valideynləri övladlarından yaxa qurtarmaq istəyiblər. Valideynləri Kunqdan evi tərk etməyi tələb ediblər.

**Kunqun atası deyir:** "O, hər dəfə zəng edib bizdən pul istəyir. Düşünür ki, valideynləri onu maliyyə cəhətdən təmin etməlidir. Mənim heç işləmək üçün gücüm qalmayıb. O isə gəncdir, işləyə bilər. Nəyə görə o, bizə maliyyə yardımı etməsin?" Kunq valideynlərini məhkəməyə vermək üçün vəkil tutub. O, incəsənət məktəbində portret model kimi işə düzəlib, lakin işindən narazıdır. Yeni işində Kinq 4-5 saat rəssamın qarşısında dayanmalıdır. O deyib: "İşim yorucudur və stabil deyil. Bilinmir ki, sabah nə olacaq. Mən özüm-özümü saxlaya bilmirəm. Valideynlərimin məni təmin etmək üçün kifayət qədər gücü var, lakin kömək etmirlər. Buna görə də onları məhkəməyə vermək istəyirəm".

# Körpə ağladı, ailənin həyatı xilas oldu

Türkiyənin Bursa şəhərində 10 aylıq körpə ağladığı üçün bütün ailəsini xilas edib. Belə ki, körpə ağlamasaydı, qaz sobasından evə dolan zəhər nəticəsində bütün ailə həyatını itirə bilərdi. 27 yaşlı ata Sadık Birinci bildirib ki, hər şey 10 aylıq körpələrinin gecə saat 2-də oyanıb aramsız ağlaması ilə başlayıb. Onu beşikdə yırğalamağa çalışan hamilə anası susdurmağa nail ola bilməyib. Bu zaman hər iki valideynin halı pisləşib və yataqdan qalxa bilməyərək, qonşu otaqdakı ailə üzvlərini çağırıblar. Bir neçə gün zəhərlənmədən xəstəxanada müalicə olunan ailə sonda sağalıb: "Balaca körpəm bütün ailənin, bir ay sonra dünyaya gələcək qardaşının da həyatını xilas etdi. Allah hər kəsə belə övlad nəsib etsin".



# Yeni kəşf - əldə hazırlanmış mini-beyin

**Amerikalı alimlər uzun müddətdir üzərində işlədikləri bir layihəni yekunlaşdırıblar. Bu, mini insan beyinlərinin hazırlanmasıdır. Bu kəşf yeni dərmanların təcrübəsində və beyinlə bağlı xəstəliklərdə ümid olacaq. Amerikanın inkişaf etmiş təhsil qurumlarından olan Con Hopkins Universitetində həyata keçirilən araşdırma hazırda elm dünyasının gündəmini təşkil edir. Universitetin "Bloomberg School of Public Health" departamenti işçilərinin imzasını daşıyan araşdırma nəticəsində mini insan beyinləri yaradılıb. 350 mikrometr həcmində olan mini beyinlərin hazırlanmasında təbii hüceyrələrdən də istifadə olunub.**

Araşdırmanın lideri olan Tomas Hartunqun dediyinə görə, mini-beyinlər çox qısa zamanda yeni dərmanların təcrübə edilməsində açar rolunu oynayacaq. Belə ki, heyvanlar üzərində təcrübədən keçirilən hər 100 yeni dərmandan 95-i ekspertlər tərəfindən razılıq alsa da, sonradan onların insanlara uyğun olmadığı üzə çıxır. Amma yeni mini-beyinlər sayəsində Alsheymer və Parkinson xəstəliklərinin müalicəsi də yaxından araşdırılacaq.





## Ər-arvad eyni kurorta 170 dəfə gedib

**İngiltərə qraflığı Surreydə bir cütlük Torbey kurortuna son 45 ildə ən azı 170 dəfə baş çəkib. Bu barədə lenta.ru saytı "The Daily Mirror"a istinadən xəbər yayıb. Məlum olub ki, ilk dəfə Alan və Cun Leyzenbi bu kurorta 1969-cu ildə, toy səyahəti məqsədilə baş çəkib. Ondan sonra cütlük hər yay öz uşaqları ilə bu kurorta istirahətə gedib. Son 10 ildə ailə hər il ən azı 5 dəfə bu kurorta baş çəkib. 2014-cü ildə isə ər-arvad ilk dəfə istirahətə öz nəvələri ilə birgə yollanıb.**

Alan Leyzenbinin sözlərinə görə, vaxtilə Torbeyə səfər təxminən 8 saat çəkirdi. Son zamanlar isə yolun keyfiyyətinin artması nəticəsində səfərin müddəti 4 saata qədər azalıb. Cütlük gələn il üçün indidən 4 səfəri bron edib. Daha 3 səfər planlaşdırma mərhələsindədir. Torbey bölgəsi britaniyalılar arasındakı ən məşhur istirahət zonalarından sayılır.

## Qoroskop




**QOÇ** - Astroloji göstəricilər daha çox şəxsi büdcənizin artacağından xəbər verir. Hətta bunun naminə digər məsələləri ikinci plana da sala bilərsiniz. Çünki ulduzlar gələn həftəyə imkanlı şəkildə qədəm qoyacağınızı bildirir.

**BUĞA** - İstər fəaliyyət zəminində, istərsə də qarşılıqlı münasibətlərdə ümumi axar ürəyinizcə olacaq. Başlıca probleminiz olan maliyyə çətinlikləri isə qismən də olsa, qaydasına düşəcək.

**ƏKİZLƏR** - Günboyu qazanc əldə etmək üçün yaxşı imkanlarınız olacaq. Bu səbəbdən nahara qədər yarımçıq işlərinizi yekunlaşdırmağa çalışın. Nəzərə alın ki, bu ərəfə daxili tərəddüdlərinizi kifayət qədər səngidəcək.

**XƏRÇƏNG** - Saat 10-12 arası ətrafınızda, həmçinin daxilinizdə ümumi bir gərginlik hökm sürəcək. Bu isə ümumi ovqatınızı aşağı sala bilər. Yaxşı olar ki, həmin müddəti evdə keçirəsiniz. Sonrakı saatlar çox düşərlidir.

**ŞİR** - Bu təqvimi romantik tərzdə keçirmək istəyirsinizsə, aldığınız dəvətlərə "yox" deməyin. Çünki evdə qalmaq sizin üçün darıxdırıcı keçə bilər. Yeni işlərlə bağlı müəyyən səfərlər etmək olar.

**QIZ** - Perspektivlərinizin reallaşması üçün bir qədər mürəkkəb gündür. Hətta vəzifə pilləsində müəyyən uğursuzluq ehtimalınız da var. Odur ki, hər bir situasiyaya təmkinlə yanaşmağa çalışmalısınız.

**TƏRƏZİ** - İxtiyarınızda olan gün sizin üçün çox sakit keçəcək. Amma kiməsə borc vermək, ümumiyyətlə riskli sövdələşmələrə getmək uğurlu deyil. Bu gün sənədləşdirmə işlərinizi də qaydasına salın.

**ƏQRƏB** - Ümumi məziyyətlərinə görə düşərli gün hesab etmək olar. Amma nəzərdə tutduğunuz ideyaları həyata keçirmək üçün mütləq risk etməlisiniz. Onsuz da əksər işləriniz risklər hesabına reallaşır.

**OXATAN** - Qarşınızda uğurlu bir gün durur. Bu baxımdan paralel olaraq bir neçə işdə fəaliyyət göstərə bilərsiniz. Hadisələrin müsbət inkişafı daha şanslı olmağınıza şərait yaradacaq.

**OĞLAQ** - Ümumi ab-hava əsəblərinizə mənfi təsir göstərsə də, bu, qarşınıza qoyduğunuz məqsədlərə yetişməkdə sizə mane olmayacaq. Hərdəmxəyallıq, acıdillilik etməyin. Yeni işlə bağlı uzaq dəvətlərə aludə olmayın.

**SUTÖKƏN** - Ulduzlar saat 12-yə qədər ayıq-sayıqlığınızı artırmağınızı məsləhət görür. Əlalxüsus da fəaliyyət zəminində baş verən bütün proseslərdə neytrallıq nümayiş etdirməlisiniz. Sonrakı saatlarda isə maraqlı hadisələrlə rastlaşacaqsınız.

**BALIQLAR** - Kosmik ahəngə uyğunlaşmağı bacarsanız, qayğılarınız da azalacaq. Qlobal problemlərinizin həll olunması üçün canfəşanlığınızı artırmalısınız. Bu addımınızı dəstəkləyən Göy qübbəsi bir çox məsələlərdə sizə yardımçı olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Poçtalyon vəhşi hindquşu sürüsünün əhatəsində qaldı



**Amerikanın Nyu Cersi ştatındakı Hilsdeyl şəhərində poçtalyona vəhşi hindquşu sürüsü hücum edib. Lenta.ru saytının xəbərinə görə, poçt idarəsinin rəhbəri əməkdaşlarından birinin sürünün hücumuna məruz qaldığını və onların əhatəsindən qurtula bilmədiyini öyrənib yerli polis idarəsinə müraciət edib. Hadisə yerinə gələn polislər vəhşi sürünü dağıdıblar. Poçtalyon bu barədə yerli media orqanlarına hər hansı xəbər verməyib. Amma o, təxminən yarım saat sürünün əhatəsində olub və psixoloji sarsıntı keçirib.**

Maraqlıdır ki, 19-cu əsrin ortalarından etibarən Nyu Cersi ərazisindən vəhşi hindquşları yox olmuşdu. Yerli bioloqlar onların sözügedən ərazidə bərpası üçün 1977-ci ildən etibarən əməliyyata başlayıblar.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300